HƏMZƏ CƏFƏROV

NAXÇIVANDA TƏHSİL: İNKİŞAF YOLU VƏ İMKANLARI



HƏMZƏ CƏFƏROV

NAXÇIVANDA TƏHSİL: İNKİŞAF YOLU VƏ İMKANLARI

Naxçıvan Dövlət Universiteti Elmi Şurasının 27 dekabr 2010-cu il tarixli (protokol № 03) qərarı ilə çap olunur.

NAXÇIVAN
MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNİN
NAXÇIVANŞÜNASLIQ
MƏRKƏZİ
Daxil olma № 01
"09" fevral 2013 il

«Elm və təhsil»
BAKI – 2011

Ön sözün müəllifi: **İSMAYIL HACIYEV**
AMEA-nın həqiqi üzvü

Elmi redaktor: **HACI FƏXRƏDDİN SƏFƏRLİ**
Tarix elmləri doktoru, professor

Rəyçilər: **İSA HƏBİBBƏYLİ**
AMEA-nın həqiqi üzvü

HACI QADİR QƏDİRZADƏ
AMEA-nın müxbir üzvü

Həmzə Cəfərov. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları.
Bakı, «Elm və təhsil», 2011. – 544 səh. (+ 24 səh. rəngli şəkil)

Monoqrafiyada Naxçıvanda maarif sisteminin təşəkkül tapması tarixi, XX əsrin 20-80-ci illərində Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı, müstəqillik dövründə təhsil sahəsində görülən işlər arxiv və dövri mətbuatın materialları əsasında araşdırılmışdır. Monoqrafiyadan təhsilin tarixi ilə maraqlananlar, təhsil işçiləri, ümumən geniş oxucu kütləsi faydalana bilər.

C $\frac{4702000000}{N098 - 2011}$ ***qrifli nəşr***

© «Elm və təhsil», 2011



«Mən müəllim sənətini, müəllim işini və zəhmətini yüksək qiymətləndirirəm. Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir».

HEYDƏR ƏLİYEV
Ümummilli lider
(Ölkənin təhsil işçilərinin bir qrupu ilə görüşdəki çıxışından, 12 fevral 1995-ci il,)

Bizim siyasətimizin əsas istiqaməti bundan ibarətdir ki, Azərbaycanda insan kapitalına qoyulan sərmayə gündən-günə artsın. Bu yeni orta məktəblərin, ali məktəblərin yaradılması bir məqsədi güdür ki, Azərbaycanda təhsilin səviyyəsi bizi qane edən səviyyəyə qalxsın. Bunu etmək üçün əlbəttə ki, məktəb tikintisi də, təhsilin keyfiyyətinin yaxşılaşdırılması, artırılması da lazımdır... Eyni zamanda, təhsilin keyfiyyətinin artırılması **məsələləri bu gün diqqət mərkəzindədir.**

İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti
(Naxçıvana səfəri çərçivəsində görüşlərindəki nitqindən,
5oktyabr 2010-cu il)

«İnsan kapitalı yaratmaq cəmiyyət üçün, müstəqil dövlətimiz üçün yüksək mənəviyyatlı, savadlı kadrlar yetişdirmək, bütün pillələr üzrə təhsil islahatını başa çatdırmaq, təhsili davamlı inkişafa qovuşdurmaq, bir sözlə, bu sahədə ən müasir infrastruktur yaratmaq deməkdir».

VASİF TALIBOV

Naxçıvan MR Ali Məclisin Sədri

(2009-2010-cu tədris ilində ümumtəhsil məktəblərini bitirmiş və ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə keçirilən görüşdəki nitqindən, 19 avqust 2010-cu il)

ÖN SÖZ

NAXÇIVAN TƏHSİLİ: YÜZ İLLİK İNKİŞAF YOLUNDA

Təhsil hər bir millətin gələcəyini müəyyən edir. Millət təhsillə irəli gedir, milli şüuru artır, intellektual potensialı yüksəlir. Dünyanın inkişaf etmiş ölkələrinin tarixi təcrübəsi bu fikirləri bir daha təsdiq edir. Hansı millət ki, təhsilə böyük əhəmiyyət vermişdir, o daha çox inkişaf etmiş, irəli getmişdir.

Xalqların və dövlətlərin sürətli inkişaf yolu təhsildən keçir. Təsadüfi deyildir ki, hələ vaxtı ilə ulu öndər Heydər Əliyev qeyd edirdi ki, dövlət təhsilin inkişafı üçün hansı sahədən olursa-olsun vəsait tapmalıdır. XIX əsrin Azərbaycan maarifçiləri, mütəfəkkirləri əhalinin savadlanmasına, təhsilli olmalarına xüsusi əhəmiyyət vermiş, bu istiqamətdə fəaliyyət göstərmişlər.

XX əsrdə Azərbaycan xalqının maariflənməsində təhsil prosesinin, bu sahənin görkəmli nümayəndələrinin müstəsna xidmətləri olmuşdur. Belə ziyalılar xeyriyyəçilik fəaliyyətləri göstərir, məktəblər açır, gənclərin, eləcə də bütün əhalinin savadlandırılması üçün bütün vasitələrdən istifadə edirdilər. Onlar bildirdilər ki, bu sahənin inkişafı Azərbaycan xalqının gələcək taleyini müəyyən edir. Görkəmli şəxsiyyətlər, maarifçilər xalqın taleyinə biganə yanaşa bilməzdilər. Elə bütün bunların nəticəsində XX əsrdə maarifçilik hərəkatı ən yüksək səviyyəyə qalxmış, elm və təhsildə böyük uğurlar əldə edilmişdir. Bu nailiyyətlər XXI əsrdə də davam etdirilmişdir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da təhsilə həmişə diqqət yetirilmiş, qayğı göstərilmişdir. XIX əsrin sonunda Naxçıvanda yeni tipli şəhər və qəza təhsil ocaqlarının yaradılmasına başlanıldı. Bu tipli məktəblərin yayılmasında Ordubadda «Əxtər» (1892), Naxçıvanda «Tərbiyə» (1894) məktəblər açmış Məhəmmədtağı Sidqinin böyük xidmətləri olmuşdur. M.Sidqi Naxçıvanda ilk dünyəvi qız məktəbinin də əsasını qoymuşdur (1896). «Məhəlli məktəblər», «Məktəbi-xeyriyyə» və «Rüşdiyyə» kimi tədris ocaqları da yaradılmışdır.

Naxçıvanda maarifin inkişafında M.T.Sidqi, C.Məmmədquluzadə, C.P.Sultanov, M.Ə.Süleymanov, Ə.Xəlilov, M.Kəngərli, M.Qarayev, M.C.Şürbi və başqalarının mühüm xidmətləri olmuşdur. XX əsrdə bu ənənə Naxçıvan ziyalıları tərəfindən davam etdirilmişdir.

Təəssüflə qeyd etməliyik ki, bu günə qədər Naxçıvanda təhsilin inkişaf tarixinə aid ümumiləşdirici əsər yazılmamışdır. Ayrı-ayrı dövrlərdə təhsilin inkişafına aid namizədlik və doktorluq dissertasiyaları müdafiə edilsə də, əldə lazımi səviyyədə fakt və materiallar olsa da buna təşəbbüs göstərilməmişdir.

Naxçıvan Dövlət Universitetinin professoru, tarix elmləri doktoru Həmzə Cəfərovun «Naxçıvanda təhsil: inkişaf yolu və imkanları»»» adlı monoqrafiyası bu sahədə ilk ümumiləşdirici əsər sayıla bilər.

Prof. H.R.Cəfərovun bu mövzuya müraciət etməsi təsadüfi deyildir. Həmzə Cəfərov bir müddət təhsil sistemində fəaliyyət göstərmiş, adi kənd müəllimliyindən muxtar respublikanın Təhsil naziri vəzifəsinə qədər yüksəlmişdir. Onun təhsil sistemində səmərəli fəaliyyəti, bu sahənin problemlərinə bələdliyi, tədqiqat işləri aparması belə bir fundamental əsərin ortaya çıxmasına şərait yaratmışdır. İki bölmə, yeddi fəsildən ibarət olan əsərdə Naxçıvanda maarif sisteminin təşəkkülündən başlamış günümüzədək keçdiyi şərəfli yol, inkişaf tarixi izlənmişdir.

Naxçıvanda təhsilin inkişafı həm sovet dövründə, həm də müstəqillik illərində araşdırılmışdır. XIX əsrin sonları XX əsrin əvvəllərində Naxçıvanda maarifin və təhsilin inkişafı daha çox demokratik ziyalıların adı ilə bağlı olmuşdur. Lakin sovet rejiminin bərqərar olmasından sonra təhsil sistemi də sovet ideologiyasının tələblərinə uyğunlaşdırıldı. Əhalinin kütləvi savadsızlığı, məktəb binalarının çatışmaması, müəllim kadrlarının olmaması, maarif sisteminin yenidən qurulmasına imkan vermirdi. Tədqiqatçının fikrincə, Naxçıvan diyarında bu çətinliklərin olmasına baxmayaraq 45 məktəb açmaq mümkün olmuş və bunlarda 80 nəfər müəllim işləmişdir. 1920-21-ci illərdə Naxçıvanın üç qəzasında 47 məktəb olmuş, bunlarda 2440 şagird təhsil almışdır.

Monoqrafiyada keçən əsrin bütün illərinə aid çoxsaylı fakt və materiallar təhlilə cəlb edilmiş, müqayisələr aparılmış, ümumiləşdirmələr verilmiş və yekun nəticələr çıxarılmışdır. «XX əsrin 20-30-cu illərində Naxçıvan MSSR-də təhsilin inkişafı», «Naxçıvan təhsili 1940-60-cı illərdə», «Naxçıvan təhsili yeni inkişaf mərhələsində (XX əsrin 70-80-ci illəri)» fəsilləri fakt zənginliyi, savadsızlığın aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlərin əhatəliliyi, məktəblərin və şagirdlərin sayının artım dinamikasının izlənilməsi, ümumicbari təhsil, yeddillik icbari təhsilin, onillik orta ümumtəhsilin tətbiqi, müəllim kadrlarının hazırlığı, məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, məktəbəqədər və məktəbdənkənar müəssisələrin yaradılması, Pedaqoji texnikumların və Naxçıvan Müəllimlər İnstitutunun pedaqoji kadr hazırlığındakı rolları, müxtəlif profilli kadrların hazırlanması kimi məsələlərin əhatəli tədqiqi ciddi maraq doğurur. İkinci dünya müharibəsinin başlanması və bunun təhsil sitemində yaratdığı çətinliklər araşdırılır. Məlum olur ki, əgər 1940-41-ci tədris ilində muxtar respublika üzrə 196 ümumtəhsil məktəbində 30458 nəfər şagird təhsil alırdısa, 1941-42-ci illərdə bunlar müvafiq olaraq 153 və 18850 nəfər olmuşdur. Müharibə qurtarandan sonra təhsilə ayrılan vəsaitin artırılması, məktəblərin şəbəkəsinin

genişləndirilməsi, strukturunda bir sıra dəyişikliklərin tətbiqi, maddi-texniki bazanın möhkəmləndirilməsi, müəllim kadrlarının peşə hazırlığının artırılması kimi məsələlər geniş tədqiq edilmiş, ciddi ümumiləşmə aparılmışdır.

Naxçıvanda Azərbaycan Dövlət Pedaqoji İnstitutun Naxçıvan filialının yaradılması və onun muxtar respublikanı ali təhsilli pedaqoji kadrlarla təmin edilməsindəki rolu araşdırılır. Naxçıvan Muxtar Respublikası təhsilinin yeni inkişaf mərhələsindəki vəziyyəti muxtar respublikanın ictimai-siyasi vəziyyəti fonunda izah edilir, Azərbaycan üçün yüksək ixtisaslı kadr hazırlığında Naxçıvan təhsilinin rolu göstərilir.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsi və bunun ölkə iqtisadiyyatı ilə yanaşı, təhsil sisteminə də əsaslı təsir göstərməsi faktların dili ilə izah edilir. Müəllif haqlı olaraq göstərir ki, Azərbaycanın intibah dövrü kimi səciyyələndirilən 70-80-ci illər Azərbaycan təhsili və maarifinin inkişafında keyfiyyətcə yeni mərhələni təşkil etmişdir. Bu dövrdə muxtar respublikanın təhsil sistemində də əsaslı dəyişikliklər baş vermişdir. Məktəblərin tikilməsi, təhsilə ayrılan dövlət vəsaitinin artırılması, musiqi təhsilinin və texniki-peşə təhsili sisteminin genişləndirilməsi, ixtisaslı mütəxəssislərin hazırlanması, ali təhsilin və elmin inkişaf etdirilməsi və b.

Müstəqillik dövründə Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı üç mərhələdə nəzərdən keçirilir: 1991-1993, 1993-2003 və 2003-2010-cu illər. Hər dövrün xarakterizası verilmiş, uğurlar və çatışmazlaqlar təhlil edilmişdir. 1988-1991-ci illər üçün təhsilin vəziyyəti faktların köməyi ilə izah edilmiş, Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsindən sonra bu istiqamətdə həyata keçirilən tədbirlərdən, əldə edilən uğurlardan söhbət açılır.

Son on beş il ərzində muxtar respublikanın sosial-iqtisadi yüksəlişindən və bunun təhsilin inkişafına göstərdiyi təsirdən geniş bəhs edilir. Yeni məktəblərin tikilməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, təhsilin keyfiyyətinin artırılması, yüksək bal toplayan və ali təhsil müəssisələrinə

qəbul olan şagirdlərin sayının artması, ali təhsil müəssisələrinin, orta ixtisas məktəblərinin şəbəkəsinin genişləndirilməsi kimi məsələlər tədqiq edilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun çoxcəhətli fəaliyyəti, onun təhsil sahəsini prioritet istiqamət elan etməsi, bu sahəyə çox böyük əhəmiyyət verməsi muxtar respublikanın təhsil həyatının yüksəlişinə səbəb olmuşdur. Müəllif bunun ilk səbəblərindən birini təhsilə ayrılan xərclərin ilbəil artmasında görür. Bu vəsaitlər yeni məktəblərin, uşaq bağçalarının tikilməsində, əsaslı təmirində, yenidən qurulmasında özünü göstərir. Nəticədə, muxtar respublikada məktəblərin sayı 2003-cü ildə 1990-cı ilə nisbətən 6,9 faiz artaraq 232-ə çatmış, 8687 müəllim 72179 nəfər şagirdin təlim-tərbiyəsi ilə məşğul olmuşdur. Monoqrafiyada təkcə ümumtəhsil məktəblərində baş verən dəyişikliklər deyil, orta ixtisas və ali təhsil sahəsində olan yeniliklər, dəyişikliklər, kəmiyyət və keyfiyyət artımı bir sıra parametrlər üzrə təhlil edilmişdir. Burada elmi fəaliyyətlə məşğul olan işçilər, onların faydalı iş əmsalı, kadr hazırlığı, elmi potensialın ilbəil yüksəlməsi də nəzərdən keçirilir.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən elm və təhsil müəssisələrinin beynəlxalq əlaqələrinə geniş yer verilmiş, monoqrafiyada bu əlaqələrin mahiyyəti, əhəmiyyəti və göstərdiyi təsir inandırıcı faktlarla izah edilir. Müəllif haqlı olaraq göstərir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qonşu ölkələrə səfərləri, bağlanmış əməkdaşlıq müqavilələri elm və təhsil müəssisələrinin beynəlxalq əlaqələrinə istiqamət vermiş və nəticədə müştərək tədbirlərin, tədqiqatların hüquqi bazasını yaratmışdır.

Monoqrafiyada beynəlxalq və respublika səviyyəli simpozium və konfranslardan, Dissertasiya Şuralarının fəaliyyətlərindən, elm və təhsil işçilərinə verilən mükafatlar və fəxri adlardan, şagirdlərin fənn olimpiadalarında iştirakından yerliyerində və ətraflı bəhs edilir.

Müəllif Naxçıvan təhsili intibah dövrdəki (2003-2010-cu illər) vəziyyətinin geniş mənzərəsini yaratmış və əsərdə buna

xeyli yer ayırmışdır. Ölkə rəhbərliyinin təhsilə göstərdiyi diqqət və qayğı ətraflı izah edilmiş, ölkəmizdə təhsil sisteminin davamlı inkişaf strategiyasının ən mühüm istiqamətlərindən birinə çevrilməsi əsaslandırılmışdır. Naxçıvan Muxtar Respublikasında təhsil siyasətinin uğurla həyata keçirilməsi, yeni təhsil müəssisələrinin tikilməsi, yenidən qurulması, təmiri, maddi-texniki bazasının möhkəmləndirilməsi, ümumtəhsil məktəblərinin kadrlarla təmin olunması, təhsil yarmarkalarının keçirilməsi və bunun əhəmiyyəti, məktəblərin yeni texnologiya ilə təminatı-kompyuter və elektron lövhələrin ilbəil artması, məzunların ali məktəblərə qəbulu, abituriyentlərin 500-700 intervalında topladığı balların yüksəlməsi, prezident təqaüdünə layiq görülmüş məzunların artması, məzunların xarici ölkələrə təhsil almağa göndərilmələri və başqa göstəricilər haqqında yerindəcə məlumatlar verilmiş və təhlillər aparılmışdır. Müəllif təhsil sisteminin digər struktur bölmələri haqqında bəhs etmiş, məktəbəqədər, məktəbdənkənar müəssisələr, peşə məktəbləri, orta ixtisas məktəblərinin fəaliyyəti haqqında araşdırmalar aparmışdır.

Monoqrafiyada ali təhsil müəssisələri, onların fəaliyyəti və kadr hazırlığındakı rolları faktlarla izah və təhlil edilir. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin elmi fəaliyyəti, elmi əməkdaşların çap məhsulları haqqında da bəhs edilir.

Professor Həmzə Cəfərovun təqdim edilən monoqrafiyası müraciət olunan mövzu ilə bağlı ilk ümumiləşdirici əsər kimi mühüm əhəmiyyətə malikdir. Və bu əsər əks etdirilən problemlərin aktuallıq və müasirliyini əyani surətdə aşkara çıxarır. Bundan başqa, oxucuların istifadəsinə verilən bu əsər «Naxçıvanda təhsil: inkişaf yolu və imkanları» mövzusunun dərin və əhatəli, iri masştablı bir tədqiqat üçün zəngin material verdiyini çıxarır, qabarıq surətdə nəzərə çarpdırır. Bu mənada geniş oxucu kütləsinə, çoxminli təhsil işçilərinə ünvanlanmış əsər elmi-tədqiqat işçiləri üçün, yeni elmi nəsil üçün xüsusilə faydalıdır. Milli təhsilimizin həm icraçıları, həm də

tədqiqatçıları bu qiymətli əsərdən-oradakı ümumiləşdirici fakt və hadisələrdən, 60-dan çox cədvəl, diaqram və sxemlərdən ən zəruri bilikləri və istiqaməti ala bilərlər.

Professor Həmzə Cəfərovun «Naxçıvanda təhsil: inkişaf yolu və imkanları» əsəri muxtar respublikamızın çoxminli təhsil işçilərinin layiqli əməklərinə təqdim edilmiş elmi töhfədir.

akademik İsmayıl Hacıyev

GİRİŞ

Bəşəriyyətin çoxəsrlik, zəngin tarixi təcrübəsi sübut edir ki, ictimai, sosial tərəqqinin əsasını təhsil və elm təşkil edir. Azərbaycanın dövlətçilik əsaslarını yaratmış ulu öndərimiz Heydər Əliyev də xalqımızın tərəqqisinin yeganə yolunu təhsildə, elmdə və mədəniyyətdə görmüş, öz həyatını və fəaliyyətini bu məqsədin həyata keçirilməsinə həsr etmişdir. Ulu öndərimiz elm və təhsili inkişafın ən qüdrətli vasitəsi hesab edirdi.

Təhsili hər bir cəmiyyətin, dövlətin mühüm sahəsi olduğunu dərindən bilən ulu öndər Heydər Əliyev qeyd edirdi ki, Azərbaycan xalqının, müstəqil Azərbaycanın gələcəyi gənclərin bu gün aldıqları bilik, təhsil və tərbiyədən asılıdır. Bunlar xalqımızın mənəvi dəyərlərini, ölkəmizin müstəqilliyini qoruyub saxlayacaqdır.

Heydər Əliyev xalqımızın uzun əsrlər boyu formalaşmış yüksək milli-mənəvi dəyərləri qorumağı öyrənməyi və gələcək nəsillərə ötürməyi tövsiyə edirdi.

Azərbaycan xalqının bugünkü iqtisadi, mədəni və mənəvi potensialının formalaşmasında, yüksək intellektə malik bir millət kimi formalaşmasında zəngin ənənələrə malik təhsil sistemi mühüm rol oynamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, «Azərbaycanın təhsil tarixi hər birimizin fəxr etdiyi nailiyyətlərlə zəngindir. Azərbaycan müəllimləri tarix boyu təhsildə daim varisliklə novatorluğun, ənənə ilə islahatın vəhdətini öz fəaliyyətlərində əks etdirmişlər» (5, 2008, 26 sentyabr).

Ölkəmizdə maarifçilik və təhsil hərəkatı böyük inkişaf yolu keçmiş, mütərəqqi ənənələrə malik tədris müəssisələri mövcud olmuşdur. Məhz həmin məktəblər bəşər mədəniyyətinə, ictimai və elmi fikrinə Əcəmi Naxçıvani, Nəsrəddin Tusi, Fəzlullah Nəimi və başqa dühalar bəxş etmiş, Azərbaycan xalqı dünya elmi və maarifin inkişafında mühüm rol oynamışdır.

Lakin maarifçilik hərəkatının, elm və təhsilin ən yüksək zirvəsi şübhəsiz XX əsr olmuşdur. Məhz bu əsrdə Azərbaycanda təhsil sisteminin geniş şəbəkəsi yaradılmış, xalqımız ümumi təhsilə cəlb olunmuşdur. İyirminci yüzilliyin ən böyük mənəvi-siyasi təcrübəsi Azərbaycanın tam savadlılar diyarına çevrilməsi, yeni minilliyə maariflənmiş xalq kimi qədəm qoyması oldu.

Azərbaycan təhsili özünün əsil inkişafını ulu öndərimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə tapdı. Heydər Əliyevin siyasi rəhbərliyinin ilk illərindən təhsil, maarif dövlət siyasətinin ən mühüm sahəsinə çevrildi. Azərbaycan elm, mədəniyyət, təhsil sahəsi də əsil dirçəliş və intibah dövrünü yaşadı. Heydər Əliyevin vurğuladığı kimi, «sözün əsil mənasında Azərbaycan məktəbi məhz iyirminci əsrdə yaranmışdır. Azərbaycan dilində, xalqımızın öz ana dilində uşaqlara, gənclərə təhsil verən və millətimizi təhsilləndirən məktəb yaranıbdır. Bizim bu gün malik olduğumuz iqtisadi və siyasi potensiala, təhsil potensialına görə o dövrdə yaranaraq inkişaf etmiş təhsil sisteminə borcluyuq».

XX əsri xalqımızın maariflənməsində çox əhəmiyyətli dövr kimi səciyyələndirən ümummilli liderimiz Heydər Əliyev qeyd edirdi ki, «xalqımızın tarixi taleyi elə imkan yaratmışdır ki, ötən yüzillikdə Azərbaycan köhnə dünyadan sürətlə qopmuş, elm, mədəniyyət, təhsil intibah yolunu tutmuşdur. Elliklə maariflənməsini uğurla başa vurmuşdur. Kütləvi surətdə savadlanmaq, elmə, mədəniyyətə, təhsilə can atmaq Azərbaycan xalqının mənəviyyatını da, həyat tərzini də, xarici görünüşünü də dəyişmiş, onu inkişaf edən dünyaya qovuşdurmuşdur. Azərbaycan xalqı sözün həm həqiqi, həm də məcazi mənasında işıqlı, nurlu bir aləmə çıxmışdır».

Lakin ümummilli liderimiz siyasi hakimiyyətdən gedəndən sonra Azərbaycanda digər sahələrdə olduğu kimi, mənəvi həyatda, təhsildə də böhran və tənəzzül başlandı. Təhsil müəssisələrinin maddi-texniki bazası dağıdılmağa başlandı. Yalnız ümummilli liderimizin 1993-cü ildə ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə təhsildə dağıdıcı proseslərin qarşısı alındı. Azərbaycan təhsili özünün həqiqi inkişaf yolunu tapdı, maarifçilik ənənələri qorunub saxlanıldı. Milli təhsilimiz dünya təhsili sisteminə sürətlə inteqrasiya olunmağa başlandı. Ulu öndərimiz Heydər Əliyevin təhsilin inkişafı sahəsində müəyyənləşdirdiyi strateji xətt bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təhsili ölkəmizin davamlı inkişaf strategiyasının mühüm sahəsi elan etmiş dövlət başçısı qeyd edir ki, iqtisadi inkişaf sürətinə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Biz bu maddi dəyərləri iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi

onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir və beləliklə, intelektual potensialı möhkəmlənir (119, 2009, 1 sentyabr).

Bəşər mədəniyyətinin ən qədim ocaqlarından biri olan, Azərbaycanın ayrılmaz tərkib hissəsi Naxçıvan diyarı da zəngin maarifçilik ənənələrinə malik olmuşdur. Orta əsrlərdə bütün Azərbaycanda olduğu kimi, Naxçıvan bölgəsində də təhsil sistemi yüksək inkişaf səviyyəsində olmuş, onun məktəb, mədrəsə və məzhər mərhələləri olmuşdur. Nəinki Azərbaycan, hətta onun hüdudlarından uzaqlarda, Yaxın və Orta Şərqin inkişaf etmiş mədəniyyət mərkəzlərində belə tanınan və məşhur olan, «Naxçıvani» və «Ordubadi» nisbəsi ilə şöhrət tapan görkəmli alimlər, şairlər, dövlət xadimləri, sufi şeyxləri, memarlar, sənətkarlar ilk təhsillərini məhz bu məktəb və mədrəsələrdə almış, onların yetirmələri olmuşlar. Yetirmələri dünyanın bir sıra ölkələrində fəaliyyət göstərən Naxçıvan mədrəsələri digər Şərq mədrəsələri kimi dövrün sosial-siyasi və ideoloji həyatından kənarda qalmır, öz müdərrisləri, tələbələri vasitəsilə cəmiyyətdə gedən proseslərdə yaxından iştirak edirdilər. Əhalinin savadlanmasında, elmi biliklərə yiyələnməsində müstəsna rol oynayan bu təhsil ocaqları dövrün imkanlı adamlarının, hətta hakimlərinin diqqət mərkəzində olur, onların qayğı və himayəsi, bağışladığı vəqflər sayəsində fəaliyyət göstərirdilər (114, s.20-21).

Professor Hacıfəxrəddin Səfərli orta əsr qaynaqlarına istinad edərək yazır ki, Azərbaycanın, eyni zamanda Yaxın Şərqin qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvan şəhəri elmin, təhsilin inkişaf etdiyi, ilk məktəblərin və mədrəsələrin yarandığı yaşayış məskənlərindən biri olmuşdur. Naxçıvan şəhərində təşkil olunan ilk məktəblər haqqında danışarkən qeyd etmək lazımdır ki, islamın qəbul etdiyi ilk yüzilliklərdə burada yaradılmış və fəaliyyət göstərmiş məktəblər haqqında orta əsr müəlliflərinin əsərlərində geniş məlumatlar qalmamışdır. Buna baxmayaraq, buradan belə nəticə çıxarılmamalıdır ki, Naxçıvanda müsəlman mədəniyyətinin intibah dövrünə qədər məktəblər olmamışdır (114, s.316).

Naxçıvan Muxtar Respublika təhsil işçilərinin müşavirəsində çıxış edərkən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu məsələyə toxunaraq demişdir ki, Azərbaycanda təhsilin uzun illik tarixi vardır. III-V yüzilliklərdə ölkəmizdə dəbirestanlar, ibtidai təhsil verən məktəblər geniş yayılmışdı. Bəzi tarixi mənbələr V-VII əsrlərdə Azərbaycanda ana dilində təhsil verən məktəblərin fəaliyyət göstərdiyini bildirir. Lakin bundan da əvvəlki dövrlərə aid elə tarixi mənbə və faktlar mövcuddur ki, bunlar təhsil sisteminin daha qədim dövrünü nişan verir (121). Naxçıvan bölgəsi, o cümlədən bölgənin mərkəzi şəhəri olan

Naxçıvan tarix boyunca Azərbaycanda baş verən proseslərin içərisində olduğu üçün bu fikri tam mənası ilə ona da aid etmək olar.

Naxçıvanda maarif və təhsil orta əsrlər zamanı daha da inkişaf etmiş, məktəb və mədrəsə təhsili geniş yayılmışdı. Elxanilər dövrünə aid bir fərmandan məlum olur ki, hələ XII əsrin sonlarında Naxçıvan şəhərində iki mədrəsə mövcud idi. Orta əsr mənbələrinə görə, XIII əsrin sonlarında Naxçıvanda 4 adi tipli mədrəsə, məscidlərin nəzdində molla-xana adlanan 60-a qədər ibtidai mədrəsə fəaliyyət göstərirdi. Dünyəvi fənlərin də təlim edildiyi Naxçıvan və Ordubad mədrəsələrində Yaxın Şərq ölkələrindən gəlmiş tələbələr də təhsil alırdı.

Naxçıvanda təhsil sistemi bəzi istisnalar nəzərə alınmaqla bütün orta əsrlər boyu inkişaf etmiş, XIX yüzilliyin əvvəllərində ilk dünyəvi məktəblər yaranmışdır.

Naxçıvan şəhərində ilk dünyəvi məktəb Ehsan xan Kəngərlinin XIX əsrin 30-cu illərinin sonlarında açdırdığı rus-tatar qəza məktəbidir. Həmin məktəb 1879-cu ildə üçsinifli şəhər məktəbinə çevrilmişdi. XIX əsrin sonlarında Azərbaycanın başqa bölgələrində olduğu kimi, Naxçıvanda da üsuli-cədid məktəbləri yaranmağa başladı. XX əsrin ortalarından başlayaraq sürətlə inkişaf edən maarifçilik hərəkatı Naxçıvandan da yan keçməmiş, burada təşəkkül tapan dünyəvi məktəblər Azərbaycanda elmin, mədəniyyətin, ədəbiyyatın və ictimai fikrin inkişafına böyük töhfələr vermiş, milli ziyalı təbəqəsinin formalaş-dırılmasında mühüm rol oynamışdır.

XX əsrdə Naxçıvanda maarif şəbəkəsi daha da genişlənmiş, Heydər Əliyevin hakimiyyəti dövründə özünün intibah mərhələsinə çatmışdır. Ümummilli liderimiz Naxçıvan Muxtar Respublikasında bütün sahələrlə yanaşı, təhsili də daim diqqət mərkəzində saxlayır, bu vacib sahənin inkişafı üçün zəruri tədbirlər görürdü.

1993-cü ildən sonra Azərbaycanda həyata keçirilən düşünülmüş siyasətin nəticəsi olaraq Naxçıvanda digər sahələrdə olduğu kimi, təhsil, elm, milli ziyalılıq sürətlə inkişaf etməkdədir. Bu qədim diyar öz əvvəlki elmi nüfuzunu və özünəməxsus şöhrətini bərpa etməkdədir. Bu gün Naxçıvan Bakıdan sonra Azərbaycanın ən böyük elm və təhsil mərkəzlə-rindən birinə çevrilmişdir. Muxtar Respublikada Azərbaycan milli ziyalılığının yeni və qüvvətli bir nəsli formalaşmaqdadır. Bu gün ölkə prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasında elmin və təhsilin inkişafına göstərdiyi diqqət və qayğı onun ölkə miqyasında həyata keçirdiyi böyük işlərin və çoxşaxəli siyasətin tərkib hissəsidir.

Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan regionların sosial-iqtisadi inkişafı Naxçıvanda da çox uğurla həyata keçirilir. Son on beş ildə Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun rəhbərliyi

altında Naxçıvanda atılan uğurlu addımlar ümummilli liderin müəyyənləşdirdiyi strateji xəttə sadiqliyini, ölkə rəhbərliyinin siyasətinə ardıcıllıqla, prinsipallıqla əməl edilməsinin ən bariz təzahürüdür. Muxtar Respublikanın 15 ildə qazandığı müvəffəqiyyətlər bütün XX əsrlə müqayisə oluna bilər.

Muxtar Respublika həyatının bütün sahələri kimi, təhsil də Ali Məclis Sədrinin çoxcəhətli fəaliyyətində mühüm yer tutur. Bunu Muxtar Respublikada təhsil, elm sahəsində qazandığı cahanşümül nəticələr də sübut edir. Blokada şəraitində yaşamasına baxmayaraq, Muxtar Respublikada təhsil quruculuğu, təhsil müəssisələrinin müasir tələblər səviyyəsində inkişafı prioritet istiqamət təşkil edir. Muxtar Respublika rəhbərliyinin gərgin əməyi sayəsində təhsil sistemi tamamilə yenidən qurulmuş və dünya standartlarına cavab verən maddi – texniki bazaya malik olmuşdur.

Cəmiyyətin tərəqqisi, elmin, mədəniyyətin inkişafının qüdrətli vasitəsi rolunu oynayan təhsil ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da hərtərəfi qayğı ilə əhatə olunub. Təhsilin müasir tələblərə uyğunlaşmasının, keyfiyyətcə yaxşılaşmasının nəticələri göz qabağındadır. Əgər 1939-cu ildə Muxtar Respublikada əhalinin hər 10 min nəfərinə 77 nəfər ali təhsilli düşürdüsə, 1989-cu ildə 223, 1995-ci ildə 554, 2008-ci ildə isə 685 nəfər ali təhsilli düşmüşdür. Təhsilin bütün göstəriciləri üzrə dinamik artım tempi mövcuddur (122, 2008, 10 sentyabr).

Bütün bunlar Naxçıvan Muxtar Respublikasının təhsil sahəsində zəngin, mütərəqqi ənənələrə, müsbət təcrübəyə malik olduğunu göstərir. Bu gün tarix elmi qarşısında duran ən mühüm vəzifərdən biri də Naxçıvanın təhsilini, pedaqoji fikir tarixini, maarifçilik hərəkatını yeni reallıqlar baxımından tədqiq etməkdir. Düzdür, müstəqillik illərində və ondan əvvəl də Naxçıvanın hərtərəfli öyrənilməsi üçün çox işlər görülmüşdür. 1996-cı ildən başlayaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun təşəbbüsü və dəstəyi ilə regionun tarixinin obyektiv araşdırılması ilə bağlı bir çox işlər görülmüş, 50-ə yaxın müxtəlif xarakterli elmi məclislər keçirilmiş, çox sayda fundamental əsərlər, o cümlədən 2 cildlik Naxçıvan Ensiklopediyası yazılmış, dissertasiyalar müdafiə olunmuşdur. Naxçıvanda maarifin, təhsilin tarixi ilə bağlı ayrı-ayrı dövrlər və problemlər üzrə əsərlər yazılsa, dissertasiyalar müdafiə olunsa da, problemin kompleks şəkildə hərtərəfli öyrənilməsi zəruriliyi hələ də öz aktuallığını saxlamaqdadır.

Hələ 1998-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun qərarı ilə Naxçıvanda ilk dünyəvi məktəbin yaradılmasının 160 illik yubileyi geniş qeyd olunmuş, konfranslar və

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN NAXÇIVANŞÜNASLIQ MƏRKƏZİ
Daxil olma № 01
17
"05" fevral 2013 il

simpoziumlar keçirilmişdir. Lakin bu günə qədər regionun təhsil tarixinə dair sanballı bir tədqiqat materialı ortaya çıxmamışdır. Ali Məclis Sədri qeyd edir ki, «ədəbi-fəlsəfi fikir tarixinə, memarlıq sənətinə böyük dühalar bəxş etmiş, adı çəkilən sahələrdə intibaha səbəb olmuş şəxsiyyətlər yetirən məktəb ənənələrinin sistemli şəkildə öyrənilməsi məktəb tarixinin inkişafı baxımından fayda verə bilər (121, 2002, 11 aprel). Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvanda pedaqoji fikrin, məktəb tarixinin öyrənilməsi və tədqiqini alim və mütəxəssislər qarşısında bir vəzifə kimi qoymuşdur.

Son 15 ildə göstərilən yüksək dövlət qayğısı sayəsində Muxtar Respublikada təhsil yüksək inkişaf səviyyəsinə çatmışdır. Akademik İsa Həbibbəylinin dediyi kimi: «Ötən 15 ildə ucqar dağ kəndlərindən tutmuş rayon mərkəzlərində və Naxçıvan şəhərində 36024 şagird yeri olan 111 məktəbin tikilib istifadəyə verilməsi, 32350 yerlik 57 məktəbin yenidən qurulması Muxtar Respublikanı ölkənin məktəb tikintisi hərəkatının sıralarına çıxarmışdır (48, s.15).

Oxucuların diqqətinə və mühakiməsinə təqdim olunan bu monoqrafiya yuxarıda göstərilən vəzifədən irəli gələn məsələlərin həlli istiqamətində atılan addımdır. Monoqrafiyada XIX əsrdən başlayıb bu günümüzə qədər Naxçıvanda maarifçilik hərəkatına, təhsil sisteminin tarixinə ümumi nəzər salınmış, müxtəlif tarixi dövrlərdə Muxtar Respublikada təhsil sahəsində həyata keçirilmiş siyasət, qazanılmış uğurlar, problemlər təhlil edilmiş, bu sahədə qarşısında duran vəzifələr müəyyənləşdirilmişdir.

Əlbəttə, müəllif bu kitabda Naxçıvan Muxtar Respublikasında təhsilin inkişaf tarixinin tam şəkildə əhatə olunduğunu iddia etmək fikrindən uzaqdır. Müəllif bu işi göstərilən istiqamətdə atılan ilk cəhdlərdən biri kimi qəbul edərək, gələcəkdə Naxçıvanın təhsil tarixinə dair yeni tədqiqatların aparılacağına, dəyərli əsərlərin üzə çıxarılacağına ümid edir.

Müəllif əsərin ərsəyə gəlməsində dəyərli tövsiyə və məsləhətləri, təqdim etdikləri əlavə materialları ilə kitabın dəyərinin artmasına köməyi olmuş bütün həmkarlarına və dostlarına öz dərin minnətdarlığını bildirir.

I BÖLMƏ

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ TƏHSİL SİSTEMİ SOVET DÖVRÜNDƏ

NAXÇIVANDA MAARİF SİSTEMİNİN TƏŞƏKKÜL TAPMASI TARİXİNDƏN

Naxçıvan diyarı lap qədimlərdən Şərqin mühüm mədəniyyət ocaqlarından biri kimi tanınmış, Azərbaycan elminin və maarfinin inkişafına böyük töhfələr vermişdir.

Naxçıvan bir çox orta əsr Azərbaycan alim və mütəfəkkirlərin Vətəni olmuş, burada dövrün tanınmış simaları yaşayıb-yaratmışdır. Ən-Nəşəvi, ən-Naxçıvani (Naxçıvanlı) kimi məşhurlaşmış bu alimlər Azərbaycanın və bütövlükdə islam elminin və mədəniyyətinin intibahında əvəzsiz xidmətlər göstərmişlər. Əbdüllah əl-Müfərric Nəşəvi, Əhməd ibn Nəcəf Nəşəvi, Əbu-Ömər Naxçıvani, Elməddin Naxçıvani, Kəmaləddin Naxçıvani, Nəcməddin Naxçıvani, Hinduşah Naxçıvani, Məhəmməd Naxçıvani, Fəxrəddin Naxçıvani, Baba Nemətullah Naxçıvani, Fəzlullah Nəimi və başqalarının adları dünya elm tarixinin səhifələrinə qızıl hərflərlə yazılmış, Naxçıvan memarlıq məktəbinin nümayəndələri olan Əcəmi Əbubəkr oğlu Naxçıvani, Əmirəddin Məsud Naxçıvani, Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvani, Şeyx Cühənna, Cəmallədin və başqaları Şərqin memarlıq sənətinə istiqamətverici təsir göstərmişlər.

Orta əsrlərə aid bir çox mənbələr Naxçıvanda maarif müəssisələrinin – məktəb və mədrəsələrin (Mədrəseyi-İrşadiyyə, Mədrəseyi-Bektaşiyyə) mövcudluğu haqqında məlumat verir. Elxanilər dövrünə aid bir fərmandan məlum olur ki, hələ XIII əsrin sonlarında Naxçıvanda iki mədrəsə mövcud idi. Orta əsr qaynaqlarına görə XIII əsrin sonlarında Naxçıvanda 4 ali tipli mədrəsə, 60-a qədər ibtidai tipli məktəb fəaliyyət göstərmişdi. Dünyəvi fənlərin də tədris edildiyi Naxçıvan və Ordubad mədrəsələrində başqa ölkələrdən gəlmiş tələbələr də təhsil alırdı (121).

Azərbaycanın Rusiya tərəfindən işğalı ölkənin siyasi müstəqilliyinin itirilməsi ilə nəticələnsə də onun iqtisadi və mədəni inkişafında yeni mərhələnin əsasını qoymuş oldu. Çarizmin dar çərçivədə də olsa Azərbaycanda keçirdiyi islahatlar Naxçıvan diyarının da iqtisadi və mədəni həyatında canlanmaya səbəb olmuş, maarifçilik ənənələrinin dirçəlməsinə müsbət təsir göstərmişdi. Azərbaycanda təzahür edən milli maarifçilik

hərəkatı Naxçıvanda da özünü göstərməyə başlamış, ictimai-iqtisadi, sosial-mədəni yeniliklər mütərəqqi, demokratik ziyalılıar təbəqəsinin formalaşması üçün münbit zəmin yaratmış, yeni tipli mədəni-maarif ocaqları təşkil edilmiş, dünyəvi elmlər tədris olunmağa başlamış, pedaqoq və şagirdlərin sayı artmağa başlamışdı.

Mənbələr təsdiq edir ki, çar hakimiyyətinin Cənubi Qafqazdakı yerli hakimiyyət orqanları regionun bir sıra şəhərləri ilə yanaşı, Naxçıvan və Ordubad şəhərlərində də yeni tipli qəza məktəbləri açmağı planlaşdırmış, lakin bir sıra səbəblər ucbatından, müəllim kadlarının yoxluğunu bəhanə edərək bunu həyata keçirməmişlər.

Naxçıvanda ilk qəza məktəbi 1837-ci il martın 15-də Qəza hakimi Ehsan xan tərəfindən öz evində açılmış və oraya 20-ə qədər uşaq cəlb edilmişdir. Onun oğulları bu məktəbi öz himayələrinə götürmüş və hər il məktəbin nəfinə 200 manat gümüş pul ödəmişlər (24, s.11-13). Həmin məktəb 1879-cu ildə üçsinifli şəhər məktəbinə çevrilmişdi. Məktəbin tədris planına rus dili, rəsmxət, hesab, coğrafiya, tarix, təbiətşünaslıq kimi dünyəvi fənlərlə yanaşı, ana dili və şəriət də daxil edilmişdi. Məktəbdə dünyəvi fənləri, əsasən buraya göndərişlə gəlmiş qeyri-azərbaycanlı müəllimlər tədris edirdi. Görkəmli yazıçılarımız Cəlil Məmmədquluzadə, Eynalı Sultanov, Naxçıvanda ilk teatrın yaradıcısı Mirzə Sadıq Qulubəyov, Qori Seminariyasının məzunları Mirzə Ələkbər Süleymanov, Məmmədhüseyn Xəlilov, Moskva Universitetinin məzunu Fərəculla Şeyx və başqaları ilk dünyəvi Naxçıvan məktəbini bitirmiş və Azərbaycan ictimai-ədəbi fikrinin inkişafında önəmli rol oynamışlar. Mənbələrə görə iri kənd və əyalətlərdə ümumilikdə 6 ibtidai rus məktəbləri də olmuşdur ki, orada cəmi 7 müəllim fəaliyyət göstərmişdir (63, s.4).

XIX əsrin sonlarında bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da yeni tipli məktəblər – üsuli-cədid məktəbləri yaranmağa başladı. Görkəmli maarifçi M.T.Sidqi 1892-ci ildə Ordubadda «Əxtər», 1894-cü ildə Naxçıvan şəhərində isə tərbiyə məktəbləri təşkil edərək bölgədə maarifin inkişafında yeni səhifə açmışdır. 1898-ci ilə kimi fəaliyyət göstərən tərbiyə məktəbi (Məktəbi-Tərbiyə) sonralar rus-tatar məktəbinə çevrilmişdi. M.T.Sidqi məktəb proqramına ana dili ilə yanaşı, rus, ərəb, fars dillərini, tarix, hesab, coğrafiya fənlərini də daxil etmişdi. Həmin dövrdə Naxçıvanda həmçinin «Məhəlli məktəblər», «Məktəbi-Xeyriyyə», «Rüşdiyyə» kimi tədris ocaqları da fəaliyyət göstərirdi (122).

Göstərilən dövrdə ibtidai-dini məktəblər (mollaxana və mədrəcələr) də öz fəaliyyətini davam etdirirdilər ki, Naxçıvanın bir sıra görkəmli adamları ilk təhsillərini məhz bu məktəblərdə almışlar. Naxçıvanda mədəni-maarif işığının güclənməsində artıq adı çəkilən Naxçıvan şəhər ibtidai məktəbinin xüsusi rolu olmuşdur. Müxtəlif dünyəvi fənlərin tədris edildiyi, qabaqcıl pedaqoqların dərs dediyi bu maarif ocağı Naxçıvan və Azərbaycanın ədəbi və mədəni mühitinin zənginləşməsində mühüm xidmətlər göstərmiş insanların mənəvi təkamülün, dünyagörüşünün formalaşmasında müstəsna əhəmiyyəti olmuşdu (41, s.56-71).

İlk təhsil ocaqlarımız: "Əxtər" məktəbinin binası



İlk təhsil ocaqlarımız: «Məktəbi-Tərbiyə»nin biansı

Bütövlükdə, XIX əsrin 80-90-cı illəri Naxçıvanda maarifçi mühitinin, maarifçilik hərəkatının yaranması və inkişafı dövrü kimi səciyyələndirilə bilər. Naxçıvan teatrının yaranması, dünyəvi məktəblər şəbəkəsinin genişlənməsi, mətubatla əlaqələrin artması maarifçi mühitin maarifçilik hərəkatı səviyyəsinə qalxmasına təkan vermişdir (41, s.111). Bu mərhələdə Naxçıvanda məktəb və maarifin inkişafında E.Sultanov, Ə.Xəlilov, M.Qazıyev, C.Məmmədquluzadə, C.Sultanov, M.Suleymanov, M.Şahtaxtınski, S.Xəlilov, M.Kəngərli, Ə.Sultanov Q.Şərifov, Ə.Qəmküsar, M.Şürbi və b. böyük xidmətlər göstərmişlər. C.Məmmədquluzadə on ildən çox Şərur-Dərələyəz və Naxçıvan qəzalarının kəndlərində müəllimlik etmiş, Naxçıvanda xalq maarifinin inkişafında böyük xidmətlər göstərmişdir. Təsadüfi deyildir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev XIX-XX əsrlər dövründə Naxçıvanda mədəniyyətə, təhsilə çox maraq olduğunu, mədəniyyətin inkişaf etdiyini göstərərək, C.Məmmədquluzadə, M.T.Sidqi və başqalarının fəaliyyətini yüksək qiymətləndirmişdir (53, s.133-135). Naxçıvanda o dövrdə təzahür edən mütərəqqi meyilləri nəzərdə tutan Heydər Əliyev qeyd edirdi ki, o vaxt Naxçıvan mühiti həqiqətən Şərqlə Qərbin yerləşdiyi bir yerdə Şərq ənənələrini özündə yaşadaraq, eyni zamanda dünyəvi həyat tərzi, dünyəvi mədəniyyət sahəsində və Şərq mədəniyyətini Qərb mədəniyyəti ilə bağlamaqda, bunun sintezini yaratmaqda böyük rol oynamışdır (53, s.134).

Çarizmin müstəmləkəçilik siyasətinə baxmayaraq XIX əsrin sonunda Naxçıvanda xalq məktəblərinin sayı artmağa başlamış, bir sıra kəndlərdə yeni məktəblər açılmışdır. Bu dövrdə Naxçıvan maarifçilik hərəkatının ən səciyyəvi cəhətlərindən biri müsəlman qızlarının dünyəvi təhsilə cəlb edilməsi oldu.

Azərbaycan dramaturgiyası tarixində ilk dəfə olaraq Eynəlibəy Sultanov qadın azadlığı mövzusunda iki pərdəli «Tatarka» adlı komediya yazaraq onu Naxçıvanda tamaşaya qoymuş, C.Məmmədquluzadə, M.T.Sidqi qadın azadlığı məsələsini çox ciddi, milli və ictimai məsələ kimi irəli sürmüşdülər.

Cəlil Məmmədquluzadə 1893-cü ildə Nehrəm kəndində müəllim işləyərkən çox çətinliklə də olsa 8 nəfər qız uşağını təhsilə cəlb edə bilmiş, onlar üçün sinif açmışdı (140, s.169-170). Görkəmli pedaqoq M.T.Sidqi isə Naxçıvan qəzasında ilk dəfə olaraq müsəlman qız məktəbi açmağa nail olmuş, lakin müxtəlif çətinliklər və maneələr ucbatından məktəb 1902-ci ildə bağlanılmışdı. M.S.Ordubadinin «Qanlı sənələr» əsərindən bəlli olur ki, Naxçıvanın görkəmli maarifçilərindən biri olan M.Kəngərli Qafqazda ilk dəfə olaraq «Leyli» qız məktəbini açmış, məktəbi də özü maliyyələşdirmişdir. Onun açdığı məktəb qızlar üçün gimnaziya

statusuna malik idi və oranı bitirənlər universitetlərə daxil olmaq imkanı qazanırdılar. Lakin bu məktəbin də ömrü uzun olmamış, 1901-ci il sentyabrın 15-də fəaliyyətə başladıqdan düz bir il sonra İrəvan şəhərinə köçürülmüş və 1905-ci il iyunun 1-də qapanmışdır (41, s.169-171).

XX əsrin əvvəllərində Naxçıvanda qadınlar arasında maarif nurunun yayılmasında kişilərlə yanaşı, ziyalı qadınlar da mühüm xidmətlər göstərmişlər. Görkəmli mesanat H.Z.Tağıyevin qız məktəbini bitirmiş Nazlı xanım Tahirova 1912-ci ildə Naxçıvan şəhərində qız məktəbinin təşkil edilməsinə nail olmuşdu. Görkəmli pedaqoq və yazıçı Rəşid bəy Əfəndiyev 1910-cu illərdə Naxçıvan şəhərində türk-qız məktəbini açaraq özü də orada dərs demişdir. 1917-ci ildə Rəşid bəy Əfəndiyevdən sonra N.Nəcəfova həmin məktəbə müdir təyin edilmiş və 1920-ci iləd̆ək orada işləmişdir (63, s.26).

Gələcəkdə Naxçıvanda maarifin və mədəniyyətin inkişafında mühüm rol oynayacaq bir sıra qadınlar, o cümlədən Y.Kəngərli, B.Naxçıvanskaya, D.Sultanova, S.Sultanova, X.Vəzirova, F.Şeyxova və digərləri bu məktəbin məzunları olmuşlar.



Nehrəm kənd məktəbi. XIX əsrin 80-cı illərində

Naxçıvanda qadın təhsilinin inkişafında xüsusi rolu olmuş Nax,;vanda qadın təhsilinin inkişafında xüsusi rolu olmuş qadınlardan biri də Xədicə xanım Səfərəliyeva – Cəfərova olmuşdur. O, ilk təhsilini

Naxçıvan şəhərində almış, Bakıda H.Z.Tağıyevin qız məktəbini bitirdikdən sonra Naxçıvana qayıdaraq bacısı Tərlan xanımla öz ata evində iki otaq ayıraraq qızlar üçün məktəb açmışdı. Dörd il ərzində bu məktəbi 30-dan çox qız qurtarmışdı (119, 1990, 25 mart). Naxçıvan Muxtar Respublikasında maarif həyatında böyük rol oynamış B.Kəngərli, X.Mahmudova, S.Novruzova, A.Kələntərli, X.Səfərəliyevanın yetirmələri olmuşlar.

Bölgənin mədəni-maarif həyatında baş verən bəzi mütərəqqi proseslərə baxmayaraq çarizmin müstəmləkəçilik siyasəti nəticəsində Naxçıvan diyarı əhalisinin mütləq əksəriyyəti savadsız idi. Yazmağı və oxumağı bacaran insanların sayı əhalinin ümumi sayının cəmi 3-4 faizini təşkil edirdi. 1912-ci ilin məlumatına görə Naxçıvan qəzasında kişilərin 95,2 faizi, qadınların 92,2 faizi, Şərur qəzasında kişilərin 95,2, qadınların 99,2 faizi savadsız idi (91, s.2, iş 3, v.79-80). Naxçıvanda təqribən hər 2 kəndə bir müəllim, hər 7 kəndə isə 1 məktəb düşürdü (33, s.6). Sonrakı dövrlərdə, xüsusən 1917-1920-ci illərdə bölgədə cərəyan edən mürəkkəb siyasi proseslər xalq maarifinə öz mənfi təsirini göstərmişdi. Onsuz da məhdud olan məktəblərin sayı azalmış, təhsil sistemi iflic vəziyyətinə düşmüşdü. Nəticədə əhalinin savadlılıq faizi daha da aşağı düşərək 2,0 faiz təşkil etmişdi.

Naxçıvanda milli təhsil və mədəniyyət faktik olaraq ayrı-ayrı şəxslərin fədakar maarifçilik fəaliyyəti sayəsində inkişaf edirdi. Bütövlükdə 1920-ci ilə qədərki dövrdə Naxçıvan bölgəsində məktəblərin ümumi sayı haqqında müxtəlif rəqəmlər mövcuddur. Bəzi mənbələr bu rəqəmin 14 (116, s.60), 57 (111, s.102), 45 (71, II c., s.136) olduğu göstərilir, oradakı şagirdlərin sayının 2000 olduğu qeyd edilir. V.Məmmədovun kitabında 1890-cı ildən 1917-ci ilədək Naxçıvanda 1500 şagirdi əhatə edən 15 məktəbin fəaliyyət göstərdiyi, 1917-1919-cu illərdə onların sayının 20-ə çatdığı göstərilir (61, s.20-21). R.Rəhimovun məqaləsində isə Rusiya işğalından əvvəl Naxçıvanda 15 aşağı tipli məktəb və orada cəmi 34 orta təhsili olmayan müəllimin olduğu qeyd edilir (110).

Arxiv sənədləri də sovet işğalına qədərki Naxçıvanda maarifin vəziyyəti haqqında təzadlı məlumatlar verir. Məsələn, 1911-1915-ci illərdə Naxçıvanda 41 ümumtəhsil məktəbinin, 82 müəllimin (onların da əsasən natamam orta təhsilə malik olmaları (77, s.1, iş 121, v.7), 1 qəza məktəbinin və 6 ikisinifli rus məktəbinin və 9 müəllimin olması və ya 16 birinci dərəcəli məktəbin olması (79, s.1, iş 180/307, v.131-136), 1917-1919-cu illərdə 20 xalq məktəbinin movcud olması (79, s.1, iş 180/307, v.134), 1901-ci idə Naxçıvan əyalətində 2 dövlət məktəbinin və 14 kənd məktəbinin mövcudluğu (Обзор Иреванской губернии за 1901, с.32), 1920-ci ilə qədər 15 məktəbin və 1500 şagirdin olması (84, s.4, iş 22, v.72)

haqqında məlumatlar vardır.

Naxçıvanda 1920-ci ilə qədər 4 kişi müəllimin (C.Məmmədov, M.Süleymanov, M.Kazımbəyov, H.Qazıyev) və 2 qadın müəllimin (N.Nəcəfova –Tahirova və X.Səfərəliyeva olduğu, 5 nəfər orta təhsilli (4 müəllim və 1 mülki işlər üzrə hüquqşünas) olduğu qeyd edilir.

Bütün bunlar göstərir ki, bütünlükdə Naxçıvan diyarında sovet rejiminin bərqərar olmasına qədər təhsil və maarif pərakəndə şəkildə əhalinin maarifə olan tələbatlarına cavab verməyən səviyyədə mövcud olmuşdur. Əslində həmin dövrdə bölgədə maarifin və təhsilin inkişafı haqqında konkret fikir söyləmək belə mümkün deyildir. Lakin milli düşüncəli demokratik ziyalıların fədakar fəaliyyəti nəticəsində Naxçıvanda maarif nuru tədricən yayılmağa başlayırdı.

XX ƏSRİN 20-30-CU İLLƏRİNDƏ NAXÇIVAN MSSR-DƏ TƏHSİLİN İNKİŞAFI

1920-ji ildə Azərbayjanda, o jümlədən Naxçıvanda sovet recimi bərqərar olduqdan sonra maarifin və mədəniyyətin inkişafında yeni mərhələ başlandı. İjtimai həyatın bütün sahələri kimi təhsil və maarif hakim sovet ideologiyasının tələblərinə uyğunlaşdırıldı. Bolşevik hakimiyyəti Şərqin «geri qalmış» millətlərinə örnək ola biləjək bir siyasi sistem yaratmaq üçün bütün müsəlman bölgələrində olduğu kimi, Naxçıvanda da geniş mədəni-maarif tədbirlərini həyata keçirməyə başladı. Əhalinin, birinji növbədə əməkçi kütlələrin mədəni səviyyəsinin yüksəldilməsinə, savadsızlığın ləğv edilməsinə, uşaq və yeniyetmələrin kütləvi təhsilə jəlb edilməsinə jiddi fikir verilməyə başlandı. Bu işdə 1920-ji ilin oktyabrında Naxçıvanın İnqilab Komitəsinin dekreti ilə yaradılmış Xalq Maarif Şöbəsi (1921-ji ilin sentyabrından Xalq Maarif Komissarlığı) mühüm rol oynadı.

1920-1930-ju illərdə Naxçıvan MR-də maarif sahəsində əldə edilmiş mühüm uğurlardan biri heç şübhəsiz, əhalinin, xüsusən yaşlı əhalinin savadsızlığının ləğv edilməsi oldu. 1921-ji ilin aprelində Naxçıvan XKS-nin savadsızlığı ləğv etmək haqqında dekretinin qəbulu, həmin ilin yayında Naxçıvan Diyar partiya, komsomol komitələri nəzdində savadsızlığı ləğvetmə komissiyalarının yaradılması, şəhər və kəndlərdə savad kurslarının açılması ilə bu iş praktik məjraya yönəldildi. Artıq 1924-jü ilin birinji yarısında bütün ölkə üzrə 70 savad məktəbində 2000 nəfər oxuyurdu. 1925-ji ildə «Rədd olsun savadsızlıq» jəmiyyətinin yaradılması əhalinin savad kurslarına və məntəqələrinə daha geniş jəlb edilməsinə imkan yaratdı. Həmin ildə Naxçıvanın 124 kəndində savadsızlıqla mübarizə kursları təşkil olundu, oraya 750 nəfər gənj qəbul edildi, 20-dən çox qiraət koması

fəaliyyət göstərirdi (91, s.2, iş 3, v.87). Naxçıvan gənjləri yaşlıların savadsızlığının ləğv edilməsində yaxından iştirak edirdilər.

Yaşlı əhali arasında savadsızlığın ləğv edilməsində 20-ji illərin II yarısında həyata keçirilmiş əlifba islahatının – köhnə ərəb əlifbasından latın qrafikalı əlifbaya keçid də mühüm rol oynadı. Əgər 1926-1927-ji tədris ilində Naxçıvan Respublikasında 120 savadsızlığı ləğvetmə məntəqəsi fəaliyyət göstərirdisə və orada 3055 nəfər məşğul olurdusa (onlardan 2490-ı azərbaycanlı idi), təkjə 1929-ju ildə 268 savad kursu təşkil edilmişdi. 1921-27-ji illərdə savadsızlığı ləğvetmə məntəqələrində 10273 nəfər oxumuşdu. Nətijədə əhalinin savad dərəjəsi 1926-jı ildə 12 faizə qalxmışdı, 1931-ji ildə bu göstəriji artıq 22,5 faiz təşkil edirdi (şəhərdə 52, 1 faiz) (129, s.19).

Naxçıvanda savadsızlıqla mübarizə sahəsində tətbiq edilən formalardan biri də mədəni yürüşlər idi. Savad uğrunda kütləvi hərəkatın sürətləndirilməsi sayəsində I beşillikdə 60537 nəfərin savadsızlığını ləğv etmək mümkün olmuşdu. Əgər beşilliyin birinji ilində (1928-1929-ju tədris ilində) savadsızlığı ləğvetmə məntəqələrini və savad məktəblərini 6023 nəfər bitirmişdisə, 1932-1933-jü tədris ilində onların sayı 23624 nəfər idi. Bu nətijələrin əldə edilməsində naxçıvanlı gənjlərin də əməyi böyük olmuşdu.

1931-1932-ji illərdə vilayətdə daha 629 savad kursu təşkil edildi (84, s.1, iş 238, v.39). 40 min nəfəri savad kursuna jəlb etmək mümkün olmuşdu. Lakin kurslarda müəllim kadrlara ehtiyaj çox böyük idi. Ona görə də Maarif Komissarlığının xətti ilə yüzlərlə naxçıvanlı gənj Naxçıvanın özündəki və Azərbaycanın digər şəhərlərindəki xüsusi pedaqoci kurslara göndərilirdi. 1934-jü ildə Naxçıvan MSSR-ın kəndlərində yaradılmış savadsızlığı ləğvetmə qruplarının sayı 185-ə çatmışdı. 1933-1934-jü illərdə 21016 nəfər (onlardan 8500 nəfəri qadın) savad kursları və məktəblərini bitirmişdi. 1935-ji ildə savadsızlığı ləğv etmək sahəsində böyük işlər görüldü. Azərbaycanda və Naxçıvanda sovet hakimiyyətinin 15 illik yubileyi ilə əlaqədar qəbul edilmiş qərarlara uyğun olaraq 50 yaşınadək bütün əhalinin savadsızlığını qısa müddətdə ləğv etmək vəzifəsi qarşıya qoyulmuşdu. 1935-ji ilin sonlarına olan məlumata görə Muxtar Respublikada jəmi 18 min savadsız adam var idi (7, s.1, iş 44, v.41). 1935-1936-jı tədris ilində 600-dən çox savad kursunda 15.017 nəfər savad almışdı. Bu zaman əhali arasında savadlılar artıq 70% təşkil edirdi (119, 1936, 9 fevral).

1938-ji ilin oktyabrında Naxçıvan VPK Bürosu və Naxçıvan MSSR XKS Naxçıvan rayonu üzrə yaşlı əhali arasında savadsızlığın ləğv edilməsinin gedişi haqqında qərarı qəbul etdi. Qərarda 1938-1939-ju illər ərzində 50 yaşınadək zəhmətkeşlər arasında savadsızlığı tam ləğv etmək vəzifəsi müəyyənləşdirildi. Həmin müddətdə 27 min

nəfərə yaxın savadsız və azsavadlı kurslara və məktəblərə jəlb edilməli idi (128, s.20).

1939-ju il Naxçıvanda savadsızlığın son ili olmalı idi. Lakin bu zaman 12.776 nəfər savadsızın jəmi 6.148 nəfəri (48, 12%), 14.186 nəfər azsavadlının isə 7988 nəfəri (57,3%) yaşlılar məktəbinə jəlb edilmişdi. Ordubad və Noraşen rayonlarında vəziyyət daha pis idi. Ordubadda 10.47 nəfər savadsızın 681 nəfəri, 4017 nəfər azsavadlının 1979 nəfəri, Noraşendə isə 5735 nəfər savadsızın 1477 nəfəri, 3410 nəfər azsavadlının isə 1455 nəfəri savad məktəblərində oxuyurdu (119, 1938, 17 noyabr).

XX əsrin 20-30-ju illərdə Naxçıvanda maarif sahəsində əldə edilən nailiyyətlərdən biri də qadınların savadsızlığının ləğv edilməsi oldu. Nəzərə alsaq ki, sovetləşməyə qədər Naxçıvanın qəzalarında qadınların 98-99%-i savadsız idi, bu işin nə qədər önəmli olduğu aydın olur (91, s.2, iş 3, v.79-81). Naxçıvanda ilk qadın savad məktəbi 1923-jü il martın 1-də açılmışdı. Sonralar digər şəhər və kəndlərdə də qadın savad kursları və dərnəkləri fəaliyyət göstərməyə başladı. 1925-ji ildə savad kurslarında dərs demək üçün pedaqoci qadın kursları da təşkil edilmişdi. Qadınların maarifləndirilməsi, ijtimai-siyasi həyata jəlb edilməsində 1925-ji ilin iyununda Naxçıvan şəhər Qadın qiraətxanası əsasında təşkil edilmiş qadın klubunun xüsusi rolu olmuşdu.

«Mədəni inqilab» və «kollektivləşmə» adlanan siyasi kampaniyalar dövründə Naxçıvan MSSR-də yaşlı qadınların savadsızlığının ləğv edilməsi istiqamətində mühüm nətijələr əldə edildi. Təkjə 1928-1929-ju illərdə 11 savad kursu açılmış, qadınlar arasında savadsızlığı ləğv etmək məqsədi ilə mədəni yürüşləri təşkil edilmişdi. 1931-1932-ji tədris ilində vilayətdə savadsızlığı aradan qaldırmaq üçün 629 kurs təşkil edildi ki, bu kurslarda 20.039 nəfər təhsil alırdı. Bu zaman Muxtar Respublikada 65 klub, 19 oxu zalı, 8 qadın guşəsi, 45 radio qurğusu, 12 uşaq bağçası, 86 uşaq meydançası var idi (84, s.1, iş 82, v.37-38). I beşilliyin sonunda Muxtar Respublikada artıq 8500 qadın savad kursları və məktəblərində oxuyurdu (92, s.1, iş 29, v.221; 88, s.1, iş 225, v.10-12). Artıq 1936-jı ildə savadsızlığı ləğvetmə məktəblərini 4138 nəfər, azsavadlılar məktəbini isə 2017 nəfər qadın və qız bitirmişdi (84, s.1, iş 35, v.12-13). 1937-ji ilin martında Naxçıvanda 14-50 yaşlılar arasında savadsızlığın uçotu aparılarkən 11.293 nəfər qadın və gənj qızın savadsız və ya azsavadlı olduğu aşkar edilmişdi (84, s.1, iş 349, v.59). 1937-ji ildə 6.154 nəfər savadsızlığı ləğvetmə məktəblərinə, 1701 nəfər qadın isə azsavadlıq məktəbinə jəlb edilmişdi (77, s.1, iş 181, v.8-9). Lakin qadınların savad məktəblərinə jəlb edilməsi sahəsində problemlər yenə də qalmaqda idi. Sonrakı illərdə qadın və qızların savad məktəbləri və kurslarına jəlb edilməsi sürətləndirildi. 1940-jı ildə Muxtar Respublikada 10.853 nəfər qadın

savad məktəbində oxuyurdu (119, 1940, 28 iyul). Naxçıvanda qadınlar arasında savadsızlığın ləğv edilməsində Fatma Hajılı, Tərlan Qazıbəyova, Fatma Rəhimova, Qəmər Tağızadə, Xanım Vəzirova, Siddiqə Bağırova, Məsumə Bektaşova, Rübabə Hajıyeva, Rübabə Tumayeva, Fizzə Əliyeva, Ruqiyyə Qasımova, Rübabə Talıbova, Hafizə Əfəndiyeva, Leyla İbrahimova, Tovuz Sadıqzadə və b. mühüm xidmətlər göstərmişlər.

Naxşıvan şəhər 1 saylı orta məktəbin bir qrup müəllim və şagirdləri (1938-ci il)

Umumiyyətlə, 1920-30-ju illərdə sovet hakimiyyətinin qadınlarla bağlı həyata keçirdiyi siyasətdə çoxlu əyintilərin, qanunsuzluqların baş verməsinə baxmayaraq, qadınlar arasında savadsızlığın ləğv edilməsində çox mütərəqqi dəyişikliklər baş vermiş və gələjəkdə qadın savadsızlığının tam aradan qaldırılmasına şərait yaranmışdı.

Yaşlı əhalinin savadlandırılması sahəsində XX əsrin 20-30-ju illərində həyata keçirilmiş tədbirlər Muxtar Respublikada savadsızlığın ləğvinə və təhsil səviyyəsinin artırlmasına gətirib çıxardı.

Artıq 1939-ju ildə Naxçıvan MSSR əhalisinin savadlılıq dərəjəsi 84.5% (şəhər əhalisinin 86,5%, kənd əhalisinin 84%), qadınların isə müvafiq olaraq 78,1% təşkil edirdi (132, s.12).

Sovetləşmədən sonra bütün ölkədə olduğu kimi, Naxçıvan diyarında da köhnə təhsil sistemi ləğv edilərkən vahid əmək məktəbləri sistemi yaradılmağa başlandı, təlim-tədris prosesi, tərbiyə işi hakim ideologiyanın tələblərinə uyğunlaşdırıldı. Əhalinin kütləvi savadsızlığı,

məktəb binalarının çatışmaması, müəllim kadrlarının, dərslik və dərs vəsaitlərinin olmaması maarif sistemini yenidən qurmağa imkan vermirdi. Lakin bu çətinliklərə baxmayaraq mövcud imkanların səfərbər edilməsi sayəsində hələ sovet hakimiyyətinin ilk ilində Naxçıvan diyarında 45 məktəb açmaq mümkün olmuşdu. Bir ildən sonra onların sayı 58-ə, 1922-1923-cü tədris ilində isə 65-ə çatdırıldı (116, s.60). Bu məktəblərdə 80 nəfər müəllim işləyirdi.

1920-1921-ci illərdə Naxçıvan diyarında maarifin vəziyyəti (82, s.1, iş 1, v.1)

№	Qəzaların adı	Məktəb-lərin sayı	Şagirdlə-rin sayı	oğlan	qız
1	Naxçıvan qəzası	19	1140	867	273
2	Ordubad qəzası	15	766	620	146
3	Şərur qəzası	13	534	534	-
	Cəmi	47	2440	2021	419

Lakin açılan məktəblərin pedaqoq kadrlarla təminatında ciddi problemlər var idi. Bir çox məktəbləri müəllim çatışmadığından bağlamaq məcburiyyətində qalırdılar. 1923-cü ilin oktyabrında AK(b)P MK-da Naxçıvan ölkəsinin siyasi-iqtisadi və mədəni vəziyyəti haqqında məsələ müzakirə edildi. Qəbul edilmiş qərarda regionda maarif işinin yaxşılaşdırılması məqsədi ilə bir sıra tədbirlərin həyata keçirilməsi, o cümlədən oraya Bakıdan əlavə müəllim kadrların göndərilməsi, kənddə işləyən müəllimlərin maddi vəziyyətinin yaxşılaşdırılması, yeni məktəb binalarının tikilməsi, mövcud binaların maddi bazasının yaxşılaşdırılması, məktəbyaşlı uşaqların təhsilə cəlb edilməsi üçün inzibati-siyasi və təbliğat işlərinin gücləndirilməsi və s. nəzərdə tutulurdu (90, s.5a, iş 70, v.44-57).

Naxçıvan məktəblərində dərs vəsaitinin çatışmadığını nəzərə alaraq bölgəyə dərsliklərin göndərilməsi qərara alınmışdı. Azərbaycan SSR XKS sərəncamına əsasən 1921-1924-cü illərdə Naxçıvan Respublikasında məktəblilər üçün dərs vəsaiti pulsuz olaraq dövlət fondu hesabına verilirdi.

Görülən tədbirlər nəticəsində artıq 1924-cü ildə Naxçıvanda 1 II dərəcəli, 61 I dərəcəli məktəb mövcud idi (2, s.1, iş 45, v.51). Muxtar Respublikada təhsilə cəlb olunan azərbaycanlı uşaqların sayı daim artaraq 1926-1927-ci illərdə 85% təşkil etmişdi. 1925-ci ildə Naxçıvanda I

dərəcəli məktəblərin ilk məzunları arasında azərbaycanlılar 79,6% idi. 1926-cı ildə MR-də 2 II dərəcəli məktəb və 78 I dərəcəli məktəb fəaliyyət göstərirdi. 1926-1927-ci tədris ilində azərbaycanlı şagirdlərin ümumi şagirdlər arasında nisbəti 85,0% təşkil edirdi (14, s.7, iş 1068, v.11-22). Məktəb yaşlı uşaqların 35%-i (5606 nəfər) məktəbə cəlb edilmişdi.

20-ci illərin sonlarında bütün Azərbaycanda, o cümlədən Naxçıvan MR-da məktəblərin strukturunda əsaslı dəyişikliklər aparıldı. Yeddiillik, doqquzillik məktəblər, fəhlə fakültələri, kəndli gənclər məktəbləri fəaliyyət göstərməyə başladı.

Sovet dövründə Azərbaycanda (bütövlükdə sovet Şərqində) maarif sahəsində ən mühüm hadisələrdən biri, heç şübhəsiz qızların təhsilə kütləvi cəlb edilməsi oldu. Bu qadın təhsilinin demək olar ki, olmadığı bir diyarda, Naxçıvanda əsil mədəni inqilab idi. Kütləvi şüurda qadın təhsilinə olan mənfi münasibət, müvafiq qadın pedaqoqlarının çatışmaması, qadınlara münasibətdə həyata keçirilən siyasətdə ilk dövrdə buraxılmış əyinti və nöqsanlar (o cümlədən qızlarla oğlanların bir sinifdə təhsilə cəlb edilməsi cəhdləri və s.) bu sahədə ciddi problemlər yaradırdı. Lakin bütün bunlara baxmayaraq, 20-ci illərdə Naxçıvanda qızların təhsilə cəlb edilməsində çox mütərəqqi keyfiyyət və kəmiyyət dəyişiklikləri baş verdi. Əgər 1921-ci ildə məktəblərdə oxuyan qızların sayı 80 nəfər idisə (91, s.2, iş 3, v.82), 1925-ci ildə 1920-ci illə müqayisədə məktəblərdə oxuyan qızların sayı 5,5 dəfə artdı və 100 nəfərdən 1083 nəfərə çatdı (138, s.38; s.1, iş 5/30, v.57). Növbəti 1926-1927-ci tədris ilində artıq 1137 nəfər azərbaycanlı qız məktəbdə təhsil alırdı (88, s.1, iş 356, v.14). Onlardan 1057 nəfəri I dərəcəli, 80 nəfəri II dərəcəli məktəblərdə oxuyurdu (84, s.1, iş 180/307, v.4-5). Həmin tədris ilindən başlayaraq Muxtar Respublikada bəzi məktəblərdə qızlar oğlanlarla birgə oxumağa başladılar. Qızların məktəblərə cəlb edilməsində 1927-ci ilin iyulunda Naxçıvan VPK-nın müvafiq qərarı da mühüm rol oynadı. Bütövlükdə 1927-1928-ci tədris ilində Muxtar Respublikanın 80 məktəbində 7335 nəfər şagird oxuyurdu ki, onların 1019 nəfərini qızlar təşkil edirdi (129).

Naxçıvan MR-da 20-ci illərdə məktəblərin və şagirdlərin sayının artım dinamikasını aşağıdakı cədvəldən də görmək olar (84, s.1, iş 82, v.37-38).

№	İllər	Məktəblərin sayı	Şagirdlərin sayı
1	1921/22	58	1211
2	1922/23	46	1380
3	1923/24	61	1865
4	1924/25	78	2829
5	1925/26	78	3812

6	1926/27	68	4225
7	1927/28	75	6208
8	1928/29	75	6985
9	1929/30	96	8493
10	1930/31	127	12444
11	1931/32	163	16416

1932-ci ildə oğlan şagirdlərinin sayı 15.869, qız şagirdlərin sayı isə 5547 nəfər idi. Onlara 470 müəllim dərs deyirdi ki, onların 67-si qadın idi (84, s.1, iş 82, v.37-39).

1920-ci illərin sonu – 30-cu illərin əvvəllərində Naxçıvan Muxtar Respublikasında ümumicbari təhsilə keçid baş verdi. Bu məqsədlə dövlət büdcəsindən zəruri vəsait (1929-1930-cu tədris ilində 447.363 rub – H.C.) ayrıldı. 1930-1931-ci tədris ilində Muxtar Respublikada ümumilikdə 8-12 yaşlı 1377 nəfər şagird icbari təhsilə cəlb edilmişdi ki, onların 699-u qız idi (12, s.1, iş 177, v.153). Məktəb şəbəkəsinin genişlənməsi nəticəsində növbəti ildə məktəblərin sayı 163-ə, ordakı şagirdlərin sayı isə 16.427 nəfərə (onlardan 5552-i qız idi – H.C.) çatdırmaq mümkün oldu (88, s.1, iş 7, v.24). Növbəti dərs ilində 8-11 yaşlı yeniyetmələrin 92,2 faizi təhsilə cəlb edilmişdi. Lakin qızların məktəblərə cəlb olunması işi yenə də ləng gedirdi. 1932-ci ildə şagirdlərin 10.869 nəfəri oğlan, 5547-i nəfəri qız idi (84, s.1, iş 81, v.38). Görülmüş tədbirlərə baxmayaraq, MR-də, xüsusən kənd yerlərində qızların məktəbə cəlb edilməsi sahəsində böyük problemlər mövcud idi. Azərbaycan XKS-nin 1930-cu ilin noyabrında «Azərbaycan SSR-də ümumicbari təhsil üzrə məktəblərə uşaqların buraxılmamasına görə məsuliyyət haqqında» qəbul etdiyi qərar, eləcə də Naxçıvan MSSR XKS və rayon icraiyyə komitələrinin müvafiq qərarları uşaqları məktəbə buraxmamaq üstündə inzibati cəza verilməsini nəzərdə tuturdu. Lakin Naxçıvanda yenə də bir çox valideynlər öz qızlarını məktəbə qoymurdular. Buna görə də məktəblilər arasında qızların faizi 30 civarında idi. Qızların məktəbdən kənarda qalmalarının əsas səbəblərindən biri də gənc qızların erkən nişanlanması və ərə verilməsi idi.

30-cu illərin sonunda Muxtar Respublikada yeddiillik icbari təhsil həyata keçirildi, orta məktəblər şəbəkəsi genişləndirildi. Əgər beşilliyin əvvəlində Muxtar Respublikadakı mövcud 163 məktəbdə 16403 nəfər şagird oxuyurdusa, artıq 1939-cu ildə 201 ümumtəhsil məktəbi var idi. Onlarda 28749 nəfər şagird (12867 nəfəri qız) təhsil alırdı (129, s.27).

1941-ci ilin martında Naxçıvan VPK Muxtar Respublikada ümumicbari təhsilin vəziyyəti və məktəbdən yayınma halları ilə mübarizə tədbirləri haqqında məsələyə baxdı. Muxtar Respublikada bu sahədə çox ciddi problemlərin və nöqsanların olduğu qeyd edildi. Xüsusən bir sıra

kəndlərdə məktəb binalarının olmaması, 2000-ə yaxın məktəbyaşlı uşağın hələ də təhsildən kənarda qaldığı və s. məsələlərə diqqət yetirilmiş, onların həlli üçün konkret vəzifələr müəyyənləşdirilmişdi. 1941-ci ilin payızına qədər 35 kənddə məktəb tikintisi planlaşdırılmışdı (77, s.1, iş 181, v.21). Lakin müharibənin başlanması bu planın yerinə yetirilməsinə imkan vermədi.

30-cu illərdə Naxçıvan MSSR-də maarifin inkişafını aşağıda göstərilən rəqəmlər də sübut edir (101, s.111-113).

№	Tədris illəri	Məktəblərin sayı	İbtidai məktəblərin sayı	Yeddillik və səkkizillik məktəb-lərin sayı	Orta məktəb-lərin sayı
1	1932/33	173	114	58	1
2	1940/41	196	87	74	35

1932/33-cü tədris ilində şagirdlərin sayı 19666 (onlardan 12.036 nəfəri ibtidai məktəblərdə, 7300 nəfəri yeddiillik və səkkizillik məktəblərdə, 330 nəfəri isə orta məktəblərdə) nəfər idi. Onların təlim-tərbiyəsi ilə 495 nəfər müəllim məşğul olurdusa, 1940/41-ci tədris ilində isə şagirdlərin sayı 30453 (onlardan 4486 nəfəri ibtidai məktəblərdə, 12681 nəfəri yeddiillik və səkkizillik məktəblərdə, 13286 nəfəri isə orta məktəblərdə) nəfər idi. Onların təlim-tərbiyəsi ilə 1039 nəfər müəllim məşğul olurdu (101, s.111-113).

1922-ci ildən başlayaraq Naxçıvan diyarında təhsil sisteminin birinci mərhələsi sayılan məktəbəqədər tədris və tərbiyə müəssisələri də təşkil olunmağa başladı. Hər iki tərbiyə ocaqlarının və oradakı uşaqların sayı ildən-ilə artırdı. 1930-cu ildə Naxçıvan şəhərində məktəbyaşlı uşaqların tərbiyəsi üçün 420 yerlik 12 uşaq bağçası tikilmişdir. 30-cu illərin ortalarından başlayaraq Muxtar Ruspublikada məktəbəqədər yaşlı uşaqların tərbiyəsi ilə məşğul olan tərbiyəçi – kadrların hazırlanması üzrə kurslar təşkil olunmağa başlanmışdı. Artıq 1940-cı ildə Muxtar Respublikada daimi məktəbəqədər uşaq müəssisələrinin sayı 31 təşkil edirdi (körpələr evi nəzərə alınmadan). Onlardan 5-i şəhər yaşayış məntə-qələrində, 26-ı kənd yerlərində fəaliyyət göstərirdi. Bu müəssisələrdə 1162 nəfər uşaq tərbiyə alırdı ki, onların 733-ü kənd yerlərinin payına düşürdü (103, s.63).

Göstərilən dövrdə Muxtar Respublikada maarifin inkişafını

ləngidən əsas məsələlərdən biri bölgədə müəllim kadrlarının çatışmaması idi. Pedaqoji kadrların yoxluğu sovet hakimiyyətinin ilk illərində pedaqoji təhsili olmayan, ancaq müəyyən savada malik şəxsləri məktəblərə müəllim kimi cəlb etməyə məcbur edirdi. Ona görə də qısa müddət ərzində pedaqoji kardlar hazırlanması məsələsi partiya-sovet orqanlarının qarşısında duran əsas vəzifələrdən biri idi. Vəziyyətdən çıxmaq üçün 1921-ci ildən Xalq Maarifi Komissarlığının nəzdində 35 nəfərlik qısamüddətli kurs təşkil edildi, Bakıda və digər şəhərlərdəki kurslarda təhsil almaq üçün müdavimlər göndərildi.

Naxçıvan Xalq Komissarları Sovetinin 22 dekabr 1922-ci il tarixli dekreti ilə başqa sahələrdə işləyən müəllimlər Xalq Maarif Komissarlığının sərəncamına göndərilmiş, bütün müəllimlər hərbi mükəlləfiyyətdən azad edilmişdilər (85, s.1, iş 12/2, v.144-145). Müəllimlərin maddi-məişət vəziyyətini yaxşılaşdırmaq üçün müəyyən tədbirlər də həyata keçirilirdi. Lakin bütün bunlar müəllim kadrlara olan ehtiyacı qismən də olsa ödəməyə imkan vermirdi. Nəticədə 1922-1923-cü tədris ilində diyardakı məktəblərin sayı 58-dən 46-a düşmüşdü.

Naxçıvanda müəllim kadrlarının hazırlanmasında 1922-ci il avqustun 28-30-da keçirilmiş Ölkə Müəllimlər Qurultayının mühüm rolu oldu. Qurultayda Naxçıvan maarifi qarşısında duran vəzifələr, müəllimlərin maddi və əxlaqi vəziyyəti, gənc nəslin sosial tərbiyəsi, qızların təhsili, tədris proqramları və digər məsələlər geniş müzakirə edildi. Qurultayda Naxçıvanda məktəblərin vəziyyəti, müəllimlərin ixtisaslarının artırılması və s. məsələlər üzrə təkliflər hazırlanaraq hökumət orqanlarına göndərildi (77, s.1, iş 1577; s.6, iş 63, v.1-10). Qurultayın qərarına əsasən müəllim kadrlara olan ehtiyacı nəzərə alaraq 1922-ci ilin noyabrında Naxçıvan şəhərində Müəllimlər Seminariyası təsis edildi. Seminariyaya rəhbərlik Tiflis Aleksandr İnstitutunun məzunu Xəlilağa Hacılarova tapşırılmış, Əbdüləzim Rüstəmov isə onun müavini təyin edilmişdir. Seminariyanın müəllimləri arasında Məhəmməd Rəsizadə (dil-ədəbiyyat müəllimi), Həsən Səfərov (riyaziyyat müəllimi), Əbdüləzim Rüstəmov (coğrafiya və tarix müəllimi), Həsən Qazıyev (təbiət müəllimi), İbrahimxəlil Axundov (bədən tərbiyəsi müəllimi), Əli Xəlilov (rəsmxət müəllimi) və başqaları var idi.

1923-1924-cü tədris ilində Seminariya Naxçıvan Pedaqoji (Zikur) Texnikumuna çevrildi və 1923-cü ilin dekabrından Ordubad şəhərində fəaliyyət göstərməyə başladı. Texnikumda pedaqoji şura, metodiki təşkilatlar, tələbə komitəsi, müxtəlif fənn dərnəkləri yaradılmışdı. 1925-1926-cı tədris ilində Pedaqoji Texnikumda 119 nəfər tələbə təhsil alırdı (77, s.1, iş 18, v.1). Növbəti ildə texnikumun ilk buraxılışı oldu. 18 nəfər məzun müəllimlik diplomu alaraq Muxtar Respublika məktəblərində

işləməyə başladılar.

Naxçıvan Müəllimləri Qurultayının qərarına uyğun olaraq 1924-cü ilin oktyabrında Naxçıvan Muxtar Respublikasında Qadın Seminariyası – (Ünasiyyə məktəbi) fəaliyyətə başladı. Seminariyaya rəhbərlik N.Nəcəfovaya tapşırılmışdır. 1925-1926-cı tədris ilində Seminariya Qadın Pedaqoji Texnikumuna çevrildi. Texnikumun ilk direktoru Fatma Əlizadə oldu. Burada Leyli (pansion) və Nahari (günü-uzadılmış) qruplar var idi. Həmin ildə texnikumda 80 nəfər tələbə qız təhsil alırdı (84, s.1, iş 180/307, v.18). Texnikumda Xədicə Yusifbəyli, Şövkət Mahmudbəyova, Sabirə Güləhmədova və digər qadın müəllimləri dərs deyirdilər (119, 1972, 13 aprel).

Qadın müəllimlər hazırlanması üçün sovet hakimiyyətinin ilk illərində Naxçıvanda qadın-pedaqoji kursları da fəaliyyət göstərirdi. İlk kurslardan biri 1922-ci ilin noyabrında açılmış və orada 60 nəfər qadın müəllimə hazırlanmışdı (77, s.1, iş 5, v.78).

Naxçıvan MSSR Xalq Komissarları Sovetinin qərarı ilə 1928-1929-cu tədris ilində kişi və qadın texnikumları birləşdirildi, bu isə öz növbəsində müəllim kadrların hazırlanmasının keyfiyyətcə yaxşılaşdırılmasına səbəb oldu. Həmin ildə Naxçıvan MSSR-də texnikumlarda 411 nəfər tələbə oxuyurdu ki, onun da 71 nəfəri qız idi (91, s.2, iş 3, v.87).

Kadr hazırlığının digər forması naxçıvanlı gənclərin Azərbaycanın və SSRİ-nin ali məktəblərinə göndərilməsi idi. 1922-1923-gü illərdə 110 nəfər müxtəlif ali məktəblərə göndərilmiş və təqaüdlə təmin edilmişdilər. Onların əksəriyyəti fəhlə və kəndli balaları idilər. Bu tələbələr arasında İbrahim Qədimov, Qəzənfər Vəkilov, Abbas Qasımov, Cəlil Rəhimov, Kərim Səfiyev və başqalarını göstərmək olar (85, s.1, iş 25, v.2). Bütün bu tədbirlər öz bəhrəsini qısa müddətdə vermişdi. Məsələn, 1913-1914-cü illərə nisbətən Naxçıvanda müəllimlərin sayı 1924-1925-ci tədris ilində 125,4%, 1925-1926-cı tədris ilində isə 171,4% artmışdı (138, s.48). Əgər 1913-1914-cü illərdə Naxçıvanda işləyən müəllimlər arasında azərbaycanlılar cəmi 0,4% təşkil edirdilərsə, 1925-1926-cı tədris ilində 76,2%-ə çatmışdı (129, s.25).

1927-1928-ci tədris ilində Naxçıvanda 140 nəfər türk müəllim (onlardan 8 nəfəri qadın) (77, s.1, iş 834, v.1-3), növbəti ildə isə 110 nəfər türk kişi müəllim və 11 nəfər türk qadın müəllim, 64 nəfər qeyri-türk kişi və 28 nəfər qadın müəllim var idi. Bütün müəllimlərin yalnız 13 nəfəri orta, 14 nəfəri ali təhsilli idi. O zaman Naxçıvanda 1 uşaq bağçası da fəaliyyət göstərirdi ki, orada 22 nəfər oğlan və 13 nəfər qız uşağı tərbiyə alırdı (77, s.1, iş 834, v.1-3). Professor İbrahim Mollayevin məlumatlarına görə, 1921-1922-ci illərdə Naxçıvanda 86 nəfər (onlardan 2 nəfəri qadın),

1924-1925-ci illərdə 154 nəfər (4 nəfəri qadın), 1930-1931-ci illərdə isə 277 nəfər (72 nəfəri qadın) müəllim çalışırdı (63, s.10).

Sovetləşmədən sonra bütün ölkədə olduğu kimi, Naxçıvanda məktəblilərin hakim partiyanın tabeliyində olan ictimai təşkilatlar – pioner və komsomol təşkilatlarına kütləvi cəlb edilməsinə başlandı. 1921-ci ilin dekabrında ÜRKGİ MK-nın bürosu ölkədə pioner təşkilatlarının yaradılması haqqında məsələyə baxdı. 1923-cü il mayın 17-21-də keçirilmiş Zaqafqaziya Respublikaları komsomolçularının I konfransında Zaqafqaziyada məktəb quruculuğu və uşaq kommunist hərəkatının inkişafı məsələləri müzakirə edildi və bütün məktəblərdə pioner təşkilatlarının yaradılmasına başlanıldı. 1923-cü ilin iyulunda Azərbaycan LKGİ Naxçıvan Ölkə Komitəsinin plenumunda Naxçıvanda uşaq kommunist hərəkatının yaradılması barədə göstəriş verildi. Uşaq kommunist hərəkatının (UKH) əsas bazasını məktəblər, uşaq evləri, istirahət komaları və klublar təşkil etməli idi. Uşaq hərəkatı üçün qısamüddətli kurslar yaradılmalı, 13-17 yaşlı bütün uşaqların uçota alınması, uşaq hərəkatını öyrənən dərnəklər yaradılması nəzərdə tutulurdu. Naxçıvan şəhərindəki N.Nərimanov adına uşaq evi uşaq hərəkatının ilk beşiyi oldu. Burada tərbiyə olunan 100 uşaqdan 80 nəfəri 10 pioner manqasında birləşmişdi. 1923-cü il avqustun 18-də keçirilmiş Naxçıvan UKH-nın yığıncağında bu təşkilata V.İ.Leninin adının verilməsi və onun «Spartak» təşkilatına daxil olması haqqında qərar qəbul edildi. 1924-cü ildə UKH əsasında ilk pioner təşkilatı yaradıldı. Qasım Tağıyev pioner bürosuna sədr seçildi. Həmin ildə təkcə Naxçıvanın 9 məktəbində yaradılmış pioner təşkilatlarının üzvlərinin sayı 800 nəfərdən çox idi. 1927-ci ildə Naxçıvanda ilk pioner düşərgəsi yaradıldı. Burada 80 nəfər gənc istirahət edirdi. Dəstənin rəhbəri Teymur Cəfərov idi (91, s.2, iş 3, v.82-83).

Gənc müəllimləri kommunist ideyaları əsasında tərbiyə etmək və onları yeni rejimin ideoloji kadrlarına çevirmək üçün partiya və komsomol təşkilatlarına xüsusi direktivlər verilmiş, onlardan müəllimlərin bu təşkilatlara üzv olmaları üçün fəal iş aparmaları tələb olunmuşdu. Buna baxmayaraq, hətta 30-cu illərin əvvəllərində Naxçıvan müəllimləri və şagirdləri arasında kommunist və komsomolçu təbəqəsi çox az idi. 1925-ci ildə kommunistlər bütün müəllimlərin cəmi 7,6 %-i, komsomolçular isə 8,89%-i təşkil edirdi. Müəllimlər arasında siyasi iş aparmaq üçün onlar məcburi surətdə partiya siyasi təhsilinə cəlb edilirdilər. Naxçıvan şəhərində 210 nəfərin təhsil aldığı 3 texnikumda cəmi 74 nəfər komsomolçu var idi (13, s.1, iş 894, v.75-76). Həmin texnikumlarda partiyanın nüfuzunu yüksəltmək üçün tələbələr arasında təmizləmə aparmaq və sosial mənşələri sovet rejiminə yad olanları xaric

etmək qərara alınmışdı. «Tamamilə məxfi» qrifli bir sənəddə (13, s.1, iş 894, v.30) Naxçıvan Pedaqoji Texnikumunda tələbələr arasında millətçilik əhvali-ruhiyyəsinin yüksək olduğu bildirilirdi. Sənəddə qeyd edilirdi ki, 1922-ci ildən fəaliyyət göstərməsinə baxmayaraq texnikumda bir sıra mənfi hallar mövcuddur. Kursantların (tələbələrin – H.C.) qəbulu zamanı onların sosial vəziyyətinə kifayət qədər diqqət yetirilmədiyindən onlar arasında bəylərin, xanların və digər istismarçıların övladları vardır. Bu kursantların təşəbbüsü sayəsində tələbələr arasında şovinist fikirlər inkişaf edir, sovet hakimiyyətinə qarşı təbliğat aparılırdı. Hətta texnikumda divar qəzetində belə siyasi və milli xarakterli məqalələr dərc edilirdi. Bütün bu təzahürlərin qarşısın almaq üçün Maarif Komissarlığından texnikumu proletarlaşdırmaq və «yad tipli» tələbələrdən təmizləmək tələb edilmişdir. Bütün Azərbaycanda olduğu kimi, Naxçıvan Muxtar Respublikasında partiya və sovet hökumətinin həyata keçirdiyi ictimai-siyasi və mədəni-ideoloji kampaniyalarda dinə, milli adət-ənənələrə qarşı mübarizədə tələbə-gənclərdən ideoloji silah kimi istifadə olunurdu. Təkcə 1929-cu ilin əvvəli üçün Muxtar Respublikada 30 məscid və 9 kilsə dindarların əlindən alınaraq anbarlara, klublara və başqa mədəni müəssisələrə çevrilmişdi. Din xadimlərinin təqib edilməsində, dini ocaqlara qarşı mübarizədə əsasən tələbə-gənclərdən istifadə olunurdu. Lakin sovet hakimiyyətinin bütün cəhdlərinə baxmayaraq, Naxçıvan Muxtar Respublikasında zəhmətkeşlərin və gənclərin «kommunizm ruhunda tərbiyəsi» sahəsində əhəmiyyətli nəticələr əldə etmək mümkün olmadı. Xüsusən gənclərin dini ayinlərə əməl etmələri, onların kütləvi şəkildə komsomola daxil olmaqdan imtina etmələri yuxarı partiya və komsomol orqanları tərəfindən rəsmi şəkildə etiraf edilirdi. Texnikumları proletarlaşdırmaq məqsədilə bəy, xan ailəsindən olan gənclərin qəbuluna məhdudiyyətlər qoyulmuş, kəndli və fəhlə balaları üçün əlavə güzəştlər, təqaüdlər tətbiq edilmişdi. Məsələn, 1928-1929-cu tədris ilində 300 nəfərdən artıq tələbə təqaüd alırdı. Tələbələr arasında fəhlələr 20%, kəndlilər isə 40% təşkil edirdi. 411 nəfər tələbədən yalnız 5 nəfəri partiyaçı, 245 nəfəri komsomolçu idi (77, s.1, iş 4, v.1-5).

Bütövlükdə Pedaqoji texnikumun buraxdığı müəllimlər Muxtar Respublikanın pedaqoji kadrlara olan ehtiyacını tam ödəyə bilmirdilər. Belə ki, 1931-1932-ci tədris ilində texnikum cəmi 99 nəfər müəllim buraxmışdı ki, bu da çox aşağı rəqəm idi. Məsələn, 1931-1932-ci tədris ilində Muxtar Respublikada müəllimlərin sayı cəmi 470 nəfər idi ki, onlardan da yalnız 76 nəfəri qadın idi (84, s.1, iş 82, v.3-7). Ona görə də müəllim hazırlığında digər imkanlardan da istifadə olunurdu. Naxçıvanlı gənclər Bakının müvafiq ali məktəblərinə göndərilir, pedaqoji kurslar

təşkil olunurdu. 1935-ci ildə Muxtar Respublikanın 130 nəfər gənci Bakı, Gəncə, Moskva, Leninqrad, Tiflis şəhərlərinə təhsil almaq üçün göndərilmişdir (119, 1935, 15 avqust).

Pedaqoji kadrların hazırlanmasının mühüm formalarından biri də kəndli-gənclər məktəbləri (KGM) və fəhlə fakültələri (rabfaklar – H.C.) oldu. Naxçıvan Muxtar Respublikasında ilk KGM 1928-ci ildə Ordubad rayonunun Vənənd kəndində açılmış, 30-cu illərin ortalarında onların sayı 17-ə çatmışdı, 30-cu illərin sonunda bu məktəblərdə 1255 nəfər gənc təhsil alırdı (77, s.1, iş 68, v.8-9). Rabfaklar ümumi təhsil verməklə fəhlə və kəndli gəncləri ali məktəblərə daxil olmağa hazırlayırdı. Naxçıvanda ilk fəhlə fakültəsi 1930-1931-ci tədris ilində Pedaqoji Texnikumun nəzdində açılmış və oraya 30 nəfər gənc qəbul edilmişdi. 1937-1938-ci tədris ilində orada artıq 180 nəfər oxuyurdu. Fəhlə fakültələri həm də ali və orta ixtisas məktəblərinin proletarlaşdırılmasına xidmət edirdi. Bütün ölkədə 1938-ci ildə «yad siniflərin» ləğv edilməsi ilə əlaqədar olaraq Naxçıvanda da fəhlə fakültələri öz vəzifələrini yerinə yetirdiyi elan edilərək ləğv edilmiş və o pedaqoji texnikumla birləşdirilmişdi.

Naxçıvan Pedaqoji Texnikumu Muxtar Respublika üçün müəllim kadrların hazırlanmasında böyük rol oynadı. Yarandığı 1926-cı ildən 1941-ci ilə qədər texnikumda 1071 nəfər müəllim hazırlanmış, onlardan 182 nəfəri qadın idi. Lakin nəzər alsaq ki, 1935-1936-cı tədris ilindən texnikumda erməni bölməsi açılmış və oranı 1941-ci ilə qədər 87 nəfər erməni qızı qurtarmışdır, bu rəqimin Muxtar Respublika üçün kifayət qədər az olduğu aydınlaşar. Texnikumun tələbələri arasında gələcəkdə Azərbaycanın siyasi və ictimai həyatında mühüm rol oynayacaq insanlar var idi. Bu məktəbin ən tanınmış məzunu isə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev idi. Xalqımızın ümummilli lideri Heydər Əliyev özünün şəxsiyyət kimi formalaşmasında aldığı təhsilin böyük rol oynadığını göstərərək qeyd edirdi: «Mən öz müəllimlərimi həmişə xatırlayıram. Bilirsiz ki, mən böyük həyat yolu keçmişəm, yaşım da az deyildir. Çox şeylər, çox insanlar görmüşəm, çox böyük şəxsiyyətlər görmüşəm. Demək istəyirəm ki, ən yadda qalanlar mənim üçün əziz adamlar Naxçıvandakı müəllimlərimdir. Onların adlarını indiyə qədər xatirimdə saxlayıram». Milli liderimiz ona dərs deyən bütün müəllimləri, o cümlədən lətif Hüseynzadə, Abbas Əsgərov, Cəlil İsgəndərov, Həsən Qazıyev, Tofiq Bektaşi, Əsəd Cəfərli, Kazım Talıblı, Əli Əliyev, Əsgər Əhmədov, Əbülfəz Həsənov və s. adlarını daim fəxrlə çəkir, onlara öz hörmət və ehtiramını bildirirdi.

Müəllim hazırlığını genişləndirmək məqsədilə 1937-1938-ci tədris ilində Ordubad şəhərində də Pedaqoji Texnikum açıldı. Texnikumun ilk direktoru vəzifəsinə Mehdi Mehdiyev təyin edildi. Texnikuma birinci ildə

7 nəfəri qız olmaqla 57 nəfər tələbə qəbul olundu. Növbəti tədris ilində isə onların sayı 4 dəfə artırılaraq 213 nəfərə çatdırıldı (77, s.1, iş 1941, v.5).

1940-1941-ci tədris ilində Naxçıvan Pedaqoji Texnikumunu 94, Ordubad Pedaqoji Texnikumunu isə 92 nəfər bitirərək pedaqoji fəaliyyətə başladılar. Növbəti 1941-ci ildə Naxçıvan Pedaqoji Texnikumu ləğv edilərək Ordubad Pedaqoji Texnikumuna birləşdirildi (78, s.1, iş 264, v.10-11). Bu qərarın qəbul edilməsinin əsas səbəbi Naxçıvanda yeni tipli təhsil ocağının – Müəllimlər İnstitutunun yaradılması oldu.

Naxçıvan MSSR-də ali pedaqoji məktəb – Müəllimlər İnstitutu Muxtar Respublika Xalq Komissarları Sovetinin 14 avqust 1939-cu il tarixli qərarı ilə yaradılmış və həmin il sentyabrın 15-də iki fakültə (dil-ədəbiyyat, fizika-riyaziyyat) ilə fəaliyyətə başlamışdı. İnstituta ilk qəbulda 180 nəfər tələbə kontingenti nəzərdə tutulsa da, cəmi 129 nəfər tələbə qəbul edilmişdi ki, onların 31 nəfəri qız idi. Növbəti – 1940-1941-ci tədris ilində Naxçıvan Müəllimlər İnstitutunda artıq 4 fakültə – dil-ədəbiyyat, fizika-riyaziyyat,. təbiət-coğrafiya və tarix fakültələri açılmışdı ki, orada ümumilikdə 230 nəfər tələbə oxuyurdu. Lakin I kursa qəbul edilənlərin bir hissəsi sovet ordusuna səfərbər edildiyindən, bir hissəsi isə müxtəlif səbəblərdən təhsillərini başa vura bilmədiklərindən 1941-ci ildə institutun ilk məzunlarının sayı cəmi 65 nəfər təşkil etmişdi ki, onların 52 nəfəri ədəbiyyat, 13 nəfəri fizika-riyaziyyat fakültələrini bitirmişdilər (129, s.32). İnstitutun ilk məzunları arasında Qəzənfər Əkbərov (Sovet İttifaqı Qəhrəmanı), Nazlı Tahirova, Mahmud Axundov, Qasım Hacıyev, İsmayıl Sadiqov, Yunis Qasımov, Salman Ağayev və başqaları var idi. İnstituta qəbul partiya və komsomol təşkilatlarının zəmanəti ilə aparılırdı.

İnstitutda dərs demək üçün Muxtar Respublikanın ən nüfuzlu pedaqoqları cəlb edilmişdir. Əsəd Cəfərli, Kazım Talıbov, Həsən Salayev, Xəlil Əliyev, Murad Tutayuk, Lətif Hüseynzadə, Əbülfəz Həsənov, Ağalar Qurbanov, İbrahimxəlil Axundov, Abbas Əsgərov, Həsən Qazıyev, Kamil Əliyev kimi müəllimlərin gərgin əməyi sayəsində Muxtar Respublikada ali pedaqoji təhsilin möhkəm bazası formalaşmağa başladı. Müharibəyə qədər instituta Əsgər Yusif oğlu Əhmədov başçılıq etmişdir.

Naxçıvanlı tələbələr Muxtar Respublikanın ictimai-siyasi, iqtisadi, mədəni həyatında fəal iştirak edir, kənd əhalisi arasında savadsızlığın ləğvində, onlara tibbi, mədəni, məişət xidmətləri göstərilməsində, kənd təsərrüfatı işlərində böyük və səmərəli fəaliyyət göstərirdilər. Yay tətili günlərində tələbələr kolxozçulara mədəni kömək göstərir, qiraət daxmalarının, klubların təşkilinə yardım edirdilər. Tələbələr əhali arasında, gənclər arasında siyasi iş aparır, iri siyasi və dövlət kampaniyalarında təbliğatçı və təşviqatçı kimi çıxış edirdilər. Tələbələrin təlim-tərbiyə işinin mühüm tərkib hissəsini dərsdənkənar mədəni-kütləvi tədbirlər təşkil

edirdi. Naxçıvan Müəllimlər İnstitutunda dərsdənkənar mədəni-kütləvi tədbirlər müxtəlif istiqamətlərdə həyata keçirilirdi. İlk növbədə əlamətdar günlərin, sovet dövlətinin bayramlarının qeyd olunması, tanınmış mədəniyyət və elm xadimlərinin yubileylərinin və onlarla görüşlərin keçirilməsi, yaradıcı ziyalıların, alim-yazıçı və şairlərin əsərlərinin müzakirəsi, tələbələrin əl işlərindən ibarət sərgilərin, müsabiqələrin keçirilməsi, idman və bədən tərbiyəsi üzrə çoxnövlü yarışların təşkili dərsdənkənar mədəni-kütləvi tədbirlərin məzmununu əhatə edirdi. İnstitutda keçirilən dərsdənkənar mədəni-kütləvi tədbirlər prosesində dərnək və klub məşğələləri də mühüm yer tuturdu (61, s.61). Tələbələr Muxtar Respublikada keçirilən kütləvi idman-müdafiə tədbirlərinin əsas iştirakçıları idilər.

Naxçıvanda 20-30-cu illərdə pedaqoji kardların hazırlanması istiqamətində həyata keçirilən tədbirlər pedaqoji kursların, məktəblərin təşkili, pedaqoji texnikumlar və Müəllimlər İnstitutunun açılması bölgədə müəllimlərin sayının və tərkibinin artmasına, məktəblərin ixtisaslı kadrlarla təminatında əhəmiyyətli rol oynadı. Əgər 1921-1922-ci tədris ilində Naxçıvan Muxtar Respublikasında cəmi 86 nəfər müəllim (o cümlədən 2 qadın) çalışırdısa, 1924-1925-ci tədris ilində onların sayı 154 (4), 1930-1931-ci tədris ilində 277 (72), 1935-1936-cı tədris ilində 575 (91), 1936-1937-ci tədris ilində isə 733 (173) təşkil edirdi (111, s.109; 63, s.10-11). Müəllimlərin təhsil səviyyəsi də nəzərə çarpacaq dərəcədə dəyişmiş, 1930-1931-ci tədris ilində 17 ali təhsilli müəllimə olduğu halda, 1936-1937-ci tədris ilində onların sayı isə 37 nəfər təşkil etmişdi (63, s.11). 1940-1941-ci tədris ilində Muxtar Respublikada çalışan müəllimlərin 176 nəfəri ali və natamam ali, 851 nəfəri orta təhsilli idi (77, s.1, iş 89, v.1-7). 1940-1941-ci tədris ilində Naxçıvan MSSR-də 196 ümumtəhsil ocağında 30433 nəfər şagirdə 1027 nəfər müəllim dərs deyirdi (101, s.120-122). Lakin onların arasında azərbaycanlılar cəmi 796 nəfər idi (77, s.4, iş 164, v.46). Muxtar Respublikada 40-cı illərin sonunda 140 nəfər qadın-pedaqoq çalışırdı. 1940-cı ildə Muxtar Respublikada fəaliyyət göstərən 196 məktəbdən 87-si ibtidai, 74-ü əsas, 35-i isə orta məktəb idi. Həmin məktəblərdə müvafiq olaraq 4486, 12681, 13286 nəfər şagird təhsil alırdı (103, s.63).

20-ci illərdə pedaqoq kadrlarla yanaşı, xalq təsərrüfatının digər sahələri üçün mütəxəssislər hazırlanmasının əsası qoyuldu. Bu istiqamətdə Kənd Təsərrüfatı Texnikumu, Sovet Partiya Məktəbi, Tibb Texnikumu, Musiqi məktəbi mühüm rol oynadı.

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı kadrlarına olan böyük ehtiyacı nəzərə alaraq Muxtar Respublikanın IV Sovetlər qurultayının 25 fevral 1925-ci il tarixli qərarı ilə Naxçıvan şəhərində Kənd Təsərrüfatı Texnikumu açıldı (78, s.2, iş 1960, v.12-13). Texnikum 1925-ci

ilin iyunundan fəaliyyət göstərməyə başladı. Burada tələbələr ümumi təhsillə yanaşı, iki ixtisasa – heyvandarlıq və aqronomluq ixtisaslarına yiyələnirdilər. 1929-1930-cu tədris ilində texnikumda 200 nəfərdən çox tələbə təhsil alırdı. Naxçıvanda kolxoz quruculuğunda texnikumun tələbələri yaxından iştirak edirdilər. 1929-1941-ci illər ərzində Naxçıvan Kənd Təsərrüfatı Texnikumu 347 nəfər mütəxəssis hazılamışdı.

Sovet - partiya məktəbi əsasən siyasi-maarif işçiləri hazırlayırdı. Sovet hakimiyyəti bu məktəbləri ideoloji işçilərin hazırlanmasının əsas mənbəyi hesab etdiklərindən onlara xüsusi diqqət yetirilir, kontingentin artırılmasına çalışırdı. 20-ci illərin sonlarında Naxçıvan SPM-da artıq 47 müdavim təhsil alırdı (77, s.1, iş 4, v.1-5). 1926-cı ildə buraya ilk 5 qız – Füruzə Məmmədova, Səkinə Sadıqova, Maral Muxtarova, Fatma Paşazadə və Tovuz Sadıqzadə qəbul edildilər. Bütövlükdə 1930-cu ilin əvvəllərində Naxçıvanın orta ixtisas məktəblərində oxuyan qızların sayı 94 nəfərə çatmışdı.

Orta səhiyyə işçilərinin hazırlanması məqsədi ilə 1931-ci ildə Naxçıvan şəhərində Tibb Texnikumu açıldı. İlk direktoru Əli Süleymanov olan texnikumda ilk ildə cəmi bir şöbəyə (feldşerlik şöbəsi) 32 nəfər tələbə qəbul edildi (78, s.1, iş 82, v.37-38). İki ildən sonra daha üç şöbə – mamaçalıq, tibb bacısı və əzcaçılıq şöbələri təşkil olundu. Bu zaman texnikumda 143 nəfər tələbə təhsil alırdı (129, s.31). 1935-ci ildə texnikumun ilk buraxılışı oldu və 14 nəfər məzun Muxtar Respublikanın səhiyyə müəssisələrinə işə göndərildi. Onların arasında 8 nəfər qız da var idi (119, 1938, 5 iyul). Bütövlükdə 1934-1941-ci illər ərzində texnikumu 400-ə yaxın tələbə qurtarmışdır ki, onların da 151 nəfəri qız idi (26, s.117; 115, s.31).

Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin 23 avqust 1937-ci il tarixli qərarı ilə Naxçıvan şəhərində Musiqi məktəbinin açılması bölgədə professional musiqi təhsilinin təşəkkül taparaq inkişafında mühüm rol oynadı. İlk tədris ilində 80 nəfər gəncin qəbul olunduğu məktəbin direktoru Naxçıvanın tanınmış ziyalılarından olan Hüseyn Baqı təyin olunmuşdu. Sonrakı illərdə məktəbdə oxuyan şagirdlərin sayı dönmədən artaraq 195 nəfərə çatdırıldı (77, s.1, iş 39, v.1).

30-cu illərdə Muxtar Respublikada qadın pedaqoqlarla yanaşı iqtisadiyyatın digər sahələri üçün də qadın kadrları hazırlanmışdı. Kənd Təsərrüfatı Texnikumunu 10 ildə (1925-1935-ci illər) 5 nəfər qız, Tibb Texnikumunu 1934-1941-ci illərdə isə 151 nəfər qız bitirmişdi (101, s.117).

Orta və ali təhsilin inkişaf etdirilməsi sahəsində həyata keçirilən tədbirlər sayəsində 30-cu illərin sonlarında texnikum və ixtisas məktəblərində oxuyan tələbələrin sayı artaraq 1630 nəfərə çatmışdı ki, onların 204 nəfəri qız idi (87, s.1, iş 228, v.5; 77, s.4, iş 168, v.18).

Beləliklə, 20-30-cu illərdə Naxçıvan Muxtar Respublikasında orta ixtisas məktəbləri və Müəllimlər İnstitutunun yaradılması nəticəsində Muxtar Respublikanın mədəniyyət, iqtisadiyyat və təhsil sahələri üçün yüksək ixtisaslı kadrlar ordusu formalaşaraq inkişaf etməyə başlamış, bu isə bölgənin gələcək tərəqqisində mühüm rol oynayacaq amilə çevrilmişdi. Artıq 1939-cu ildə Naxçıvan MSSR əhalisinin savadlılıq dərəcəsi 84,5% (şəhər əhalisi 86,5%, kənd əhalisi 84%), qadınlarınkı isə 78,1%-ə (müvafiq olaraq 79,1% şəhərdə, 77,8% kənddə) çatmışdı (132, s.42).

Ümumiyyətlə, 30-cu illərdə sovet hakimiyyətinin Azərbaycanda, o cümlədən Naxçıvan MSSR-də mədəni-maarif sahəsində həyata keçirdiyi siyasətdə çoxlu əyintilərin, qanunsuzluqların baş verməsinə baxmayaraq gənc və orta nəslin arasında savadsızlığının ləğvi sahəsində çox mütərəqqi dəyişikliklər baş vermiş, gələcəkdə bütün əhali arasında savadsızlığın tam aradan qaldırılmasına və milli kadrların yetişməsinə şərait yaratmışdı.

Təhsil sahəsində baş vermiş mütərəqqi dəyişiklik Naxçıvan Muxtar Respublikasında ədəbi-mədəni mühitin canlanmasında, mətbuatın, teatr və dramaturgiyanın inkişafına təkan verdi. Azərbaycan Yazıçılar Cəmiyyətinin Naxçıvan şöbəsində birləşən gənc yazıçıların – M.Təhmasib, N.Nağıyev, M.Nəsirli, Ə.Rəsulzadə, A.Gülməmmədov, Ə.Abbasquluyev, M.Əkbər və başqalarının yaradıcılığı ədəbi-mədəni prosesin inkişafına müsbət təsir göstərmişdi.

30-cu illərin sonlarına doğru Naxçıvan MSSR-də ədəbiyyatın inkişafı Məmmədəli Tarverdiyev, Həsən Nağıyev, Ənvər Əylisli, Qurban Qurbanov, Qasım Tağıyev, Hüseyn Əzim, Lətif Hüseynzadə, Əbdül Kazım və başqa istedadların meydana gəlməsinə səbəb oldu. Pedaqoji Texnikum, Müəllimlər İnstitutu, Gənclər klubu nəzdində həvəskar gənclərin toplandığı ədəbiyyat dərnəkləri fəaliyyət göstərirdi. Gənc yazarların ədəbi yaradıcılığının əsas mövzusu bir qayda olaraq sovet quruluşunun üstünlükləri, xalq düşmənləri ilə mübarizə, siyasi rəhbərlərin (Stalin, Beriya, Bağırov) vəsf edilməsi, sovet vətənpərvərliyi idi. Bu baxımdan Q.Tağıyevin «Kolxozumuz», H.Əzimin «Yasəmənin toyu», M.Yaqubun «Komsomolçu Elşad», S.Sayılovun «Qəhrəman qız», T.Zeynalovun «Stalin» şeirlərini göstərmək olar. Gənc dramaturq, komsomolçu Q.Qurbanovun «Ayrım» əsəri Naxçıvan Dram Teatrında tamaşaya qoyulmuşdu. Əsərdə «xalq düşmənləri» ilə aparılan mübarizə işıqlandırılmışdı. «Şərq qapısı» qəzetində əsərin tamaşaya qoyulması münasibətilə qeyd edilirdi ki, «Ayrılıqda biz trotskiçi, buxarinçi, nasional-uklonist və s. faşist köpəkləri qalıqlarının dövlətimizə nə kimi ziyanlar vurmağa çalışdıqlarını və sovet vətənpərvərlərinin onlara qarşı inadlı mübarizələrini görürük (119, 1934, 17 yanvar). Publisistika sahəsində həmin dövrdə M.Nəsirli, M.Tarverdiyev, Ə.Abbasquliyev, Ə.Qəmbərli,

R.Ağayev, S.Abbasova, M.Nuriyeva və başqa gənclər uğurla çalışırdılar.

30-cu illərdə Naxçıvanda teatr sənətinin formalaşmasında və inkişafında gənc aktyor və rejissorlardan İ.Həmzəyev, M.Mirişli, Ə.Haqverdiyev, X.Qazıyeva, F.Əlixanova xüsusi xidmətlər göstərdilər. 30-cu illərdə teatrda C.Cabbarlının «Almaz», «Yaşar», M.İbrahimovun «Həyat», S.Rəhmanın «Toy», S.Vurğunun «Vaqif» pyesləri və s. uğurla tamaşaya qoyuldu. Rayonlarda fəaliyyət göstərən xalq teatrlarının, özfəaliyyət dərnəklərinin əsas təşkilatçıları və üzvləri də gənclər idi.

Göstərilən dövrdə Naxçıvan MSSR-də həm xalq musiqisi, həm də klassik musiqi inkişaf etdirilirdi. 30-cu illərin əvvəllərində Muxtar Respublikada xalq çalğı alətləri ansamblları geniş təşəkkül tapmağa başladı. Bu zaman ənənəvi xalq çalğı alətləri ilə yanaşı, Avropa alətləri: piano, skripka, mandolina da dəbə düşmüşdü. 1937-ci ildə Ü.Hacıbəyovun təşəbbüsü ilə Naxçıvanda musiqi məktəbinin açılması yeni musiqiçilər nəslinin təşəkkül tapmasına şərait yaratdı. 30-cu illərdə mədəni-maarif müəssisələrinin – klublarının, kino qurğularının, kitabxanaların inkişafı gənclərin mədəni səviyyəsinin inkişafındca mühüm rol oynadı.

Bədən tərbiyəsi və idman gənclərin sosial-mədəni həyatının tərkib hissəsinə çevrildi. 1924-cü ildə Muxtar Respublikada Bədən Tərbiyəsi Şurası yaradılmış, onun ilk sədri Xəlil Gülməmmədov tərəfindən futbol, yüngül atletika, atıcılıq, akrobatika, ağır atletika, güləş, voleybol, şahmat və başqa idman oyundarı təşkil edilmişdi. 1928-ci ildən başlayaraq Naxçıvanın bəzi məktəblərində idman dərsləri keçirilməyə başlandı. Artıq 1930-cu ildə Naxçıvanda 15 nəfər bədən tərbiyəsi və idman mütəxəssisi, 340 nəfər bilavasitə idmanla, bədən tərbiyəsi ilə məşğul olan var idi. 1931-1934-cü illərdə Muxtar Respublikada ƏMH və ƏMHO kompleksi nişançıların hazırlanmasında mühüm işlər görürdü. Gənclər klubu nəzdində müxtəlif idman bölmələri təşkil olunmuşdu. Muxtar respublikada idman hərəkatının inkişafında İbrahimxəlil Axundov, Mirhəsən Seyidov, Qadir Səmədov, Sultan Qədimov və başqaları mühüm xidmət göstərmişdilər. 1938-ci ilin iyul-avqust aylarında Naxçıvan şəhərində bədən tərbiyəsi işçiləri təlimatçısı hazırlayan kurslar təşkil edilmişdi. Kursun rəhbəri Cəlil Abbasov və D.Babayev idi. İlk buraxılışda kursu 30 nəfər bitirmişdi. 30 nəfər naxçıvanlı Azərbaycan kolxozçularının spartakiadasında yüngül atletika, güləş, voleybol və velosiped yarışlarında iştirak etmişdilər (119, 1938, 15 iyul).

1924-cü ildə «Dinamo», 1935-ci ildə «Spartak», 1936-cı ildə «Burevestnik» idman cəmiyyətlərinin yaradılması Muxtar Respublikada bədən tərbiyəsi və idmanın inkişafına təkan verdi. Naxçıvan MSSR-də ilk idman yarışlarının keçirilməsi də 30-cu illərə təsadüf edir. 1934-cü il mayın 25-də Naxçıvan MSSR I Spartakiadasının açılışı oldu.

Spartakiadanın keçirilməsi üçün Vilayət Komitəsi yaradılmış, kolxozçuları, fəhlələri, tələbələri əhatə edəcək kontrol rəqəmlər müəyyənləşdirilmişdi. Muxtar Respublika üzrə məktəblilər üzrə spartakiadaların da bu dövrdən etibarən təşkil olunmasına başlanmışdı (86, s.1, iş 16, v.10-17).

Beynəlxalq Gənclər günü münasibəti ilə rayonlar və idman cəmiyyətləri arasında futbol, voleybol, basketbol yarışları keçirilirdi. Çağırışçılar arasında bədən tərbiyəsi işinin zəif aparıldığını nəzərə alaraq, Naxçıvan MSSR XKS yanında Bədən Tərbiyəsi və İdman İşləri Komittəsinin 23 iyun 1937-ci il tarixli qərarı ilə bütün çağırışçıların «ƏMH» ilə əhatə olunmaları vəzifəsi qoyulmuşdu. Həmin iclasda bütün bədən tərbiyəsi işçilərinin «Allahsızlar cəmiyyəti»nə üzv yazılmaları tələb edilmiş, kolxozçu və məktəblilərin şahmat və şaşki bölmələrinə cəlb edilməsi tapşırılmışdı (86, s.1, iş 7, v.7). 1937-ci ildə ağır atletika üzrə Azərbaycan birinciliyi Naxçıvanda keçirilmiş, naxçıvanlı Tahir Məmmədov III yeri tutmuşdu. 1939-cu ildə Naxçıvan-Culfa istiqamətində marafon qaçışında 8 nəfər iştirak etmiş və Qədimov yarışın qalibi olmuşdu.

30-cu illərin sonlarında Naxçıvanda 3 nəfər – Yusif Əhmədov, Müzəffər Əsgərov və Kamil Məmmədov Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda təhsil almışdılar. 1940-cı ildə Muxtar Respublikada bədən tərbiyəsi və idmanla məşğul olanların sayı 5320 nəfərə çatırdı. 37 nəfər bədən tərbiyəsi kadrı, 61 idman qurğusu var idi (34, s.9-10).

Naxçıvan gənclərinin hərbi müdafiə işində yaxından iştirakı da 30-cu illərə təsadüf edir. Komsomolun iştirakı ilə Muxtar Respublikada atıcı dərnəklər və müdafiə ongünlükləri təşkil edilmişdi. Naxçıvan rayon komsomol komitəsinin 42 təşkilatında 200 hərbi manqa və 63 taqım təşkil edilmişdi. Taktiki təlimlərə isə 8000 nəfər gənc, o cümlədən 2000 nəfər qız qatılmışdı. Çağırışçılar arasında savadsızlığın ləğvi üçün dərnəklər yaradılmışdı (119, 1939, 10 iyun). OSOAVİAXİM təşkilatlarının sayı 1935-ci ildə 197-dən 229-a çatdırılmışdı (119, 1939, 18 oktyabr). Naxçıvan gənclərinin hərbi-vətənpərvərlik tərbiyəsində Naxçıvanda yerləşən sovet sərhəd qoşunlarına əsas yer verilirdi. Sərhədçilər gənclər arasında söhbət və məruzələr edir, hərbi-idman dərnəkləri, atıcılıq dərnəkləri təşkil edirdilər.

20-ci illərdə Naxçıvanın qız və qadınlarının savad, təhsil səviyyəsinin artırılması sahəsində atılan addımlar onların Muxtar Respublikanın mədəni, ictimai-siyasi həyatında daha fəal iştirak etməsi, qadın azadlığının genişləndirilməsi üçün şərait yaradırdı. Qadınlarla mədəni-kütləvi iş yenə əvvəlki kimi klublar, qadın guşələri və digər

mədəni müəssisələr vasitəsilə aparılırdı. Naxçıvan və Ordubad şəhərləri ilə yanaşı, 1935-ci ildə Noraşendə də qadın klubu açılmışdı (2, 1973, №2). Lakin valideynlər, kişilər öz qadınlarını, qızlarını klublara getmələrinə icazə vermədiklərindən Azərbaycanın digər bölgələrinə nisbətən Muxtar Respublikada qadın və qızları klublara cəlb etmək, onları mədəni-kütləvi tədbirlərlə əhatə etmək sahəsində çox ciddi problemlər mövcud idi. Klublar rayon komsomol komitələri tərəfindən himayə edilir, ən fəal qızları orada rəhbər işə cəlb edirdilər. Məsələn, Siddiqə Abbasova Naxçıvan, Səlbi Əlizadə isə Ordubad rayon klublarının müdirələri olduqdan sonra qadınlarla kütləvi işin canlanmasında ciddi iş aparırdılar. Klublarda savad, tikiş, musiqi, əl işləri, tibb bacıları kursları da fəaliyyət göstərirdi. 1937-ci ilin iyununda Naxçıvan MİK-nin qərarı ilə Naxçıvan şəhər qadınlar klubu qadınlar sarayına çevrilmişdi (119, 1937, 8 iyun). 30-cu illərin sonunda artıq Naxçıvanda 1 qadınlar sarayı, 5 qadın klubu, 10 qadın qiraət komaları fəaliyyət göstərirdi.

Göstərilən dövrdə Naxçıvanda qadınların sağlamlığının qorunması sahəsində atılan addımlar qadın siyasətinin mühüm tərkib hissəsi idi. Bu məqsədlə Naxçıvan MİK tərəfindən bir çox qanun və qərarlar qəbul edilmişdi. 1939-cu ildə təkcə qadınlar üçün 8 mama məntəqəsi, 5 uşaq məsləhətxanası, 9 yasli, 7 doğum evi mövcud idi. Bu tibb müəssisələrində 144 nəfər qadın tibb işçisi çalışırdı ki, onların 25 nəfəri həkim, 26 nəfəri tibb bacısı, 35 nəfəri mama idi (119, 1939, 8 mart).

Naxçıvan MSSR-də qızların və qadınların azadlığa çıxması, onların ictimai fəallığının artırılması gənclər siyasəti qarşısında duran əsas vəzifələrdən idi. Bu mühüm ictimai vəzifəni yerinə yetirmək üçün qızlarla geniş ictimai, kütləvi təbliğat, maarifləndirmə işləri aparmaq, onların geniş miqyasda ümumi əmək fəaliyyətində, ictimai istehsalda iştirakına nail olmaq lazım idi. Lakin sosial-iqtisadi, mədəni cəhətdən geri qalmış bir regionda, qadın və qızların ictimai proseslərdən kənarda qaldığı bir şəraitdə bu vəzifələrin həlli çox mürəkkəb və çətin idi. 20-ci illərdə Muxtar Respublikada qadın və qızların azadlığa çıxmasında, onların ictimai fəallığının artırılmasında, ictimai istehsala cəlb edilməsində atılmış addımlar sonrakı dövrlərdə də davam etdirilmiş, bəzi çatışmamazlıqlara və problemlərə baxmayaraq, 30-cu illərdə bu sahədə çox uğurlar əldə edilmişdi.

1935-ci ildə ÜİLKGİ Zaqafqaziya Ölkə Komitəsinin bürosunda «Naxçıvan Vilayət Komsomol Komitəsinin işi və vəziyyəti haqqında» məsələsi müzakirə edilərkən Naxçıvan MSSR-də gənc qızlarla siyasi-tərbiyə işinin zəif aparıldığı qeyd edilmiş, onların mədəni-siyasi cəhətdən boyartımının özbaşına buraxıldığı, Muxtar Respublikada qızlar arasında savadsızlığın yüksək olduğu, məktəbyaşlı qızların məktəbdən kənarda

qalmaları, azyaşlı qızların ərə verilməsi, çoxarvadlılıq, qızların dini ayinlərə əməl etmələri, məscidə getmələri, çadrada gəzmələri və digər «neqativ halların» komsomol təşkilatlarının zəif fəaliyyətinin nəticəsi olduğu göstərilmişdi (119, 1935, 21 aprel).

ÜİLKGİ MK-nın XI plenumunda qəbul edilmiş qərarlar, o cümlədən milli gənc qadınlar arasında iş haqqında ÜİLKGİ Başqırdıstan Vilayət Komsomol Komitəsinin məruzəsi üzrə qərarı və gənc qadınlar arasında işin yaxşılaşdırılması tədbirləri haqqındakı qərarlarında komsomol təşkilatları qarşısında qızlar arasında tərbiyəvi işin kökündən yaxşılaşdırılması zəruriliyi haqqında məsələ qoyulmuşdu. «Şərq qapısı» qəzetində ÜİLKGİ MK-nın Başqırdıstan komsomolu ilə bağlı qəbul etdiyi qərarına həsr edilmiş məqalədə həmin qərarda göstərilmiş bütün neqativ halların Naxçıvanda da mövcud olduğu göstərilmişdi (119, 1935, 11 may). Bu qərarlardan sonra Muxtar Respublikanın komsomol təşkilatları qızlarla iş sahəsində bir sıra təşkilati-siyasi tədbirlər həyata keçirdilər. 1935-ci il ərzində Muxtar Respublikanın bütün rayon komsomol komitələrində qızlar arasında siyasi, kütləvi, tərbiyəvi işin vəziyyəti müzakirə edilmiş, komitələrin nəzdində iş bölməsi yaradılmış, gənc qızların rayon konfransları keçirilmişdir.

1935-ci il 15 sentyabrda Muxtar Respublika gənc qadınlarının ilk əyalət konfransı, həmin il dekabrın 9-da isə Naxçıvan şəhər gənc qadınlarının II konfransı olmuşdu. Bu yığıncaqlarda Muxtar Respublikada gənc qızların və qadınların üzləşdiyi bütün problemlər müzakirə edilmiş, partiya və komsomol təşkilatlarından, sovet orqanlarından bu sahədə fəaliyyətlərində dönüş yaratmaq tələb edilmişdi. Naxçıvan MSSR-də gənc qızlarla işin vəziyyətinə 1935-ci il oktyabrın 5-9-da keçirilmiş gənc qadınların I Ümumazərbaycan qurultayının qərarları da müsbət təsir göstərdi. Qurultayın qərarlarında qızların və gənc qadınların daha qətiyyətlə məsul rəhbər vəzifələrə irəli sürülməsi, onların sənaye, kənd təsərrüfatı işlərinə geniş cəlb edilməsi üçün zəruri şəraitin yaradılması, gənc qadınlar arasında savadsızlığın ləğvi, onların hüquqlarının pozulmasına qarşı kəskin mübarizə aparılması və s. tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu (13, s.9, iş 21, v.16-21). Qurultayda naxçıvanlı gənclər adından müəllimə Səkinə Rzalı çıxış etmiş və Naxçıvan MSSR-də qızlarla işdə olan nöqsanlardan: qızların savadsızlığı, azyaşlı qızların ərə verilməsi, qızlar arasında mədəni tədbirlərin az keçirilməsi, onlarla işləyə biləcək kadrların yoxluğu, Muxtar Respublikada məktəbəqədər tərbiyə müəssisələrinin olmaması kimi faktlardan danışmışdı. S.Rzalı həmin çıxışında göstərmişdi ki, Muxtar Respublika komsomolunda qızların sayı çox aşağıdır və texnikumları bitirən qızlar isə ərə getdikdən sonra işləmirlər (13, s.4, iş 2270, v.4).

Naxçıvan MSSR-də o zaman qadın siyasəti ilə bağlı ən ciddi problemlərdən biri məktəbyaşlı qızların erkən (9-13 yaşlar) ərə verilməsi idi. Xüsusən Ordubad, Əbrəqunis, Naxçıvan rayonlarında bu hallar tez-tez müşahidə olunurdu. Hüquq-mühafizə, maarif orqanlarından, yerli sovetlərdən bu halları üzə çıxarmaq və təqsirkarlara qarşı inzibati cəza tədbirləri görmək tələb olunurdu. O dövrün qəzetlərində öz qızlarını erkən yaşda ərə verən valideynlərin, belə qızlarla evlənən kişilərin adları dərc edilir və onlar ictimai qınaq obyektinə çevrilirdilər. Kiçik qızlarla evlənən partiyaçı və ya komsomolçunu isə daha ağır cəzalar gözləyirdi. Bir sıra hallarda müəllimlər azyaşlı məktəbli qızlarla ailə qururdular. Naxçıvan RKK bürosunun «Qızlar arasında siyasi-tərbiyəvi işin gücləndirilməsi haqqında» qərarı ilə öz tələbəsini alan və təhsildən ayıran müəllimlərin məsuliyyətə cəlb edilməsi ilə bağlı prokurorluq qarşısında məsələ qaldırılmışdı. Eyni məzmunlu qərarlar digər rayon komsomol komitələri tərəfindən də qəbul edilmişdi.

30-cu illərin II yarısında antidin siyasətinin sərtləşməsi dindarlara münasibətdə xüsusilə kobud şəkildə təzahür edirdi. İnsanların dini ayinlərə əməl etməmələri üçün bütün qadağanedici vasitələrdən istifadə edilirdi. Din əleyhinə, çadra ilə mübarizədə sərt metodların tətbiqinə baxmayaraq, bu mübarizənin səmərəsi heç də yüksək deyildi. Muxtar Respublikanın dövlət orqanlarında, ictimai yerlərdə çadrasız gəzmək tələb olunsa da, bu tələbə isə çox riayət olunmurdu. Kənd yerlərində isə mənəvi-dini dəyərlərə qarşı mübarizə daha kəsərsiz idi.

Azərbaycanın gənc qadınları qurultayının qərarları ilə bağlı Naxçıvan MSSR-də komsomol təşkilatlarında xüsusi müşavirələr keçirilmiş, qızlar arasında siyasi-tərbiyə işini gücləndirmək, qadın hüquqlarının pozulmasına qarşı mübarizə aparmaq, gənc qızları rəhbər vəzifələrə daha geniş surətdə irəli çəkmək, qızları ictimai istehsala cəlb etmək, onlardan ixtisaslı kadrlar hazırlamaq, onlara münasibətdə feodal təhkimçilik qalıqlarını aradan qaldırmaq, məktəbyaşlı qızların təhsildən yayınmalarının qarşısını almaq və s. məsələlər geniş müzakirə edilmişdi. Yerli təşkilatlardan qızların komsomola daha geniş cəlb edilməsi üçün onlar arasında siyasi təbliğat, təşviqat işini gücləndirmək tələb edilirdi. Naxçıvanda qız və qadınların hüquqlarının pozulmasına qarşı mübarizədə, onların ictimai və sosial fəallığının artırılmasında Muxtar Respublika qəzetləri xüsusi rol oynayırdı. «Şərq qapısı» və digər qəzetlərdə tez-tez qadınlarla iş sahəsində nöqsanlardan danışılır, partiya, sovet, komsomol orqanlarının fəaliyyəti tənqid edilirdi. 1938-ci ilin dekabrında «Azərbaycan qadını» və «Şərq qapısı» qəzetlərinin qadın oxucularının Naxçıvan şəhərində keçirilmiş müşavirəsində Naxçıvan MSSR-də qadın və qızların qarşılaşdığı problemlər müzakirə olunmuşdu

(119, 1938, 21 dekabr).

Naxçıvan VKK-nin 1938-ci ilin dekabrında keçirilmiş IV plenumunda isə Sədərək, Bənəniyar və Nehrəm kolxozlarında kolxozçu qızlar arasında kütləvi siyasi və tərbiyə işinin vəziyyəti müzakirə edilmiş, məsələ ilə bağlı qərarlar qəbul edilmişdi (119, 1938, 21 dekabr). Bunun üçün birinci növbədə qızlar arasında savadsızlığın ləğvi işi sürətləndirildi. Lakin bütün səylərə baxmayaraq, 1939-cu ilin sonlarında Muxtar Respublikada hələ də 2546 nəfər savadsız və 3500 nəfər azsavadlı qadın var idi (119, 1939, 3 dekabr).

Müharibə ərəfəsində Naxçıavan MSSR-də yüzlərlə qadın rəhbər vəzifələrdə çalışırdı. Onlar arasında sovet sədri, kolxoz sədri, maarif müdirləri var idi. 1940-cı ildə 12 nəfər qadın kənd sovetinin sədri işləyirdi. Bu zaman Xanım Məmmədova kolxoz sədri, Təyibə Məmmədova Ordubad RKK-nin katibi, Əfrus İsmayılova Culfa rayon maarif şöbəsinin müdiri, Ə.Həsənova Naxçıvan MSSR prokurorunun müavini, Tutu Quliyeva «Çapayev» kolxozunun sədri vəzifəsinə irəli çəkilmişdilər. Sonralar Muxtar Respublikanın ictimai-siyasi həyatında mühüm rol oynamış bir çox qadın – Səkinə İsmayılova, Məsumə Nuriyeva, Rübabə Talıbova, Təyyubə Xəlilova, Səkinə Rzayeva, Zeynəb Əsgərova, Səkinə Rzalı məhz 30-cu illərdə ilk dəfə olaraq yüksək vəzifələrə irəli çəkilmişdilər.

20-30-cu illərdə Naxçıvan MSSR-də sənayenin və kənd təsərrüfatının inkişafı, yeni istehsal sahələrinin istifadəyə verilməsi qadın və qızların kütləvi şəkildə istehsala cəlb edilməsinə şərait yaratdı. Muxtar Respublikanın yeyinti, yüngül sənayesində, mədəniyyət və maarif sahəsində qadınların nisbi faizi getdikcə artırdı. Onları ictimai istehsala daha geniş cəlb etmək üçün işə qəbul edilənlər arasında onlara kvota ayrılmışdı.

Bütün bu tədbirlər sayəsində Naxçıvan MSSR-də 30-cu illərdə yeni ziyalı nəslinin formalaşması sürətləndi. 1941-ci ilin əvvəllərinə Muxtar Respublikada 9000-dən çox ali və orta ixtisas təhsilli (onlardan 514 nəfəri ali, 8860 nəfəri orta ixtisas təhsilli) mütəxəssis var idi (82, s.1, iş 214, v.40-41). Əhalinin hər 1000 nəfərinə 1940-cı ildə 13 ali məktəb tələbəsi və 60 orta ixtisas məktəbi tələbəsi düşürdü (103, s.66). 1939-cu ilin əhalinin siyahıyaalınmasının nəticələrinə görə hər 1000 nəfərə 21,3% orta təhsilli və 51% ali təhsilli düşürdü. Bu əslində təhsil sahəsində çox qısa müddətdə əldə edilmiş böyük nəticə idi. Naxçıvan MSSR-də həmin illərdə ali və orta təhsilin inkişafı sahəsində həyata keçirilmiş işlər gələcəkdə yüksək ixtisaslı kadrların hazırlanmasını daha sürətlə aparmaq üçün zəmin yaratdı.

Əlbəttə, 20-30-cu illərdə SSRİ-də formalaşan inzibati-amirlik

sistemi totalitarizm, kütləvi repressiyalar Naxçıvan MSSR-in təhsil və mədəniyyətinə təsirsiz ötüşmədi. Milli adət-ənənələrə, dini dəyərlərə qarşı hücumlar, təhsilin hakim partiyanın ehkamçı ideologiyasına tabe etdirilməsi, mədəniyyətin və təhsilin inkişafına sarsıdıcı zərbə vurmuşdu. Muxtar Respublikanın maarif sisteminin bir çox nümayəndələri siyasi kampaniya və repressiyaların qurbanı oldular.

Lakin belə mürəkkəb şəraitdə belə Naxçıvanın mədəniyyəti, təhsili inkişaf edir, milli-mənəvi mühiti zənginləşirdi. Xalqımızın ulu öndəri Heydər Əliyev bu dövrü səciyyələndirərkən göstərirdi ki, burada (Naxçıvanda – H.C.) çox yüksək səviyyəli məktəblər var idi. Bu məktəbəri də yaradanlar var idi... Naxçıvan mühiti hətta sovet hakimiyyəti qurulandan sonra da – 20-ci, 30-cu illərdə də davam edirdi. Çox milli hissiyatlarla dolu olan bir mühit idi. Mən sizə deyə bilərəm ki, o vaxtlar Naxçıvanda insanlar çox yüksək təhsil alırdılar. Naxçıvanda məktəb çox deyildi, amma məktəbdə verilən dərslər və şagirdlərin dərsləri qavraması çox yüksək səviyyədə idi... Burada çox güclü məktəblər, güclü müəllimlər var idi. Təsadüfi deyil ki, Azərbaycanda elə bu gün də, on il də, iyirmi il də, otuz il də bundan öncə böyük alimlərin, elmlə məşğul olan insanların – akademiklərin, professorların, universitetlərdə dərs verənlərin, yaxud Elmlər Akademiyasında, Elmi-Tədqiqat İnstitutlarında çalışanların çoxu öz həyat yollarını Naxçıvandan başlayıblar. Burada mühit də buna şərait yaradıbdır. Ancaq buradakı məktəblər, ümumiyyətlə məktəb mühiti də buna şərait yaradıbdır (53, s.135-138). Bu sözlər 20-30-cu illərdə Naxçıvanda maarifin inkişafını təsdiq edən ən tutarlı sübutlardır.

NAXÇIVAN TƏHSİLİ 1940-1960-CI İLLƏRDƏ

1941-1945-ci illər müharibəsi Muxtar Respublikanın bütün sahələrində olduğu kimi, maarif sistemini də ciddi sınaqlar qarşısında qoydu. Müharibənin ağırlıqları təhsil müəssisələrinin pedaqoji kadr potensialına, maddi-texniki bazasına, təlimin və tərbiyənin keyfiyyətinə ciddi təsir göstərdi. Əgər 1940-1941-ci tədris ilində Naxçıvan Muxtar Respublikası üzrə 196 ümumtəhsil məktəbində 30458 nəfər şagird təhsil alırdısa, 1941-1942-ci tədris ilində məktəblərin sayı 153-ə, şagirdlərin sayı isə 18850 nəfərə qədər azalmışdı. Bu hər şeydən əvvəl, müharibənin tələblərinə uyğun olaraq yuxarı sinif şagirdlərinin istehsala, kənd təsərrüfatına geniş cəlb edilməsi ilə əlaqədar idi. Müharibə ilə əlaqədar xalq təhsilinə ayrılan dövlət maliyyə vəsaitlərin həcminin kəskin surətdə azalması onun maddi-texniki bazasının zəifləməsinə gətirib çıxardı.

Muxtar Respublikanın maarif sistemində müharibə ilə əlaqədar yaranmış ən ciddi problem kişi müəllimlərin cəbhəyə getməsi ilə onların sayının kəskin surətdə azalması idi. Onların yerini doldurmaq üçün məktəblərdə dərslərin tədrisi qeyri-ixtisas müəllimlərinə, orta təhsillilərə həvalə edilmiş, qadın müəllimlərin sayını artırmaq üçün Naxçıvan Müəllimlər İnstitutuna, Ordubad Pedaqoji Texnikumuna tələbələrin, o cümlədən qızların sayı artırılmış, Naxçıvan şəhərində qadın pedaqoji kursları təşkil edilmişdi. Müəllimlərə olan ehtiyacı nəzərə alaraq Naxçıvan MSSR Maarif Komissarlığı pedaqoji ixtisası olmayan gəncləri, hətta yenicə orta məktəbi bitirmiş qızları tədrisə cəlb etmək haqqında qərar qəbul etməli olmuşdu. Müəllim qıtlılığının digər səbəblərindən biri də müəllimlərin digər sahələrdə, idarəetmə strukturlarında məşğul olmaları idi. Bu Muxtar Respublikada ali təhsillilərin, ziyalıların əksəriyyətinin pedaqoji təhsilli olması ilə əlaqədar idi. Müəllimlərin məktəbə qayıtmasının zəruriliyini başa düşən Azərbaycan KM MK və XKS 1943-cü ilin fevralında başqa sahələrdə işləyən və ixtisasca pedaqoq olan kadrların məktəblərə qaytarılması haqqında qərar qəbul etdi. 1943-cü ildə Muxtar Respublikada 848 nəfər müəllim işləyirdi ki, onların da əksəriyyəti qadın idi. 1944-cü ildə cəbhədəki vəziyyətin SSRİ-nin xeyrinə dəyişməsi orduya çağrılmış müəllimlərin bir hissəsini tərxis etməyə imkan yaratdı. Müharibənin ehtiyacları üçün alınmış məktəb binaları geri qaytarıldı. Bu isə öz növbəsində məktəblərin sayının artmasına gətirib çıxardı. Ümumiyyətlə, müharibə dövründə 180 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi ki, onlardan 36-cı orta məktəb idi (müharibə ərəfəsində orta məktəblərin sayı 27 idi – H.C.). Bundan əlavə Muxtar

Respublikada 3 texnikum, Müəllimlər İnstitutu, 87 uşaq bağçası (onlardan 60-ı kolxozlarda) pioner düşərgələri, 2 dövlət teatrı, 6 kino-teatr, 101 klub müəssisəsi, 32 Qırmızı guşə və park fəaliyyət göstərirdi (49, 1945, 30 aprel).

Müharibə Naxçıvan Müəllimlər İnstitutunun fəaliyyətinə də ciddi təsir göstəridi. Müharibə başlayan ilk günlərdən institutun müəllim və tələbələrin xeyli hissəsi səfərbər olunaraq cəbhəyə göndərildi. Onların əksəriyyəti öz döyüş hünərləri ilə Naxçıvan gənclərinin layiqli nümayəndələri olduqlarını sübut etdilər. Naxçıvan Müəllimlər İnstitutunun tələbələrindən və məzunlarından 3 nəfəri – Abbas Quliyev, Nəcəfqulu Rəfiyev və Qəzənfər Əkbərov göstərdikləri şücaət və qəhrəmanlığa görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, Əli Babayev, Kamil Qafarov, Həbib Rzayev, Sultan Zeynalov, Əsgər Əhmədov və başqaları igidliklərinə görə ali hərbi orden və medallarla təltif olunmuşdular.

Müəllim və tələbəlrin cəbhəyə göndərilməsi institutun təlim-tədris prosesində müəyyən çətinliklər yaratsa da, mövcud imkanların maksimum səfərbər edilməsi hesabına təhsil ocağı öz potensialını qoruyub saxlaya bilmişdi. Müharibə zamanı institutun qəbul planı ciddi kəsirlə yerinə yetirilmiş, qəbul olunanların xeyli hissəsi də müxtəlif obyektiv səbəblərdən institutu bitirə bilməmişdi. Müharibə dövründə (1942-1945-ci illərdə) institutun əyani şöbəsini 103 nəfər bitirmiş və pedaqoji fəaliyyətə başlamışdılar (61, s.34).

İnstitutun tələbə kontingenti ilə bağlı problemləri aradan qaldırmaq məqsədilə bütün ölkə ali məktəblərində olduğu kimi Naxçıvan Müəllimlər İnstitutunda qiyabi təhsil forması genişləndirilmiş, 1943-1944-cü tədris ilində instituta 42, 1944-1945-ci tədris ilində 86, 1945-1946-cı tədris ilində 147 nəfər tələbə qəbul edilmişdi (61, s.34). İnstitutda mövcud imkanlar səviyyəsində elmi-tədqiqat və tədris-metodiki işlər aparılır, tələbə və müəllimlər partiya və komsomol orqanlarının siyasi-maarif və təbliğat sistemində yaxından iştirak edirdilər. Obyektiv çətinliklərə baxmayaraq, institutda tədrisin keyfiyyətinin, tələbələrin dərslərin mənimsəmə səviyyəsinin artırılması onların mədəni-məişət problemlərinin həlli üçün lazımi tədbirlər görülürdü. Lakin müəllim kadrlara olan ehtiyaca baxmayaraq tələbələrin biliklərinin qiymətləndirilməsində obyektivlik və prinsiplilik göstərilir, formalizmə, diplom almaq xatrinə, keyfiyyətin kəmiyyətə qurban verilməsinə qətiyyən yol verilmirdi. Məsələn, institutun 1944-1945-ci tədris ilindəki fəaliyyətinə aid sənəddən məlum olur ki, institutdan getmiş 35 nəfər tələbədən 26-nın akademik borcu olmuş, 2 nəfər intizamsızlıq etdiyinə, 6 nəfər isə özbaşınalıq etdiyinə görə təhsil ocağından qovulmuşdu. Bütün bunlar institutun yüksək

səviyyəli, vətənpərvər, əzmkar müəllimlərin sayəsində əldə edilmişdi. Müharibənin ağır şərtlərinə baxmayaraq, tələbələrin yüksək savad alması üçün bilik və bacarıqlarını əsirgəmirdilər. Naxçıvan Müəllimlər İnstitutunun 4 nəfər müəllimi (Həsən Qazıyev, Nəsir Məmmədov, Əsəd Cəfərli və Abbas Əsgərov) əməkdar müəllim adını almaları, təkcə onların özlərinin deyil, bütün institutun fəaliyyətinə verilən qiymətin təzahürü hesab edilməlidir.

Müharibə dövründə Naxçıvan Müəllimlər İnstitutunda Muxtar Respublikanın ən görkəmli və yüksək ixtisaslı müəllimləri – Murad Tutayuk, Həsən Salayev, Əsəd Cəfərli, İbrahimxəlil Axundov, Abbas Əsgərov, Həsən Qazıyev, Cəfər İmanov, Tofiq Bektaşi, Əbülfəz Həsənov, Həsən Səfərli, Müzəffər Nəsirli, Xəlil Əliyev, Əli Əliyev, Lətif Hüseynzadə tələbələrə elmin əsaslarını öyrətmişlər. İnstitutun kadr potensialının formalaşmasınada, tədris-təlim prosesinin yüksək səviyyədə təşkil olunmasında institutun direktoru işləmiş Əsgər Əhmədovun (1939-1941-ci illər), Əli Hüseynovun (1942-ci il), Nəsir Məmmədovun (1943-1944-cü illər), Cəfər İmanovun (1945-1946-cı illər), müharibədən sonra instituta rəhbərlik etmiş Həsənağa Əbdiyevin (1946-1950-ci illər), Əbülfəz Həsənovun (1951-1952-ci illər), Lətif Hüseynzadənin (1952-1953-cü illər) və Süleyman Süleymanovun böyük xidmətləri olmuşdu.

Müharibədən sonrakı beşillikdə, eləcə də 50-60-cı illərdə iqtisadiyyatın bərpası, təsərrüfat və mədəni quruculuqda, sosial inkişaf planlarının yerinə yetirilməsində əldə edilmiş nəticələr Naxçıvan MSSR-də maarifin inkişafına öz təsirini göstərdi.

Göstərilən dövrdə Muxtar Respublikanın sosial-iqtisadi və mədəni inkişafında, ictimai-siyasi həyatında ciddi keyfiyyət dəyişiklikləri baş verdi. Bütün sənayenin ümumi məhsulu 1940-cı ilə nisbətən 1950-ci ildə 144%, 1953-cü ildə 241%, 1960-cı ildə 285%, 1963-cü ildə isə 290%, elektrik energisi, 1940-cı illə müqayisədə 1960-cı ildə 10,9% dəfə, 1963-cü ildə isə 136 dəfə artdı (101, s.23). Kənd təsərrüfatında da ciddi dəyişikliklər baş vermiş, taxıl istehsalı 1953-cü ilə nisbətən 1963-cü ildə 96,1%, pambıq 56,6%, süd istehsalı 119,9%, ət tədarükü 93,4% artdı (101, s.25). 1950-1960-cı illərdə sənayenin yerləşməsində xeyli irəliləyişlər baş verdi. Naxçıvan və Ordubad şəhərlərindən başqa Şərur, Culfa, Şahbuz rayonlarında da yeni sənaye obyektləri inkişaf etməyə başladı.

Əsasən inzibati metodların tətbiqi sayəsində sosial-iqtisadi inkişaf da əldə edilmiş nəticələr hakim rejimə cəmiyyətdə öz mənəvi-ideoloji dayaqlarını möhkəmləndirməyə imkan verdi. Bunun üçün ən əlverişli vasitə olan ictimai şüurun formaları – təhsil, mədəniyyət, din üzərində kommünist ideologiyasının hökmranlığını təmin etmək idi. Bu vəzifələri həyata keçirmək üçün hakimiyyət ilk növbədə məktəb şəbəkəsini bərpa və

inkişaf etdirmək, gənclərin icbari yeddiillik, səkkizillik və orta təhsilini təmin etmək, ali və orta ixtisaslı kadrlar hazırlığını artırmaq, elm və mədəniyyəti inkişaf etdirmək, mədəni-maarif müəssisələri şəbəkəsini genişləndirmək kimi vəzifələri həll etməli idi. Bu vəzifələrin həllinə Naxçıvan MSSR-də də xüsusi diqqət yetirilirdi.

Təhsilin inkişafını təmin edən mühüm amillərdən biri bu sahəyə ayrılan dövlət vəsaitlərinin ilbəil artması idi. Məsələn, 1945-ci ildə Naxçıvan MSSR-in yerli büdcəsi üzrə maarif xərcləri 1585 min manat təşkil etmişdi, 1950-ci ildə bu rəqəm 2678,5 min manat, 1960-cı ildə 3844,7 min manat, 1963-cü ildə isə 5843,8 min manat təşkil etmiş və ya 3,7 dəfə artırılmışdı (101, s.123). Təhsilə ayrılan dövlət vəsaitinin əsas hissəsi yeni məktəb binalarının tikintisinə, əmək haqlarının artırılmasına, tədris müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə, məktəblər üçün yeni avadanlıq və tədris ləvazimatı, dərslik və dərs vəsaitlərinin alınmasına xərclənirdi. Bu sahəyə ayrılan büdcə vəsaitlərinin ilbəil artırılmasına baxmayaraq, Muxtar Respublikanın məktəblərinin müasir avadanlıq və dərs vəsaitləri ilə təminatı hələ də müasir tələblər səviyyəsində deyildi.

1946-1961-ci illərdə Muxtar Respublikada ümumtəhsil məktəblərinin şəbəkəsi genişlənmiş, onların strukturunda mühüm dəyişikliklər baş vermişdi. Əgər 1945-1946-cı tədris ilində Muxtar Respublikada 176 ümumtəhsil məktəbi var idisə (fəhlə, kəndli-gənclər məktəbləri və yaşlılar məktəblərindən başqa; məktəblərin 10-u şəhərdə, 166-sı kənddə yerləşirdi), 1950-1951-ci tədris ilində onların sayı 185 (12 və 173), 1960-1961-ci tədris ilində 198 (18 və 180) təşkil etmişdi. Bu illərdə məktəblərdə şagird kontingenti də xeyli artmışdı. 1945-1946-cı tədris ilində Muxtar Respublikanın ümumtəhsil məktəblərində təhsil alanların sayı 25093 nəfər, 1963-1964-cü tədris ilində isə 36142 nəfərə çatmışdı (101, s.114). Deməli, 1945-1946-cı tədris ili ilə müqayisədə 1963-1964-cü tədris ilində şagirdlərin sayı 1,7 dəfə artmışdı. Ümumtəhsil məktəblərinin strukturunda 1945-1946-cı illərdə ibtidai məktəblərin sayı 70, yeddillik və səkkizillik məktəblərin sayı 77, orta məktəblərin sayı 29 idisə, sonrakı illərdə bu nisbətdə orta məktəblərin sayı yüksələn xətlə artmağa doğru gedirdi. 1950-1951-ci tədris ilində onların sayı müvafiq olaraq 79, 75 və 31, 1963-1964-cü tədris ilində isə 75, 77 və 46 təşkil etmişdi. Müvafiq olaraq şagirdlərin məktəblər üzrə sayı da dəyişməyə başlamışdı (101, s.113-114). Həmin dövrdə Muxtar Respublika ümumtəhsil məktəblərinin yüksək ixtisaslı pedaqoji kadrlarla təmin edilməsi xeyli yüksəlmiş, müəllimlərin tərkibində mühüm kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermişdi. Əgər 1945-1946-cı tədris ilində Muxtar Respublikada ümumtəhsil məktəblərində cəmi 936 nəfər müəllim var idisə, 1950-1951-ci

tədris ilində onların sayı 1255 nəfərə, 1961-1962-ci tədris ilində 2018 nəfərə, 1963-1964-cü tədris ilində isə 2398 nəfərə çatmışdı və ya 2,6 dəfə artmışdı (101, s.111).

Müəllimlərin ümumi sayında ali təhsillilər 1948-1949-cu tədris ilində cəmi 7,3 % təşkil edirdi (51, s.168). Sonrakı illərdə bu göstərici xeyli yaxşılaşmış, 1959-cu ildə Muxtar Respublikanın 1948 nəfər müəllimindən 509 nəfəri ali təhsilli (25,6%), 1965-ci ildə 2498 nəfər müəllimdən 582 nəfəri (23,3%), 1970-ci ildə 3120 nəfər müəllimdən isə 1303 nəfəri (41,7%) ali təhsilli idi. Həmin illərdə natamam ali təhsilli müəllimlər müvafiq olaraq 1959-cu ildə 615, orta pedaqoji təhsillilər 446, orta təhsillilər 88 nəfər, 1965-ci ildə müvafiq olaraq 702, 735, 79 nəfər, 1970-ci ildə isə 652, 1120, 2 nəfər təşkil edirdi (101, s.114; 122, s.115).

Naxçıvan şəhər 1 saylı orta məktəbin bir qrup müəllim və şagirdləri (1959-cu il)

40-cı illərin ikinci yarısı – 50-ci illərdə Muxtar Respublikada məktəblərin pedaqoji kadrlarla təmin edilməsində ciddi problemlər qalmaqda idi. Məktəblərdə çalışan müəllimlərin əksəriyyətinin ali pedaqoji təhsili yox idi, onların metodiki hazırlığında ciddi qüsurlar var idi. Buna görə də bütün respublikada olduğu kimi, Muxtar Respublikada da müəllimlərin qiyabi yolla ali təhsil alması praktikası yayılmışdı. 1948-ci

ildə Azərbaycan Qiyabi Pedaqoji İnstitutunda Muxtar Respublikadan 52 nəfər müəllim oxuyurdu. Lakin onların dərs planlarını yerinə yetirmə faizi çox aşağı olub, cəmi 36,5% təşkil edirdi (102, s.4-5). 1961-ci ildə Sov. İKP MK-nın «Ümumtəhsil məktəblərin müəllim kadrlarla təmin edilməsi tədbirləri haqqında» qərarı bu sahədə müəyyən dönüş yaratdı. Azərbaycan rəhbərliyinin göstərişi ilə respublika Maarif Nazirliyi Naxçıvan MSSR-in kənd rayonlarında uzunmüddətli pedaqoji praktika keçmək üçün pedaqoji institutların 500 nəfər yuxarı kurs tələbəsini Muxtar Respublikaya göndərdi. Yeddiillikdə və səkkizinci beşillikdə Muxtar Respublikanın məktəblərinə respublikanın pedaqoji institutlarının 756 nəfər məzunu işə göndərildi.

40-cı illərdə Naxçıvan Muxtar Respublikası müəllimlərinin 70 faizini Ordubad Pedaqoji Texnikumu və Naxçıvan Müəllimlər İnstitutunun müəllimləri təşkil edirdi (126, s.47). Bu illərdə xalq maarifinin inkişafında əhalinin ümumi təhsil səviyyəsinin artmasında ümumicbari yeddiillik və orta onillik təhsilin həyata keçirilməsi mühüm rol oynadı. Belə ki, 1949-cu ildən etibarən Muxtar Respublikada ümumicbari yeddiillik, 1959-cu ildən başlayaraq səkkizillik, 1966-cı ildən isə orta təhsil (on illik) həyata keçirilməyə başlanmışdı. 1969-1970-ci tədris ilində üçillik ibtidai təhsilə keçirildi. Şagirdlərin dərs mənimsəmə faizi də xeyli yüksəlmişdi.

60-cı illərin ikinci yarısında maarif müəssisələrinin maddi-texniki bazasının artırılması sahəsində ciddi addımlar atıldı. 1966-1970-ci illərdə maarifin ehtiyaclarına 40,9 mln. manat ayrıldı ki, bu da 1942-ci ilə nisbətən 10 dəfə çox idi. Həmin illərdə kapital qoyuluşu hesabına 4300 yerlik 5 yeni məktəb tikilmiş, 4780 yerlik 26 məktəb təmir edilmiş, kolxozların hesabına 2900 yerlik 40 məktəb binası tikilmişdi. Şahbuz rayonunda 36 sinif otağı, 4 məktəb binası, Culfa rayonunda 22 sinif otağı və 2 şagird emalatxanası, Ordubad rayonunda isə 50 sinif otağı və 4 məktəb binası tikilmişdi. Digər mənbələr hesabına 12500 şagird yerlik 500 sinif otağı, emalatxanalar və yardımçı binalar tikilmişdi. Bütövlükdə 1959-1965-ci illərdə 7750 şagird yerlik 35 məktəb binası, 18840 şagird yerlik 628 sinif otağı, 1966-1970-ci illərdə isə 13420 şagird yerlik 43 məktəb, 16410 yerlik 547 sinif otağı tikilmişdi (131, s.13-14). Ümumtəhsil məktəbləri tədris ləvazimatları və avadanlıqları, tikinti vəsaitləri ilə təmin olunmuşdular.

Gənclərin istehsalatdan ayrılmadan təhsil almalarında fəhlə və kəndli –gənclər məktəblərinin, habelə qiyabi məktəblərin (yaşlılar məktəblərinin) roluna xüsusi diqqət yetirilirdi.

Naxçıvan şəhər Ü.Hacıbəyov adına 1 saylı orta məktəbin Dövlət imtahan komissiyasının sədri Adilə Mirişli ədəbiyyat fənnindən yazılı imtahan vaxtı (1963-cü il)

Bu dövrdə Muxtar Respublikada bu tip məktəblərin geniş şəbəkəsi yaradılmışdı. 1951-1952-ci tədris ilində 46 belə məktəbdə 1010 şagird, 1960-1961-ci tədris ilində 38 məktəbdə 1611, 1962-1963-cü tədris ilində 55 məktəbdə 2295 nəfər təhsil alırdı (101, s.111). İstehsalda çalışan gəncləri ümumtəhsil məktəblərinə cəlb etmək üçün sonrakı dövrlərdə də müəyyən addımlar atılırdı. 1970-ci ildə 41 bu tip məktəblərdə təhsil alanların sayı 1970-ci ildə 3 min 238 nəfərə çatdırılmışdı (103, s.61).

Göstərilən dövrdə Muxtar Respublikada politexnik təhsil sahəsində də tədbirlər görülürdü. Bütün səkkizillik və onillik məktəblərdə çilingərlik, xarratlıq və tikiş emalatxanaları yaradılmış və onlar texniki avadanlıqlarla təchiz edilmişdi. 1964-cü ildə Muxtar Respublikada minlərlə şagirdi əhatə edən 32 briqada və 105 manqa var idi (101, s.96).

60-cı illərdə ümumi orta təhsilə keçidin daha perspektivli forması kimi peşə-texniki məktəblərin əsası qoyuldu və Naxçıvan şəhərində peşə-texniki məktəblər fəaliyyətə başladı. 1970-ci ildə burada 1000 nəfərə yaxın şagird peşə təhsili və orta təhsil alırdı.

Dövrün ruhuna uyğun olaraq rus dilinin tədrisinin

genişləndirilməsi və yaxşılaşdırılmasına xüsusi diqqət yetirilirdi. Bu sahədə əsas problem isə ixtisaslı müəllim kadrlarının çatışmaması idi. Rəsmi məlumata görə, 1948-ci ildə Muxtar Respublikanın 180 məktəbinin yalnız 30-da rus dilini orta səviyyədə tədris edən müəllim var idi (102, s.6). Bu problemi həll etmək üçün hələ 1940-ci ildə Naxçıvan şəhərində səkkiz aylıq müəllimlər kursu açılmış və sonralar Naxçıvan Dövlət Müəllimlər İnstitutunda rus dili fakültəsi də təşkil edilmişdi. Lakin praktik ünsiyyət şəraitinin olmaması ucbatından onların çoxu rus dilində danışa bilmirdilər. Vəziyyətdən çıxış yolu kimi Bakının rus dili fakültələrini bitirmiş məzunlar, hətta Rusiyanın müxtəlif şəhərlərindən müəllimlər respublikaya təyinatla göndərilirdilər.

Naxçıvan Muxtar Respublikasında 1950-ci ildə 20 uşaq bağçasında 350 nəfər uşağın tərbiyəsi ilə 40 nəfər tərbiyəçi məşğul olurdu, 1952-ci ildə belə tərbiyə müəssisələrinin sayı 22-ə, oradakı uşaqların sayı 596-ya, tərbiyəçilərin sayı isə 57 nəfərə çatmışdı. 1963-cü ildə 27 bağçada 993 uşaq tərbiyə alırdı, tərbiyəçilərin sayı isə 87 nəfər idi (101, s.136). 1970-ci ildə uşaq müəssisələrinin sayı 65 (onların 40-ı kənd yerlərində), orada tərbiyə alan uşaqların sayı isə iki dəfədən çox artaraq 2531-ə çatmışdı (103, s.63). Eyni zamanda mərkəzi pioner və məktəblilər evi, müəllimlər evi, pioner evi, gənc texniklər stansiyası, uşaq parkı və s. fəaliyyətə başlamışdı.

İmkansız ailələrdən olan uşaqların təlim-tərbiyəsini və təhsil almaq imkanlarını genişləndirmək üçün 1958-ci ildə Ordubadda, 1959-cu ildə Şahbuzda internat məktəbləri açıldı. Artıq 1963-1964-cü tədris ilində onlarda 525 şagird oxuyurdu ki, bu da əvvəlki tədris ilindən 215 nəfər çox idi. Ehtiyacı olan uşaqlara yardım üçün 31600 manat icbari təhsil fondu ayrılmışdı (18).

Xalq təhsilinin inkişafında, böyüməkdə olan nəslin tərbiyə edilməsində müəllim böyük rol oynayırdı. 1963-1964-cü tədris ilində məktəblərdə 2337 nəfər müəllim işləyirdi ki, bunların 610 nəfəri qadın idi. Ümumtəhsil məktəblərində oxuyan 36142 nəfər şagirdin 16681 nəfəri qız idi. 1970-ci ildə 210 ümumtəhsil məktəbindən 52-si ibtidai, 85-i əsas, 73-ü orta məktəb idi. Orada oxuyan şagirdlərin sayı isə 59059 nəfər təşkil edirdi. Onların təlim-tərbiyəsi ilə 3120 nəfər müəllim məşğul olurdu (103, s.63).

Uzunmüddətli səmərəli fəaliyyətinə görə 1963-cü ilə qədər 93 nəfər müəllim Azərbaycan SSR və Naxçıvan MSSR əməkdar müəllimi fəxri adı daşıyırdı ki, onlardan 22 nəfəri qadın idi (100, s.95). Naxçıvan MSSR-nin 40 illiyi ilə əlaqədar 1964-cü ildə daha bir neçə müəllim (Ş.Əkbərova, İ.Məmmədov, Q.Fərzəliyev) Azərbaycan SSR əməkdar müəllimi, A.Abbasov, M.Axundov, Ə.Hacıyev, B.Novruzova, K.Səfərova,

X.Əliyarov Naxçıvan MSSR əməkdar müəllimi adı almış, bir neçə müəllim isə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin Fəxri Fərmanları ilə təltif olunmuşdular. Onların arasında Z.Qədimova, Q.Qasımov, Ş.Quliyeva, A.Kopiçeva, Y.Axundov, A.Qurbanov, Ə.Əliyev, Ə.Məmmədov, İ.Maqsudov, N.Bağırov, B.İsmayılov, Ə.Həsənov, H.Qasımov, Q.Quliyev, X.Haqverdiyev və başqaları var idi (5, 1964, 15 oktyabr). Naxçıvan MSSR-də o dövrdə M.Tutayuk, M.Mirişli, A.Mirişli, M.Mehdiyev, L.Kələntərli, F.Ələkbərova, Ə.Süleymanov, N.Qafarova kimi təcrübəli müəllimlərlə yanaşı, nisbətən orta və gənc nəslə mənsub pedaqoqlar da Muxtar Respublikada maarifin inkişaf etdirilməsində öz xidmətlərini göstərirdilər. Xalq maarifinin və təhsilinin idarə edilməsində Ə.Yusifzadə, A.Abbasov, H.Salayev, A.Quliyev, A.Hüseynov, M.Həsənov, H.Muradova, Q.Əliyev, Ş.Kərimova kimi öz işini dərindən bilən təcrübəli müəllimlər iştirak edirdilər.

1967-ci ildə Naxçıvan MSSR «Təsərrüfat quruculuğunda və mədəni quruculuqda əldə etdiyi nailiyyətlərə görə» İdris Salmanov, Ramazan Əliyev, Leyla Osmanova, Mehdi Mehdiyev, Həbib Seyidov o dövrün ən yüksək mükafatı olan Lenin ordeni ilə təltif olundu.

Müharibədən sonrakı dövrdə Naxçıvan MR-nın ibtidai, natamam orta və orta məktəblərinə pedaqoji kadrlara olan kəskin ehtiyacının ödənilməsində C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutu da çox mühüm rol oynadı. İnstitutu bitirmiş məzunların əksəriyyəti Muxtar Respublikanın kəndlərində pedaqoji fəaliyyətə başlamış, ictimai-siyasi həyatda fəal iştirak etmişlər. Müəllimlər İnstitutunu əyani bitirən məzunlarla yanaşı, 1944-cü ildə institutun qiyabi şöbəsinin də fəaliyyətə başlaması məktəblərdə çalışan orta və natamam orta təhsilli müəllimlərin öz təhsilini davam etdirmələrinə şərait yaratdı. Bu isə öz növbəsində məktəblərin kadr problemlərini aradan qaldırmağa kömək etdi. V.Məmmədovun hesablamalarına görə institut mövcud olduğu dövrdə 1159 nəfər (onlardan 381 nəfəri qadın idi) bitirmişdir (61, s.103). Naxçıvan Müəllimlər İnstitutunun məzunlarının bir çoxu sonralar öz təhsillərini Azərbaycanın ali məktəblərində davam etdirmiş, onların arasından Azərbaycanın görkəmli elm və mədəniyyət nümayəndələri, ictimai-siyasi və dövlət xadimləri çıxmışdır. Qısa müddətli fəaliyyətinə (1939-1954-cü illər) baxmayaraq Naxçıvan Müəllimlər İnstitutu Azərbaycanda və Naxçıvanda ictimai-siyasi fikrin, maarifin və mədəniyyətin inkişafında mühüm rol oynamış, onun yetirmələri xalqımızın bir neçə nəslinin tərbiyəsində və maariflənməsində xidmətlər göstərmişlər.

Təqribən 16 il ərzində (1956-1971-ci illər) Naxçıvan MSSR məktəblərinin ali ixtisaslı müəllimlərlə təmin edilməsi Azərbaycanın ali məktəblərinin əyani və qiyabi şöbələrini bitirmiş məzunlar hesabına nail

olunurdu.

Muxtar Respublikanın özündə müəllim kadrlarının hazılanması üçün Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Naxçıvan şəhərində 1954-1955-ci tədris ilindən Pedaqoji məktəb yenidən fəaliyyətə başlamışdı. 1965-1972-ci illərdə buranı 570 nəfər ibtidai təhsil müəllimi, 60 nəfər bədən tərbiyəsi müəllimi, 90 nəfər məktəbəqədər tərbiyəçi qurtarmışdı (77, s.1, iş 1096, v.99).

Bəhs olunan dövrdə müəllim kadrlarının peşə hazırlığının artırılmasına da diqqət yetirilirdi. Azərbaycan SSR Nazirlər Sovetinin 339 saylı 21 may 1963-cü il tarixli qərarına əsasən 1 iyun 1963-cü il tarixdən Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan şəhərində Naxçıvan MSSR Maarif Nazirliyinin metod-kabineti bazası nəzdində filialı açıldı (77, s.2, iş 156, v.81). Bu qərar əsasında Naxçıvan MSSR Nazirlər Sovetinin 28 iyun 1963-cü il tarixli müvafiq qərarı qəbul edildi (78, s.1, iş 1033. v. 48). Lakin filial mövcud ehtiyacı tam ödəmirdi. Buna görə də filial əsasında müstəqil institut yaradılması məsələsi ortaya çıxmışdı. Azərbaycan SSR Nazirlər Sovetinin 08 aprel 1965-ci il 229 nömrəli tarixli qərarı ilə Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutunun Naxçıvan filialının müstəqil instituta çevrilməsini nəzərə alan (78, s.6, iş 552, v.149) Naxçıvan MSSR Maarif Nazirliyi 3 may 1965-ci il 149 saylı əmri ilə Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutunun Naxçıvan filialının ştat vahidlərini saxlamaqla müstəqil olaraq Naxçıvan Müəllimləri Təkmilləşdirmə İnstitutuna çevrilməsini rəsmiləşdirir (77, s.2, iş 152, s.74). Yarandığı gündən metodik mərkəz və filial kimi fəaliyyət göstərərək müstəqil instituta çevrilmiş Naxçıvan Müəllimləri Təkmilləşdirmə İnstitutunda ayrı-ayrı fənn kabinələri təşkil edildi. Təkcə 1970-1971-ci tədris ilində Naxçıvan Müəllimləri Təkmilləşdirmə İnstitutunda 1125 müəllim təkmilləşmə kursu keçmişdi. Müəllimləri ixtisaslarının artırılması üçün onlar Bakıya və digər şəhərlərə ixtisasartırma kurslarına göndərilirdilər (77, s.97, iş 77, v.239).

Naxçıvanda məktəb sisteminin inkişafı, məktəblərin və şagird kontingentinin artması ixtisaslı müəllim kadrlara ehtiyacı daha da artırdı. Naxçıvan ziyalıları, alimləri mütəmadi olaraq mətbuat səhifələrində səlahiyyətli orqanlar qarşısında rejionda ali pedaqoji təhsil ocağının açılması məsələsini qaldırırdılar. Nəhayət, 1967-ci ilin iyulunda Naxçıvan şəhərində keçmiş 1 nömrəli məktəbin binasında 3 ştat vahidi olmaqla (direktor, tədris işləri üzrə direktor müavini və metodist) Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı öz fəaliyyətinə başladı. Bu vəzifələrə müvafiq olaraq Əli Əliyev, Yavuz Axundov və Mahmud Mahmudov təyin olunmuşdular. Filialın ilk müəllimləri İbrahim Mollayev (pedaqogika-psixologiya), İzzət Maqsudov (ədəbiyyat), Firuz

Rəhimov, Allahverdi Hüseynov (ümumi tarix), İbrahim Hüseynov (Sov. İKP tarixi), Eli Həşimov (riyaziyyat) oldular. Sonralar Müzəffər Nəsirli, Qasım Qasımov, Möhsün Möhsünov, İbrahim Bağırov, İsmayıl Zeynalov, Zenfira Əhmədova, Nəriman Orucəliyev filiala saathesabı müəllim kimi dəvət olundular. İlk tədris ilində üç ixtisas – dil-ədəbiyyat, tarix və riyaziyyat ixtisasları üzrə müəllim hazırlığına başlayan filial sonralar ibtidai təhsil, coğrafiya və digər pedaqoji ixtisaslar üzrə müəllim kadrları hazırlanmağa başlandı.



Naxçıvanda ali məktəb ilk dəfə bu binada fəaliyyətə başlamışdır (1967-ci il)

1971-ci ildə filialın ilk buraxılışı oldu. Ümumiyyətlə isə 1971-1990-cı illərdə bu institutu 8247 nəfər məzun (5529 əyani, 2718 qiyabi təhsil üzrə) bitirmişdi. Filial kimi fəaliyyətə başladığı ilk dövrdə tədris ocağında bir sıra fənləri tədris etmək üçün Bakı şəhərindəki ali məktəblərdən müəllimlər dəvət olunurdu, filialın özündə isə cəmi 3 nəfər elmlər namizədi və 1 nəfər dosent işləyirdi.

Muxtar Respublikada texnikumların və digər orta ixtisas məktəblərin şəbəkəsi genişlənir və təkmilləşirdi. Əgər 1946-cı ildə burada fəaliyyət göstərən 3 texnikum və orta ixtisas məktəbində 649 nəfər təhsillə

əhatə olunmuşdusa, sonralar orta təhsilli mütəxəssislərin hazırlanmasıda yenmələr və qalxmalar müşahidə olunmağa başlamışdı. 1960-1961-ci ildə 2 texnikumda cəmi 284 nəfər tələbə oxuyurdusa, 1970-ci ildə 3 orta ixtisas məktəbində artıq 1070 nəfər tələbə təhsil alırdı (101, s.117; 103, s.66). 1946-1960-cı illərdə bu təhsil müəssisələrində 1947 nəfər orta ixtisaslı mütəxəssis hazırlanmışdı.

Nəticədə Muxtar Respublikada ali və orta ixtisas təhsilli insanların sayı getdikcə artmağa başlamışdı. 1963-cü ildə Naxçıvan MSSR-də 2312 nəfər ali təhsilli (onlardan 539 nəfəri (23%) qadın), 2512 nəfəri orta ixtisas təhsilli (onlardan 739 nəfəri (28%) qadın) adam var idi. Kənd təsərrüfat mütəxəssislərinin sayı da artaraq həmin ildə 580-a çatmış, onların 163 nəfəri ali, 417 nəfərinin orta xüsusi təhsili var idi. Ali təhsilli mütəxəssislərin 88,7% -ni azərbaycanlılar təşkil edirdi (101, s.103). Əgər 1939-cu ildə 10 yaşdan yuxarı hər 1000 nəfərə 4 ali və 70 orta ixtisas təhsilli düşürdüsə, 1959-cu ildə bu rəqəm 15 və 39, 1970-ci ildə 27 və 47 təşkil etmişdi (103, s.55). 1970-ci ilin siyahıyaalınması göstəricilərinə görə Naxçıvan MSSR-nin 10 yaşdan yuxarı əhalisinin 131337 nəfər (onlardan 62340 nəfəri kişi, 68997 nəfəri qadın), 3517 nəfəri ali (2840 nəfəri kişi, 677 nəfəri qadın), 1275 nəfər natamam ali (onlardan 922 nəfəri kişi, 353 nəfəri qadın), 6182 nəfər orta ixtisas (onlardan 3990 nəfəri kişi, 2192 nəfəri qadın), orta ümumi 18664 nəfər (onlardan 12047 nəfəri kişi, 6617 nəfəri qadın), natamam orta 28909 nəfər (onlardan 13610 nəfəri kişi, 15299 nəfəri qadın) və ibtidai təhsilli 37149 nəfər (onlardan 16323 nəfəri kişi, 20826 nəfəri qadın) var idi (133, s.108-109).

Şəhərlər və kəndlər arasında əhalinin təhsil səviyyəsində müəyyən fərqlər özünü göstərirdi. Məsələn, 10 yaşdan yuxarı şəhər əhalisi (35116 nəfər, onlardan 17502 nəfəri kişi, 17614 nəfəri qadın) arasında ali təhsillilər 2015 nəfər (onlardan 1475 nəfəri kişi, 540 nəfəri qadın), natamam ali təhsillilər 558 nəfər (onlardan 327 nəfəri kişi, 231 nəfəri qadın), orta təhsillilər 2747 nəfər (onlardan 1460 nəfəri kişi, 1287 nəfəri qadın), orta ümumi təhsillilər 7005 nəfər (onlardan 3636 nəfəri kişi, 3369 nəfəri qadın), ibtidai təhsillilər 8450 nəfər (onlardan 3902 nəfəri kişi, 4548 nəfəri qadın) təşkil edirdisə (133, s.152-153), kənd yerlərində bu göstəricilər aşağıdakı kimi idi: 10 yaşdan yuxarı olan 96221 nəfər kənd əhalisinin (onlardan 44838 nəfəri kişi, 51383 nəfəri qadın), 1502 nəfər ali (onlardan 1365 nəfəri kişi, 137 nəfəri qadın), 717 nəfər natamam ali (onlardan 595 nəfəri kişi, 122 nəfəri qadın), 3435 nəfər orta ixtisas (onlardan 2530 nəfəri kişi, 905 nəfəri qadın), 11294 nəfər orta (onlardan 7755 nəfəri kişi, 3539 nəfəri qadın), 21904 nəfər natamam orta (onlardan 9974 nəfəri kişi, 11930 nəfəri qadın) və 28699 nəfər (onlardan 12421 nəfəri kişi, 16278 nəfəri qadın) ibtidai təhsilə malik idilər (133, s.190-293).

Göründüyü kimi, ali və orta ixtisas təhsillilər arasında qadınlar çox az faiz təşkil edirdilər. 10 yaşdan yuxarı əhalinin hər 1000 nəfərinə 1959-cu ildə 15 ali təhsilli (kişi 24, qadın 7), 12 natamam (kişi 19, qadın 6), 39 orta ixtisas (kişi 53, qadın 28), 79 orta ümumi (kişi 113, qadın 212) və 189 ibtidai təhsilli (kişi 187, qadın 190) düşürdüsə, 1970-ci ildə bu göstəricilər xeyli yaxşılaşmış, ali təhsillilərin nisbəti hər 10 yaşdan yuxarı 1000 nəfərə 27 (kişi 46, qadın 10), natamam ali təhsilliləri 10 (kişi 15, qadın 5), orta ixtisas təhsilliləri 47 (kişi 64, qadın 32), orta ümumi təhsilliləri 142 (kişi 193, qadın 96), natamam orta təhsilliləri 220 (kişi 218, qadın 221), ibtidai təhsilliləri isə 283 (kişi 262, qadın 302) olmuşdu.

Bu zaman şəhər əhalisinin təhsil səviyyəsi daha yüksək olsa da, kənd əhalisinin səviyyəsi də artaraq ümumi göstəriciyə çatmaqda idi. Məsələn, 1959-cu ildə hər 1000 nəfər şəhər əhalisinə (10 yaşdan yuxarı) 34, 1970-ci ildə 57 ali təhsilli (müvafiq olaraq 63 və 78 orta ixtisas təhsilli) düşürdüsə, kənd əhalisi üzrə bu göstərici 1959-cu ildə ali təhsillilər üzrə 7 (orta ixtisas təhsilli üzrə 30), 1970-ci ildə isə 16 (36) nəfər təşkil etmişdi. Lakin bu göstəricilər ümumilikdə Azərbaycan üzrə orta göstəricilərdən çox aşağı idi (133, s.182-183).

Maarifin inkişafı sahəsində həyata keçirilən tədbirlər məşğul əhalinin təhsil səviyyəsinin artmasında da öz təsirini göstərmişdi. Belə ki, Naxçıvan MSSR üzrə 1959-cu ildə əhalinin siyahıyaalınmasının nəticələrinə görə hər 1000 nəfər işləyən adama 22 ali, 17 natamam ali, 52 orta ixtisas, 90 orta ümumi, 261 natamam orta və 165 ibtidai təhsilli düşürdüsə, 1970-ci ildə bu rəqəmlər müvafiq olaraq 54,17, 88231, 277 və 179 nəfər təşkil etmişdi. Kişilər üzrə bu rəqəmlər 1959-cu ildə 32, 26, 69, 129, 285, 146, 1970-ci ildə 79, 23, 109, 301, 260, 126, qadınlar üzrə 1959-cu ildə 10, 8, 33, 47, 234187, 1970-ci ildə 22, 9, 63, 145, 298, 245 təşkil edirdi (133, s.189-190).

Lakin şəhər və kənd əhalisi arasında məşğul olanların təhsil səviyyəsində, xüsusən qadın və kişilər arasında ciddi fərqlər yenə də qalmaqda idi. Əgər şəhər əhalisi arasında 1970-ci ildə ali təhsillilər 177 (kişi 137, qadın 81) təşkil edirdisə, kənd əhalisi arasında bu rəqəm 31 (kişi 55, qadın 6) idi. Orta ixtisas təhsilinə malik olan şəhərdə məşğul olanlar 1970-ci ildə 145 nəfər (kişi 134, qadvn 164) təşkil edirdisə, kəndlərdə bu rəqəm 69 nəfər (kişi 99, qadın 35) təşkil edirdi (134, s.102-104). Təəssüflə qeyd etmək lazımdır ki, mərkəzin Naxçıvan MSSR-lə müqayisədə DQMV-ə diqqətin daha çox artırmasının nəticəsidir ki, ümumi təhsilin və mədəniyyətin bir sıra göstəricilərinə görə Muxtar Respublika muxtar vilayətdən geri qalmışdı. Məsələn, 10 yaşdan yuxarı hər 1000 nəfərə Naxçıvan MSSR-də 1970-ci ildə 27 nəfər ali təhsilli və 47 nəfər orta təhsilli düşürdüsə, DQMV-də bu rəqəmlər 31 və 53 təşkil edirdi (98, s.86-

87). Məşğul əhali arasında da bu göstəricilər üzrə fərqlər müşahidə olunurdu – 54 və 88-ə qarşı 59 və 97 idi (98, s.88). Fəxrlə qeyd etmək yerinə düşər ki, Azərbaycanın bu iki muxtar qurumu arasındakı bütün sahələrdə, o cümlədən əhalinin təhsil səviyyəsindəki kəskin fərqlər Heydər Əliyevin hakimiyyəti dövründə tədricən aradan qaldırılmağa başlandı. 1979-cu ilin əhalinin siyahıyaalınmasının göstəricilərinə görə Naxçıvan MSSR-də yaşı 10-dan yuxarı əhalinin hər 1000 nəfərinə 48 nəfər ali və 63 nəfər orta ixtisas təhsilli düşürdüsə, DQMV-də bu rəqəmlər 49 və 85 təşkil etmişdi (134, s.99). Nəticədə 1979-cu ilin əhalinin siyahıyaalınmasına görə Naxçıvan Muxtar Respublikası tam savadlılar diyarına çevrildi.

Muxtar Respublikada maarifin və təhsilin inkişafı nəticəsində böyük bir ziyalı dəstəsi: alimlər, maarif və mədəniyyət xadimləri yetişmiş, naxçıvanlılar Azərbaycan və dünya elminə, ictimai fikrin inkişafına layiqli töhfələr verməyə başlamışdılar. Nisbətən yaşlı nəslin nümayəndələri olan Yusif Məmmədəliyev, Mehbalı Qasımov, Əli Sultanlı, Əziz Şərif, Həsən Abdullayev, Həsən Əliyev, Həmzə İbrahimov, Məmməd Cəfər Cəfərov, Nəsir Məmmədov, Əvəz Sadiq, Həbib Şahtaxtınski, Bəhmən Axundov, Rza Təhmasib, Həbib Məmmədəliyev kimi alimlərlə yanaşı, gənc alimlər F.Maqsudov, S.Bektaşi, Y.Cəfərov, X.Zamanov, M.Eminov, Z.Möhsümov, K.Kərimov, Y.Axundov, Q.Mədətov, K.Rəhimov, Ş.Sadıqov, H.Şirəliyev, İ.Maqsudov, V.Əliyev, V.Nəsirov, E.Salayev, Y.Seyidov, A.Nəcəfov öz elmi nailiyyətləri ilə Azərbaycanda və ondan kənarda da tanınmağa başlamışdılar.

Bir vaxtlar mövhumat yuvası kimi ad çıxarmış Nehrəm kəndində 1964-cü ildə 75 nəfər ali təhsilli müəllim, aqronom, zootexnik, mühəndis və yüzdən artıq kənd təsərrüfat mütəxəssisi çalışırdı (100, s.96). Həmin vaxt kənd orta məktəbində oxuyan 1071 nəfər şagirdin 430 nəfəri qız idi. 1963-cü ildə məktəbin 40 nəfər məzunundan 17 nəfəri ali məktəblərə, onlardan 5 nəfəri Tibb İnstitutuna daxil olmuşdu (5, 1964, 15 oktyabr), 150 nəfər nehrəmli ali və orta ixtisas məktəblərində oxuyurdu. Muxtar Respublikanın bir çox məktəblərinin uğurları bütün respublikada əksəda doğurmuşdu. Üzeyir Hacıbəyov adına Naxçıvan şəhər 1 nömrəli orta məktəbini 1963-1964-cü tədris ilində bitirmiş 24 nəfər məzunundan 21 nəfəri, 1964-1965-ci tədris ilində bitirmiş 65 məzunundan 44 nəfəri, 1965-1966-cı tədris ilində bitirmiş 165 nəfər məzunundan 63 nəfəri ali və orta ixtisas təhsili məktəblərinə daxil olmuşdu (5, 1967, 13 avqust).

Təkcə Ordubad şəhərindən 150 nəfərdən çox elmlər doktoru və namizədi yetişmişdi (117, 1969, 8 fevral). Yalnız 1963-cü ildə 24 nəfər naxçıvanlı namizədlik və doktorluq dissertasiyası müdafiə etmişdi (119, 1964, 20 oktyabr). Bu hər şeydən əvvəl, Naxçıvan məktəblərində dərs keyfiyyətinin yüksək səviyyədə olmasından irəli gəlirdi (Həsən

Abdullayev, akademik). Xalq yazıçısı S.Rəhimov Naxçıvanda təhsilin yüksək keyfiyyətini nəzərə alaraq qeyd edirdi ki, məndə belə bir qənaət vardır ki, naxçıvanlılar istedadlı adamlardır. Demişəm, yenə də deyirəm ki, əgər naxçıvanlı bir çoban çomağı yerə atıb desə ki, mən alim olacağam, ona inan, inan ki, alim olacaq (119, 1964, 15 oktyabr).

XX əsrin 40-60-cı illərində Naxçıvan MSSR-də qadın və qızların təhsil səviyyəsinin artırılması sahəsində ciddi nəticələr əldə edilmiş, onların Muxtar Respublikanın ictimai-iqtisadi, maarif və mədəni həyatında rolu getdikcə artmağa başlamışdı. 50-ci illərdə Muxtar Respublikada qızların tam əksəriyyəti təhsilə cəlb edilmişdi. Belə ki, 1958-ci ildə Muxtar Respublikanın 187 məktəbində oxuyan 21900 nəfər şagirdin 40%-i qız idi. 1964-cü ildə 198 ümumitəhsil məktəbində 40202 nəfər şagird təhsil alırdı ki, bunun da 19600 nəfəri qız idi (36, s.9-10). 1970-ci ildə isə Muxtar Respublikanın 210 ümumi təhsil məktəbində 56531 nəfər şagirdin 26292 nəfəri qız idi. Bununla yanaşı, qızların təhsilə cəlb edilməsi sahəsində ciddi problemlər yenə qalmaqda idi. Qızlar, xüsusən kənd yerlərində yaşayanlar arasında məktəbdən yayınma halları çox idi. Xüsusən yuxarı siniflərdə oxuyan qızlarla oğlanların say nisbətində ciddi fərq var idi ki, bu da qızların orta təhsili başa vurmamaları ilə əlaqədar idi. Qızların erkən ərə verilməsi hallarına da təsadüf edilirdi. Baxmayaraq ki, bu hallara qarşı çox ciddi inzibati və hüquqi mübarizə tədbirləri görülürdü. Qadınlar arasında savadsızlara hələ də rast gəlinirdi.

Məktəb müəllimləri arasında qadınların sayı ilbəil artırdı. 1958-ci ildə 1713 nəfər müəllimdən 528 nəfəri, 1964-cü ildə 2500 nəfər müəllimdən 700 nəfəri, 1970-ci ildə isə 3120 nəfər müəllimdən 985 nəfəri qadın idi. Bir çox qadın maarif sistemində rəhbər vəzifəyə irəli çəkilmiş, məktəb direktorları, dərs hissə müdirləri kimi məsul işlərdə fəaliyyət göstərirdilər. Lakin kişilərlə müqayisədə məsul vəzifələr arasında qadınların sayı çox az olub, cəmi 6 % təşkil edirdi. 60-cı illərin əvvəllərində 37 nəfər qadın məktəb direktoru və dərs hissə müdiri işləyirdi. 95 nəfər qadın əməkdar müəllim adına layiq görülmüş, 218 nəfəri orden və medallarla təltif olunmuşdu (36, s.4-5). Ş.Əliyeva Naxçıvan şəhər XMŞ-nın müdiri, A.Ağayeva 1 nömrəli orta məktəbin, H.Xudatova 3 nömrəli orta məktəbin, F.Ağalarova Ordubad rayon Vənənd kənd orta məktəbinin direktoru işləyirdilər. Qadınların kütləvi təhsilə cəlb edilməsi sayəsində onlar arasında savadsızlıq demək olar ki, ləğv edilmişdi. Əgər 1959-cu ilin göstəricilərinə görə Naxçıvan MR-də qadınların 97,2% savadlı idisə, 1970-ci ildə 99,8% təşkil etmişdi (133, s.193). Xalq təsərrüfatında məşğul olan ali və orta ixtisas təhsilli mütəxəssislər arasında da qadınların sayı sürətlə artırdı. Əgər 1959-cu ildə hər işləyən 1000 nəfər qadının 10 nəfəri ali təhsilli, 8 nəfəri natamam ali, 33 nəfəri orta ixtisas təhsilinə malik idisə,

1970-ci ildə onların sayı müvafiq olaraq 22, 9, 63 nəfər təşkil edirdi. 1959-cu ildə hər 1000 nəfər qadına 7 nəfər ali təhsilli (kişiyə 24) qadın düşürdüsə (295 nəfər orta təhsilli qadın), 1970-ci ildə bu rəqəm 10 və 254 nəfər təşkil edirdi. 1959-cu ildə məşğul qadınların hər 1000 nəfərindən 332 nəfərin, 1970-ci ildə isə 531 nəfərinin ali və orta təhsili var idi (137, s.3, 24). Lakin bu göstəricilərə görə Naxçıvan MSSR orta respublika göstəricilərindən bir qədər geri qalırdı.

1963-cü ilin göstəricilərinə görə Naxçıvan MSSR-də qadınlar ali təhsillilərin 23%-ni (2512 nəfərdən qadın 539 nəfər), mühəndislərin 10%-ni (134-14), həkimlərin 32%-ni (169-66), iqtisadçıların 5%-ni (105-15), mədəni-maarif işçilərinin 25%-ni (1681-425) təşkil edirdilər. Orta təhsilli mütəxəssislər arasında qadınlar 28% (2511-731), kənd təsərrüfatı müətəxəssisələri arasında 3% (417-13), tibb işçiləri arasında 57% (804-462), mədəni-maarif mütəxəssisləri arasında 24% (832-203) təşkil edirdilər (101, s.29).

Həmin dövrdə kənd qadınları ilə şəhərdə yaşayan qadınların təhsil səviyyəsində ciddi fərqlər var idi. Məsələn, 1970-ci ilin siyahıyaalınmasının nəticəsinə görə həmin dövrdə şəhərdə 540 nəfər ali (hər 1000 nəfər qadına 31), kənddə isə cəmi 137 ali təhsilli (hər 1000 nəfər qadına cəmi 3) qadın düşürdü. Qadınların və qızların təhsil səviyyəsinin artırılması sahəsində öz həllini gözləyən bir sıra vacib problemlər var idi. Onların əksəriyyəti 70-80-ci illərdə öz həllini tapmış oldu.

1970-ci ilə qədər Naxçıvan MSSR-də xalq maarifinin inkişafı sahəsində əldə edilmiş nailiyyətlərə baxmayaraq, bir çox problemlər yenə də qalmaqda idi. Təhsilin bir çox parametrlərinə görə Muxtar Respublika nəinki ümumittifaq, hətta respublika səviyyəsindən, digər bölgələrdən geridə qalırdı. Əksər məktəblərin maddi-texniki bazası müasir tələblərə cavab vermirdi. Əhalinin sayına görə məktəblərin yerləşdirilməsi məsələsi öz həllini tapmamışdı. Məktəblərin çoxunda dərslər iki növbədə həyata keçirilirdi. Əksər məktəblər, xüsusən dağ kənd məktəbləri tədris üçün uyğun olmayan binalarda yerləşdirilmişdi. Dərs ləvazimatları, avadanlıqları, xüsusən dərsliklər və dərs vəsaitləri ehtiyacı tam ödəmirdi. Nəticədə şagirdlərin dərsi mənimsəmə faizi çox aşağı idi.

Təlim-tədris prosesinə ciddi nəzarət edilmədiyindən şagirdlərin dərs buraxma, məktəbi tərk etmə halları çoxalmışdı. Qız uşaqlarının bir çoxu orta təhsillərini başa vurmaqdan, yuxarı siniflərdə oxumaqdan vaz keçirdilər. Bəzi kəndlərdə qızların ali və orta ixtisas məktəblərində təhsillərini davam etmələri məsələsinə mövhumatçı münasibətin qalıqları yenə də qalmaqda idi.

Tədris müəssisələrinin pedaqoji kadrlarla təminatı zəif idi. Yerlərdə kadr hazırlığı məsələsinə kifayət qədər fikir verilmirdi. 1967-ci

ildə APİ-nin Naxçıvan filialı fəaliyyətə başlasa da, o mövcud ehtiyacı tam ödəyə bilmirdi. Müəllimlərin yenə də çox hissəsinin ali təhsili yox idi. Onların ixtisaslarını artırılması üçün atılan addımlar kifayət etmirdi. Onların maddi-məişət vəziyyətlərinin yaxşılaşdırması məsələsi ciddi sosial məsələ olaraq gündəlikdə dururdu. Tədrisin keyfiyyətinin yaxşılaşdırılması, elmi-metodik rəhbərliyin yüksəldilməsi məsələləri də diqqət tələb edirdi.

Əlbəttə, tədrisdə olan bu problemlər və geriləmələr Naxçıvan MSSR-in o zamankı sosial-iqtisadi inkişafı konteksindən baxılmalıdır.

Naxçıvan MSSR-in iqtisadiyyatında nominal göstəricilərin artmasına baxmayaraq, 1960-cı illərin sonunda inkişaf sürəti azalmağa başlamışdı. Bir sıra göstəricilərə görə Muxtar Respublika Azərbaycanın digər bölgələri ilə müqayisədə geri qalırdı. Sənaye məhsulunun artım sürətinə, kənd təsərrüfatı məhsullarının istehsalına görə Naxçıvan MSSR Azərbaycan SSR-in orta göstəricilərindən geri qalırdı. Mərkəzi və respublika hakimiyyət dairələri DQMV-nin sosial-iqtisadi inkişafına daha çox diqqət yetirir, Naxçıvan Muxtar Respublikasında isə məhsuldar qüvvələrin və sənayenin inkişafını bilərəkdən ləngidirdi. Azərbaycanın əsas ərazisindən ayrı düşmüş Muxtar Respublikanın iqtisadi potensialını zəiflətməklə məkrli qüvvələr regionun əsil sahibləri olan Azərbaycan türklərini öz torpaqlarından uzaqlaşdırmağa çalışırdılar.

Sənaye, kənd təsərrüfatı, sosial sahələrin ən mühüm göstəricilərinə görə Naxçıvan MSSR DQMV-dən dəfələrlə geri qalırdı. Baxmayaraq ki, təbii ehtiyatların zənginliyinə, infrastruktur imkanlarına, insan potensialına və digər amillərə görə Naxçıvan MSSR daha üstün mövqedə idi. Lakin Muxtar Respublikanın sosial-iqtisadi irkişaf problemləri Azərbaycan rəhbərliyinin layqeyidliyi ucbatından öz həllini tapa bilmirdi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevi Naxçıvana bu soyuq münasibət daim narahat edirdi. «Naxçıvana ögey münasibət olubdu. Ona görə də açıq danışım, Naxçıvanda əsas quruculuq işi, sənayenin, kənd təsərrüfatının inkişafı – bunların hamısı 1970-ci ildən başlayaraq gedibdir. Gedin Naxçıvana, sayın, əgər keçmiş xanların tikdikləri binaları, yaxud da tarixi abidələri istisna etsək, 1970-ci ilə qədər və 1970-ci ildən sonra Naxçıvanda nə tikilib, nə yaradılıbdır. Bu təkcə Naxçıvanda deyil, onu Azərbaycanın hər yerinə aid etmək olar (1, 1998, 17 yanvar).

Bu neqativ proseslərin qarşısını almaq, Azərbaycanın bütün regionlarının ahəngdar inkişafını təmin etmək üçün obyektivlik, prinsipiallıq, möhkəm iradə və qətiyyət tələb olunurdu. Lakin bütün bunlar 1969-cu ilə qədər Azərbaycan rəhbərliyində hiss olunmurdu. 1969-cu ildə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsi bütün Azərbaycanın, o cümlədən onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının tarixində əsil dönüş mərhələsi oldu, onun iqtisadi, siyasi, mədəni inkişafında canlanma, tərəqqi və çiçəklənmə dövrü başlandı.

NAXÇIVAN TƏHSİLİ YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ (XX ƏSRİN 70- 80 - Cİ İLLƏRİ)

Heydər Əliyevin 1969-cu ilin iyul ayında Azərbaycanda ali rəhbərliyə gəlməsi o vaxt geridə qalmış Azərbaycanın keçmiş İttifaq məkanında ön cərgəyə çıxması, iqtisadiyyatda, sənayedə, tikintidə, kənd təsərrüfatında, mədəniyyətdə, elm və təhsildə misli görünməmiş nailiyyətlər əldə olunmasına gətirib çıxardı. Hakimiyyətə gəldikdən sonra Azərbaycan iqtisadiyyatında yaranmış böhranın aradan qaldırılması üçün konkret planlar və onların həlli yollarını müəyyənləşdirən Heydər Əliyev idarəçilikdə, kadrlarla işdə, intizamın və qanunçuluğun möhkəmləndirilməsi sahəsində atdığı ciddi addımlar sayəsində qısa müddət ərzində respublikamız sosial-iqtisadi inkişafda yüksək nəticələrə nail oldu.

Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilmiş məqsədyönlü siyasət nəticəsində uzun illər davam edən geriliyə son qoyulmuş, 1970-ci illərdə sənaye istehsalı 2,2 dəfə, əmək məhsuldarlığı 1,7 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 2 dəfə artmışdı. Sənaye, kənd təsərrüfatı, sosial inkişafın bütün sahələri üzrə plan və tapşırıqlar artıqlaması ilə yerinə yetirilmişdi. Bütövlükdə Azərbaycana rəhbərlik etdiyi 13 il ərzində istifadə olunan milli gəlir 2,5 dəfə, adambaşına milli gəlir 2 dəfə, sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 2,7 dəfə artmış, həmin illərdə iqtisadiyyatın inkişafına 21,3 mlrd. manat vəsait qoyulmuşdu ki, bu da əvvəlki 50 ildəkindən 1,5 dəfə artıq idi (10, s.70, iş 11, v.26). Xalqın sosial rifah halı xeyli yaxşılaşmış, sosial-iqtisadi inkişafın əksər göstəricilərinə görə Azərbaycan SSRİ-də öncüllər sırasına çıxmışdı.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə Naxçıvan MSSR-nin sosial-iqtisadi inkişafında da ciddi dəyişikliklər baş verdi, regionun iqtisadi və mənəvi tərəqqisinin əsası qoyuldu. Ulu öndərin bilavasitə rəhbərliyi altında Muxtar Respublikanın sosial-iqtisadi inkişafına dair bir sıra plan və proqramlar müəyyənləşdirildi. Bu baxımdan Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin «Naxçıvan MSSR-in xalq təsərrüfatını daha da inkişaf etdirilməsi tədbirləri haqqında» 8 yanvar 1974-cü il tarixli qərarı mühüm tarixi sənəd oldu. Qərarda Naxçıvan MSSR-in sosial-iqtisadi və mədəni inkişafında əldə edilmiş uğurlar qeyd edilməklə yanaşı, nöqsanlar da göstərilmiş, Muxtar Respublikanın bir sıra göstəricilər üzrə orta respublika səviyyəsindən geri qalmasının səbəbləri də göstərilmişdi. Həmin qərarda Muxtar Respublika iqtisadiyyatının bütün sahələrinin tarazlı inkişafını təmin etmək üçün respublika nazirlikləri və idarələri, Muxtar Respublika

rəhbərliyi qarşısında konkret vəzifələr qoyulmuşdu.

Heydər Əliyevi Naxçıvan Muxtar Respublikasının zəif inkişafı ciddi narahat edir və o geriliyi qısa müddətdə aradan qaldırılmasını təkidlə tələb edirdi. Azərbaycana birinci rəhbərliyi dövründə ümummilli liderimiz 5 dəfə Naxçıvan MSSR-də olmuş, bölgənin vəziyyəti, problemləri ilə bilavasitə tanış olmuş, öz tapşırıq və tövsiyələrini vermişdi. Muxtar Respublikanın inkişafı məqsədi ilə həyata keçirilən tədbirlər qısa müddətdə öz bəhrəsini vermiş, sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində çox ciddi uğurlar əldə edilmişdi.

Sənaye müəssisələrinin yerləşməsində, sənayenin ayrı-ayrı sahələrinin inkişafında, yeni sənaye sahələrinin yaradılmasında əsaslı dəyişikliklər baş vermişdi. 1970-ci illə müqayisədə 1980-ci ildə ümumi sənaye məhsulunun istehsalı 261% artmış, sənaye istehsalının orta illik həcmi 7,9% təşkil etmişdi (98, s.12). Muxtar Respublikanın sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə (Azərbaycan üzrə 2,7 dəfə) artmışdı (98, s.31). 1985-ci ildə Naxçıvan MSSR sənayesi 100-dən çox müəssisə ilə, o cümlədən 50 müstəqil balansda olan iri dövlət müəssisə ilə təmsil olunmuşdu. Bir sıra sənaye məhsullarının (duz, mineral sular, ipək xammalı, üzlük travertin, butulka istehsalı) istehsal həcminə görə Muxtar Respublikanın Azərbaycan iqtisadiyyatında rolu xeyli artmışdı. Ümumilikdə, 1970-1985-ci illərdə Muxtar Respublikada iqtisadiyyatın müxtəlif sahələrinə aid 783-900 milyon manat əsas fondlar tikilib istifadəyə verilmişdi (103, s.32).

70-80-ci illərdə Muxtar Respublikanın kənd təsərrüfatında da əsaslı dönüş baş vermişdir. Heydər Əliyevin təşəbbüsü ilə kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi, əkinçilik və heyvandarlıq məhsulları istehsalının artırılmasına yönəlmiş bir sıra kompleks tədbirlər həyata keçirilmiş, qeyri-rentabelli pambıqçılıq yüksək məhsuldarlığa malik üzümçülük və tütünçülüklə əvəz edilmişdi.

Muxtar Respublikada kənd təsərrüfatı istehsalının sənaye əsasına keçirilməsi, ixtisaslaşması və təmərküzləşməsi, iri meliorasiya qurğularının tikintisi bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Görülmüş tədbirlər sayəsində kənd təsərrüfatının ümumi məhsulu 1970-80-ci illərdə 3,2 dəfə, müəssisələrin xalis gəliri 2,7 dəfə çox artmışdı (115, 1982, 6 iyul). Kənd təsərrüfatı məhsuldarlığı da xeyli artmışdır. Belə ki, 1970-ci ildə taxılın məhsuldarlığı 9,3 sentner, tütün məhsuldarlığı 14,5 sentner, tərəvəz 96, bostan bitkiləri 43, meyvə və giləmeyvə 16,7, üzüm 39,9 sentner təşkil etmişsə, 1980-ci ildə bu məhsulların məhsullardığı müvafiq olaraq 23,2; 23,3; 137; 66; 19,3; 64,7 sentner, 1885-ci ildə isə 34,7; 27,8; 116,0; 72,0; 17; 103,8 sentner təşkil etmişdi (96, s.13). Bütün bunlar Muxtar Respublika əhalisinin maddi və həyat səviyyəsinin artmasına təsir

göstərmişdi. Heydər Əliyev Muxtar Resrublikanın şəhər və kəndlərinin abadlaşdırılmasına, əhalinin ehtiyaclarının ödənilməsinə daim diqqət yetirir və sosial problemlərin həll edilməsinə daim nəzarət edirdi.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi müddət tarixə ölkəmizin sosial-mədəni tərəqqisi dövrü kimi düşmüşdür. Bunu Naxçıvan MSSR-in şəhər və kəndlərin iqtisadi və mədəni inkişaf səviyyəsi, sosial siması əyani sübut edir.

Milli liderin Naxçıvan əhalisi qarşısında tarixi xidmətlərindən biri də bölgənin sosial infrastrukturunun, nəqliyyat-rabitə sisteminin inkişaf etdirilməsi, bölgənin vəziyyətini nəzərə alaraq burada aerovağzal tikdirməsi və hava nəqliyyat xidmətinin yaranmasıdır. Əhalinin mənzil - məişət şəraitinin yaxşılaşdırılması, sağlamlığının möhkəmləndirilməsi, bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi sahəsində 70-80-ci illərdə Muxtar Respublikada ciddi uğurlar əldə edilmişdi.

Heydər Əliyevin regionların inkişaf strategiyasında milli-demorqrafik amillər xüsusi yer tuturdu. Heydər Əliyevin Muxtar Respublikanın sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirdiyi addımlar burada milli şüurun inkişafı ilə həmahəng təşkil edirdi. Nəticədə Azərbaycan türkləri öz tarixi vətənlərində tam dominant etnosa, bu diyarın əsil sahibinə çevrilmişdilər.

Görülən tədbirlər nəticəsində Muxtar Respublika sosial inkişafın keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuşdu. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası böyük tikinti meydançasını xatırladırdı. Naxçıvan şəhərində on minlərlə əhalinin yaşadığı üç mikrorayon, «Yeni Naxçıvan» yaşayış massivi salınmış, hər il orta hesabla Muxtar Respublikada 35 min kv. metrlik mənzil sahəsi istifadəyə verilmişdi. Muxtar Respublikanın yaşayış məntəqələrində çoxlu ictimai binalar, mədəniyyət evləri, yaraşıqlı parklar, xiyabanlar salınmış, səhiyyə ocaqları, digər sosial-mədəni obyektlər əhalinin ixtiyarına verilmişdi.

70-80-ci illərdə Naxçıvan MSSR-də səhiyyənin inkişaf etdirilməsi məqsədi ilə həyata keçirilən tədbirlər Muxtar Respublika əhalisinin sağlamlığına dövlət qayğısının əsas təzahürü idi. Bu sahənin inkişafına yönəldilmiş dövlət vəsaitlərinin həcmi xeyli artmış, yeni tibb ocaqları yaradılmışdı. Səhiyyənin inkişafının əsas göstəricilərindən olan xəstəxana çarpayılarının sayı 1970-ci ildəki 1975-dən 1985-ci ildə 2590 ədədə çatdırılmış, həkimlərin sayı isə 262-dən 1985-ci ildə 591, 1985-ci ildə 718 nəfərə çatdırılmışdı (103, s.72). Bütün bunların nəticəsi olaraq Muxtar Respublikada əhalinin sağlamlığının möhkəmləndirilməsi işində böyük irəliləyişlər baş vermiş, ölüm göstəricisi ilbəil aşağı düşərək 1975-ci ildəki 7,7 nəfərdən (hər 1000 nəfərə) 1980-ci ildə 6,8 nəfərə, 1987-ci ildə isə 5,5 nəfərə düşmüşdü (ən aşağı göstərici) (96, s.28).

Naxçıvan Muxtar Respublikasında 1970-80-ci illərdə sosial-iqtisadi sahələrdə əldə edilmiş uğurlar mədəniyyətin inkişafı üçün əlverişli zəmin yaratmışdı. Həmin dövrdə Muxtar Respublikada 83 yeni klub, 51 kitabxana istifadəyə verilmiş, 2 xalq teatrı, başqa mədəni-maarif müəssisələri tikilmişdi. 1980-ci ildə Naxçıvan əhalisi qarşısında çıxış edərkən milli liderimiz müəyyən etmişdi ki, bizim məqsədimiz Muxtar Respublikada təkcə iqtisadiyyatı inkişaf etdirmək deyil. Biz çalışırıq ki, Naxçıvan zəhmətkeşlərinin rifah halı da yaxşılaşsın, burada elm, mədəniyyət daha yaxşı inkişaf etsin (10, s.67, iş 80, v.12).

Mədəni-maarif müəssisələrinin yüksək ixtisaslı kadrlarla təmin edilməsi sahəsində ciddi nəticələr əldə edilmişdi. 1970-ci illə muqayisədə 1980-ci ildə Muxtar Respublikanın mədəni-maarif müəssisələrində 1,5 dəfə sox adam çalışırdı (3900 nəfər). Həmin illərdə ali təhsilli işçilərin sayı 22%, orta ixtisaslı işçilərin sayı isə 32% artmışdı. Əgər 1970-ci ildə Muxtar Respublikada cəmi 166 klub müəssisəsi var idisə, 1985-ci ildə onların sayı 255 təşkil edirdi ki, onların 229-u kənd yerlərində idi (103, s.69).

Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1984-cü ildə Naxçıvan şəhərində möhtəşəm Mədəniyyət Sarayı tikilib istifadəyə verildi. Ümummilli liderimizin göstərişi əsasında bölgədə xatirə muzey-salonu, tarix muzeyi, rayon tarixdiyarşünaslıq muzeyləri, Mömünə xatun məqbərəsi yanında memarlıq və incəsənət muzeyi təşkil olundu. Muxtar Respublikada muzeylərin sayı 1970-ci ildəkindən 1985-ci ildə 11-ə çatdırıldı (103, s.71). Muzeylər Muxtar Respublika əhalisinin mənəvi-estetik, vətənpərvərlik tərbiyəsində mühüm vasitə rolunu yerinə yetirirdilər.

Heydər Əliyevin Azərbaycanın tarixi və mədəniyyəti qarşısında ən mühüm xidmətlərindən biri xalqımızın görkəmli tarixi şəxsiyyətlərinin, elm, mədəniyyət xadimlərinin xatirəsini əbədiləşdirmək üçün atdığı addımlar, qəbul etdiyi qərarlar olmuşdur. Məhz Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə görkəmli Azərbaycan şairi Hüseyn Cavidin, yazıçı M.S.Ordubadinin, akademik Yusif Məmmədəliyevin, sərkərdə Cəmşid Naxçıvanskinin Naxçıvan Muxtar Respublikasında ev muzeyləri yaradılmışdı. O, hər dəfə Naxçıvana gələndə onların ev muzeylərinə baş çəkməyi özünün mənəvi borcu hesab edirdi (119, 1982, 5 oktyabr).

Naxçıvan MSSR-də tarix və mədəniyyət abidələrinin qorunması və abadlaşdırılması sahəsində böyük işlər görülmüş, bir çox yaşayış məntəqələrində Böyük Vətən müharibəsində həlak olanların xatirəsini əbədiləşdirmək üçün komplekslər tikilmişdi (119, 1980, 5 iyun).

Heydər Əliyevin dövlət qayğısı sayəsində 70-80-ci illərdə Naxçıvan MSSR-də mədəniyyət və incəsənət özünün ən yüksək səviyyəsinə çatdı, əhalinin milli-mənəvi inkişafında önəmli rol oynamağa başladı. Bölgədə

professional musiqi sənəti təşəkkül taparaq inkişaf etməyə başlamış, Dövlət Filarmoniyası, xalq çalğı və kamera orkestrləri, bədii özfəaliyyət kollektivləri yaradılmış, müsabiqə və festivallar keçirilməyə başlanmışdı. Naxçıvanda yaşayıb-yaradan bəstəkarlar müxtəlif musiqi janrlarından yüksək əsərlər yaradırdılar.

Muxtar Respublikada ədəbiyyat və ədəbi fikrin inkişafında da nəzərəçarpacaq meyillər özünü göstərirdi. Həmin dövrdə Naxçıvanda Azərbaycan ədəbiyyatında öz yerini tutmuş bir sıra yazıçı və şairlər (Hüseyn İbrahimov, Hüseyn Razi, Müzəffər Nəsirli, Kəmalə Ağayeva, Əliyar Yusifli, Məmmədəli Tarverdiyev və başqaları) yaşayıb yaradırdı. Heydər Əliyevin imzaladığı qərara əsasən Bakıda və Naxçıvanda əslən bu bölgədən olan bir çox ədiblərin (M.S.Ordubadinin 100, 110, Əliqulu Qəmküsarın 100, Hüseyn Cavidin 90, 100, Əziz Şərifin 85) yubileyləri keçirilmiş, onların adları əbədiləşdirilmişdi. Hüseyn Cavidin cənazəsi Uzaq Sibirdən gətirilərək öz doğma vətənində torpağa verilməsi isə təkcə vətənpərvərlik və millətsevərlik təzahürü deyil, həm də milli qeyrət və qəhrəmanlıq təzahürü idi.

Heydər Əliyev Naxçıvanda ədəbi mühitlə daim maraqlanır, naxçıvanlı ədiblərin əsərlərinin nəşri və səhnələşdirilməsinə şərait yaradırdı.

Qədim tarixə malik Naxçıvan teatrı 70-80-ci illərdə ona göstərilən dövlət qayğısı sayəsində yüksək inkişaf zirvəsinə çatdı. Naxçıvanlı teatr xadimlərindən bir çoxu vətənin yüksək dövlət mükafatları və fəxri adları ilə mükafatlandırılmışdı.

Naxçıvanda rəssamlıq sənəti də inkişaf edirdi və Azərbaycan incəsənətinin inkişafına öz töhfələrini verirdi. 1982-ci ildə Naxçıvan şəhərində rəsm qalereyasının açılması bu incəsənət növünün inkişafı üçün yeni imkanlar yaratdı. Milli liderimizin təşəbbüsü ilə Naxçıvan MSSR-də Azərbaycan Yaradıcılıq İttifaqları şöbələrinin açılması mədəniyyət və incəsənətin daha geniş inkişafı və təbliği üçün müsbət rol oynadı.

Naxçıvan MSSR-də mətbuatın, radio və televiziyanın inkişafı, maddi-texniki bazasının möhkəmləndirilməsi üçün mühüm tədbirlər həyata keçirilmiş, «Şərq qapısı» və rayon qəzetlərinin tirajları artırılmış, «Şərq qapısı» qəzeti gündəlik nəşrə keçirilmiş, televiziya verilişlərinin qəbulunun keyfiyyətini yaxşılaşdırmaq üçün Naxçıvana radio-rele xətti çəkilmiş, kəndlərdə retranslyatorlar quraşdırılmışdı.

70-80-ci illərdə Naxçıvan MSSR-də mədəniyyətin bütün sahələrində böyük canlanma və tərəqqi baş verirdi. Naxçıvan əhalisi və ziyalılar Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunub inkişaf etdirilməsi işində yaxından iştirak edirdilər.

1974-cü ildə Naxçıvan muxtariyyətinin 50 illik, 1984-cü ildə isə 60

illik yubileylərinin respublika səviyyəsində təntənəli şəkildə qeyd edilməsi bu qədim diyara diqqətin daha da artmasına, onun sosial-mədəni inkişafi üçün əlavə dövlət vəsaitlərinin ayrılmasına səbəb olurdu. Naxçıvanın Azərbaycanın dövlətçilik tarixində böyük rol oynaması, bu diyarın qədim türk torpağı, Azərbaycanın ayrılmaz parçası olması bütün dünyada bəyan edildi.

Təhsil, elm, mədəniyyət hər bir xalqın inkişafının əsasıdır. Dünya təcrübəsi də göstərir ki, bu sahələrin tərəqqisinə nail olmuş xalqlar dünya miqyasında layiqli yer tutur, davamlı və sabit inkişaf strategiyasını uğurla müəyyən edirlər. Ulu öndər Heydər Əliyevin ötən əsrin 70-80-ci illərində milli-mənəvi irsimizə qayğısının mühüm tərkib hissəsini də məhz təhsilin, elmin inkişafı məsələləri əhatə edirdi. Ümummilli lider Azərbaycanın davamlı inkişafının yeganə yolunu xalqın yüksək təhsil almasında, maariflənməsində görür, respublikada fundamental və humanitar elmlərin tərəqqisi üçün bütün zəruri tədbirləri həyata keçirirdi.

Milli lider hələ Azərbaycana birinci rəhbərliyi dövründə böyük uzaqgörənliliklə həyata keçirdiyi elm, təhsil siyasəti müstəqillik illərində milli ziyalı elitasının intellektual potensialının artırılmasında özünü göstərməklə aparılan islahatların praktik nəticələr verdiyini təmin etmişdir.

Otən əsrin 70-80-ci illərində Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda təhsil müəssisələri şəbəkəsinin yaradılması və onların maddi-texniki bazasının möhkəmləndirilməsi, respublika hüdudlarından kənarda yüksək ixtisaslı kadrların yetişdirilməsi, Elmlər Akademiyasının ETİ-də fundamental elmin inkişafının təmin olunması gələcəkdə milli müstəqillik üçün zəruri intellektual zəmin yaratmışdır. Dahi rəhbər öz fəaliyyəti və siyasi təcrübəsində hər zaman elmi fikrin ən mütərəqqi nailiyyətlərindən faydalanmış, cəmiyyətin inkişafını düzgün olaraq təhsildə və maarifçilikdə görmüşdür. Haqlı olaraq Azərbaycanın intibah dövrü kimi səciyyələndirilən 1969-1982-ci illər Azərbaycan təhsili və maarifinin inkişafında keyfiyyətcə yeni mərhələni təşkil etmişdir.

Heydər Əliyev totalitar rejimin sərt qanunları çərçivəsində Azərbaycanın tərəqqisi, elminin, təhsilinin və mədəniyyətin yüksəldilməsi, yüksək ixtisaslı milli kadr hazırlığı ilə bağlı düşünülmüş strategiya və taktika seçmişdi. Onun rəhbərliyi dövründə Azərbaycanda məktəbəqədər tərbiyə müəssisələrindən tutmuş ali məktəblərədək bütün təhsil ocaqları yeni inkişaf mərhələsinə qalxdı, xalqın intellektual və ümummədəni səviyyəsi yüksəldi.

Məhz həmin illərdə respublikada məktəblərin, ali və orta ixtisas təhsil müəssisələri üçün yeni binaların tikintisi geniş vüsət almış, təhsil infrastrukturu tamamilə yeniləşdirilmiş, ixtisaslı kadr hazırlayan ali və

orta ixtisas müəssisələri açılmışdır. Həmin dövrdə ölkəmizin müxtəlif bölgələrində 800-ə yaxın məktəb tikililəri istifadəyə verilmiş, fəaliyyət göstərən ali məktəblərin ümumi sayı 12-dən 17-yə, tələbələrin sayı 70 mindən 100 minə qədər artmışdır. O illərdə Azərbaycanın əldə etdiyi mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılmasıdır. Bu məqsədi həyata keçirmək üçün Heydər Əliyev hər il azərbaycanlı gənclərin təhsil almaq üçün keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi ənənəsinin əsasını qoymuşdu. O dövrdə SSRİ-nin 170 qabaqcıl ali təhsil ocağına 15 minə yaxın azərbaycanlı göndərilmiş, hər il respublikadan kənara 500-1000 nəfər tələbə təhsil almaq üçün yola salınmışdır. Eyni siyasət azərbaycanlı hərbi kadrların yetişdirilməsi sahəsində də həyata keçirilirdi. Bir sözlə, 1969-1982-ci illərdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial, kadr potensialı respublikamızın tam müstəqil dövlət kimi yaşaması üçün möhkəm zəmin yaratmışdı.

O illərdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında bütün sahələrlə yanaşı, təhsilin inkişafı da bu uzaqgörən siyasətçinin diqqət mərkəzində idi. Naxçıvana hər tarixi səfəri zamanı erməni hiyləgərliyi nəticəsində doğma Azərbaycandan uzaq düşmüş bu qədim oğuz yurdunun hərtərəfli inkişafı üçün dəyərli tövsiyələrini verən ulu öndər Heydər Əliyev Muxtar Respublikanın təhsil sisteminin inkişafı üçün də lazımi göstərişlər verirdi.

Heydər Əliyevin diqqət və qayğısı nəticəsində 1970-80-ci illərdə Muxtar Respublika təhsilinin bütün formalarının inkişafı təmin edilmişdi.

1970-1980-ci illərdə Muxtar Respublikada məktəbəqədər tərbiyə müəssisələrinin şəbəkəsi genişlənmiş, yeni obyektlər tikilmişdir. Belə ki, uşaq bağçalarının sayı Naxçıvan şəhəri üzrə 7-dən 13-ə, Şərur rayonu üzrə 4-dən 10-a, Babək rayonu üzrə 4-dən 6-ya, Culfa rayonu üzrə 5-dən 10-a, Şahbuz rayonu üzrə 4-dən 7-yə yüksəlmişdir. Bütövlükdə 70-80-ci illərdə Muxtar Respublikada 3690 yerlik (96, s.12) 23 məktəbəqədər uşaq müəssisəsi tikilib istifadəyə verilmiş, oradakı uşaqların sayı 1970-ci ildə 2531 nəfərdən 1990-cı ildə 6075 nəfərə çatmışdı. Onlardan yarıdan çoxu (3700) kənd yaşayış məntəqələrinin payına düşürdü (96, s.46; 103, s.63). Bu da əhalinin məişət şəraitinin yaxşılaşdırılmasına, qadınların boş vaxtlarından daha səmərəli istifadə etməsinə, ictimai istehsala geniş cəlb olunmasına şərait yaradırdı.

Bütün respublikada olduğu kimi, Naxçıvan MSSR-də də gənc nəslin istirahətinə dövlətin təhsil-tərbiyə sisteminin əsas həlqəsi kimi böyük diqqət yetirilirdi. 70-80-ci illərdə uşaq istirahət mərkəzlərinin, parkların və pioner düşərgələrinin sayı, bu sahəyə ayrılan vəsaitlərin

həcmi xeyli artmışdır. Bu baxımdan «Uşaqların sağlamlığının qorunmasının vəziyyəti və onun daha da yaxşılaşdırılması tədbirləri haqqında» Muxtar Respublika hökumətinin 14 fevral 1974-cü il tarixli qərarı diqqətəlayiq idi. Qərarda uşaqların istirahətinin daha da səmərəli təşkil edilməsi, istirahət zonaları və pioner düşərgələrinin sayının artırılması, oradakı şəraitin yaxşılaşdırılması, günüuzadılmış müəssisələrdə uşaqların təlim-tərbiyəsinə və istirahətlərinə daha böyük diqqət yetirilməsi məsələləri müzakirə edilmişdi. Əgər 1970-ci ildə Muxtar Respublikada cəmi 9 pioner düşərgəsi var idisə və orada cəmi 1660 nəfər məktəbli dincəlmişdisə, 1980-cı ildə artıq 43 pioner düşərgəsində 9396 nəfər uşaq istirahət etmişdi (9, s.15, iş 532, v.194).

Muxtar Respublika məktəblərində günüuzadılmış qrupların sayı 1980-ci ildə 435-ə çatmış, sonrakı illərdə onların sayı daha da artırılaraq 1988-1989-cu tədris ilində 612 təşkil edilmişdi. Bu qruplarda 19553 nəfər məktəbli məşğul olurdu ki, bu da cəmi oxuyanların 39,1%-i təşkil edirdi (96, s.45). Bununla yanaşı, məktəbəqədər bağçaların, pioner düşərgələrinin maddi-texniki bazası, avadanlıq və invertarlarla təminatı respublika səviyyəsindən, müasir tələblərdən aşağı idi. Pioner düşərgələri bir qayda olaraq məktəb binalarında yerləşirdi, yaşayış və istirahət üçün münasib deyildilər.

Həmin illərdə Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan MSSR-də məktəb tikintisi geniş vüsət aldı. Belə ki, Naxçıvan şəhərində 8, Şərur rayonunda 46, Babək rayonunda 12, Culfa rayonunda 15, bütün Muxtar Respublika üzrə 103 məktəb inşa edilmişdi. Heydər Əliyevin hakimiyyətə gəlişinə qədər Muxtar Respublikada ümumtəhsil məktəbləri şagirdlərinin 59,8% ikinci növbədə oxuyurdusa, 1980-ci illərin əvvəllərində bu rəqəm 44,2%-ə enmişdi (24, s.36). Muxtar Respublikanın bir çox kəndlərində məktəblilər müasir, yaraşıqlı, hər cür şəraitə malik məktəb binalarında təhsil alırdılar. Muxtar Respublika hökuməti səviyyəsində bir neçə dəfə bölgədə məktəb tikintisinin vəziyyəti müzakirə edilmişdi (Vilayət Partiya Komitəsinin «Naxçıvan MSSR-də məktəb tikintisinin vəziyyəti haqqında» 13 dekabr 1973-cü il tarixli qərarı, «Kənd ümumtəhsil məktəblərinin iş şəraitinin yaxşılaşdırılması haqqında» 10 dekabr 1975-ci il tarixli qərarı və s.).

Göstərilən dövrdə xalq maarifinə qoyulan dövlət vəsaitlərinin həcmi xeyli artmışdı. Əgər 1970-ci ildə bu məqsədlər üçün cəmi 11966 min manat ayrılmışsa, 1980-ci ildə bu rəqəm 2 dəfədən çox artaraq 24723 min manat təşkil etmişdir (134, s.22). Həmin illərdə ümumtəhsil məktəblərinin strukturunda ciddi dəyişikliklər baş verdi. Əgər 1970-ci ildə Muxtar Respublikada 210 gündüz ümumtəhsil məktəbi, o cümlədən 52 ibtidai, 85 əsas, 73 orta məktəb var idisə, 1990-cı ildə onların sayı müvafiq olaraq

217, 18, 34 və 165-ə çatmışdı. 1970-ci ildə Muxtar Respublikanın gündüz ümumtəhsil məktəblərində 59059 nəfər şagird təhsil alırdısa, 1990-cı ildə onların sayı 63633 nəfərə çatmışdı (103, s.63). Göründüyü kimi, 70-ci illərdə 10 illik orta ümumtəhsilə keçidlə əlaqədar olaraq ibtidai və əsas (8 illik) məktəblərin sayı azalmış, orta məktəblərin sayı isə artmışdı. Həmin illərdə qız uşaqlarının orta ümumi təhsilə cəlb edilməsi sahəsində əsil inqilab baş verdi. Məktəbyaşlı qızların hamısı məktəbə gedirdi, bu da şagirdlərin ümumi sayından onların üstündük təşkil etməsinə gətirib çıxarmışdı. Əgər 1970-ci ildə orta ümumtəhsil məktəblərinin I-X siniflərində oxuyanların 45%-i qızlar təşkil edirdisə, 1980-ci ildə bu rəqəm 51%-ə yüksəlmişdi, eyni zamanda orta məktəbləri başa vuran qızların sayı da ilbəil artırdı (50, s.121).

70-ci illərdə Naxçıvan MSSR-də dərs mənimsəmə, orta məktəbi başa vurma kimi göstəricilər üzrə də nəticələr yaxşılaşmışdı. Əgər 1970-1971-ci tədris ilində ümumtəhsil məktəblərində müvəffəqiyyət faizi 97,5% təşkil edirdisə, 1985-ci ildə bu göstərici 99,98%-ə qalxmışdı. Lakin bu göstərici bir çox hallarda formalizm, hesabat xatirinə yerinə yetirilən göstərici xarakteri daşıyırdı. 1966-cı ildə I sinfə qəbul edilən şagirdlərin yalnız 84,3%-i 8-ci sinfi bitirmişdi, 80-ci illərdə bu rəqəm 90%-ə enmişdi. 1974-cü ildə 8-ci sinfi bitirərək 9-cu sinfə keçənlərin sayı Naxçıvan MSSR-də Azərbaycana nisbətən çox idi (72,2%-ə qarşı 82%) (5, 1971, 4 oktyabr).

1984-cü ildə Naxçıvan MSSR-də 210 ümumtəhsil məktəbi, 61 məktəbəqədər uşaq müəssisəsi, 6 texniki-peşə məktəbi və 4 texnikum fəaliyyət göstərirdi. Təhsilin müxtəlif növləri ilə 75 min nəfər əhatə olunmuşdu (muxtar respublika əhalisinin 1/3). Gənc nəslin tərbiyəsi ilə 6 mindən çox müəllim məşğul olurdu ki, onlardan 33 nəfəri Azərbaycan SSR, 70 nəfəri Naxçıvan MSSR-in əməkdar müəllimi, 11 nəfəri SSRİ maarif əlaçısı, 279 nəfəri SSRİ-nin orden və medalları, 150 nəfəri xalq maarif əlaçısı döş nişanları ilə təltif olunmuşdu (5, 1984, 24 oktyabr).

Naxçıvan məktəblərində öz peşəsini sevən adlı-sanlı müəllimlər az deyildi. X.Zamanov, M.Mirişli, A.Əsgərov, Z.Hüseynov, Q.Əhmədzadə, Ə.Qənbərli, H.Ələkbərov, S.Seyidov, Ə.Cəfərov, Ə.Quliyev, M.Hüseynov, F.Ağalarova, Q.Qəhrəmanov, G.Əliyeva, M.Musayev, V.Dankeviç, Q.Orucov, X.Muradov, V.Məmmədova, T.Tağıyeva, M.Abbasova, S.Məmmədova, V.Novruzova, Ş.Ələkbərova, M.Həşimova, Z.Sultanova və başqaları Azərbaycanın qabaqcıl müəllimlərindən hesab edilir, onların iş təcrübəsi öyrənilir və tətbiq edilirdi.

Uşaq və yeniyetmələrin ümumi təhsilə cəlb edilməsi ilə əlaqədar yaşlı əhali arasında təhsil almayanların sayı azaldığından axşam məktəblərinə ehtiyac azalmış və onların sayı 1970-ci ildə 41-dən 1980-ci

ildə 9-a, 1990-cı ildə 6-ya, 1993-cü ildə isə 1-ə enmişdi. Bununla yanaşı, 1980-ci ildə orada 5319, 1985-ci ildə 4079, 1990-cı ildə 2011 nəfər təhsil alırdı (103, s.66).

Gecə və qiyabi məktəblərin fəaliyyət göstərməsində əsas məqsəd istehsalatda çalışan gənclərin təhsil səviyyəsini artırmaq, onların orta məktəbi bitirmələrinə şərait yaratmaq idi. Bu iş bir qayda olaraq formalizm, kampaniyaçılıq, şüarçılıq xarakteri daşıyırdı. Rəsmi statistik məlumatlara görə 1970-ci ildə Muxtar Respublikanın fəhlə və kəndli-gənclər məktəblərində, qiyabi məktəblərdə istehsaldan ayrılmamaqla 3598, 1980-ci ildə isə 5124 nəfər gənc təhsil alırdı (130, s.191).

Dövrün ruhuna və rejimin tələblərinə uyğun olaraq Muxtar Respublika məktəblərində şagirdlərin mənəvi, hərbi-vətənpərvərlik, estetik tərbiyəsi sahəsində işlər aparılırdı. Hər məktəbdə bu məqsədlə hərbi- vətənpərvərlik, təbliğat-təşviqat guşələri fəaliyyət göstərir, müharibə və əmək veteranları ilə görüşlər keçirilirdi. Dövrün tələblərinə uyğun olaraq gəncləri partiyaya sədaqət ruhunda tərbiyə etmək üçün müxtəlif forma və vasitələrdən istifadə olunurdu.

Məktəblilərin hərbi-vətənpərvərlik tərbiyəsinə ciddi fikir verilirdi. Hər il müntəzəm olaraq «Qartal balası», «Üfüqdə parıltı» hərbi-idman oyunları keçirilir, rayonlar və Muxtar Respublika səviyyəsində yarışlar təşkil edilirdi (128).

Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlməsindən sonra bədən tərbiyəsi və idman dövlətin prioritet istiqamətlərindən biri olmuş, Bakıdan əlavə respublikanın regionlarında kütləvi idmanın inkişaf etdirilməsi, məktəblərdə bədən tərbiyəsi fənlərinə diqqətin artırılması üçün bir sıra tədbirlər görülmüşdü. Heydər Əliyevin rəhbərliyi ilə respublika hökuməti bir neçə dəfə ölkədə idmanın vəziyyəti və inkişafı məsələlərini müzakirə edərək müvafiq qərarlar qəbul etmişdir. Bu baxımdan Azərbaycan KP MK və Respublika Nazirlər Soveti «Azərbaycan SSR-də bədən tərbiyəsi, idmanın vəziyyəti və onun daha da inkişaf etdirilməsi tədbirləri haqqında» 1974-cü il 6 avqust tarixli qərarı təqdirəlayiqdir. Qərarda bədən tərbiyəsi və idmanın kütləviliyini artırmaq, şəhər və kəndlərdə onu inkişaf etdirmək üçün konkret vəzifələr müəyyənləşdirilmişdi. Bu qərara uyğun olaraq Naxçıvan VPK və Naxçıvan MSSR Nazirlər Soveti «Naxçıvan MSSR-də bədən tərbiyəsinin inkişafı haqqında» 28 noyabr 1974-cü il tarixli xüsusi qərar da qəbul etmişdi. Respublika və Muxtar Respublika səviyyəsində qəbul edilmiş qərarlara müvafiq olaraq 70-ci illərdə Muxtar Respublikanın bütün rayonlarında Uşaq-idman məktəbləri yaradılmış, onların ixtisaslı kadrlarla təmin edilməsi üçün tədbirlər görülmüşdü. Əgər 1970-ci ildə Muxtar Respublikada cəmi 139 nəfər bədən tərbiyəsi mütəxəssisi var idisə

və onların yalnız 77 nəfərinin ali ixtisas təhsili var idisə, 1980-ci ildə bu mütəxəssislərin ümumi sayı 332 nəfər, ali təhsilli idman mütəxəssislərinin sayı isə 171 nəfər idi (4, s.8, iş 1, v.79). 1980-ci ildə Muxtar Respublikada 330 idman kollektivində 45634 nəfər insan məşğul olurdu (4, s.8, iş 1, v.193). Kəndlərdə idmanın inkişafı üçün Məhsul Cəmiyyətinin Naxçıvan Vilayət Şurası yaradılmışdı. Gənc nəslin mənəvi simasının və estetik zövqünün formalaşmasında, onun dünya və milli musiqi mədəniyyətinin inciləri ilə yaxından tanış olmasında, ifaçılıq sənətinin yüksəldilməsində musiqi məktəbləri müəyyən rol oynayırdı.

70-80-ci illərdə Azərbaycanda musiqi təhsilinin inkişafına göstərilən dövlət qayğısı və diqqəti Naxçıvanda da öz təzahürünü tapırdı. Həmin illərdə Muxtar Respublikada uşaqların musiqi təhsili alması üçün böyük addımlar atılmış, musiqi məktəblərinin şəbəkəsi genişlənmişdi. Əgər 1970-ci ildə Muxtar Respublikada musiqi məktəblərində 757 nəfər şagird oxuyurdusa, 1980-ci ildə onların sayı 1540 nəfərə çatmışdı (93, s.8, iş 12, v.10; 4, s.8, iş 1, v.190). 1982-ci ildə Muxtar Respublikada 8 uşaq musiqi məktəbi, 1 uşaq incəsənət məktəbi fəaliyyət göstərirdi. 1907 nəfər şagird musiqi təhsili alırdı, onların tərbiyəsi ilə 253 nəfər müəllim məşğul olurdu. 1990-cı ildə artıq Muxtar Respublikada 17 uşaq musiqi məktəbi, 2 incəsənət və 1 sənətkarlıq məktəbində 3360 nəfər şagird təhsil alırdı. Yalnız 1990-1991-ci tədris ilində bu məktəblərə 660 şagird qəbul edilmişdi (48, s.37-38).

Naxçıvan MSSR-də sənaye və kənd təsərrüfat sahələri üçün fəhlə kadrların hazırlığının əsas forması peşə təhsili sistemi idi. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra texniki-peşə təhsili verən məktəblərin şəbəkəsinin artırılması, ölkənin bölgələrində texniki-peşə məktəblərinin yaradılması məqsədilə respublika rəhbərliyi səviyyəsində bir sıra tədbirlər həyata keçirildi. 1969-cu ildə «Texniki-peşə təhsili sistemi məktəblərində ixtisaslı kadrların hazırlanmasını daha da yaxşılaşdırmaq tədbirləri haqqında» Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 1969-cu il sentyabr, «Azərbaycan SSR-də texniki-peşə təhsilin daha da inkişaf etdirilməsi haqqında» 1971-ci il noyabr və «Azərbaycan SSR-də texniki-peşə təhsili sisteminin inkişafının bəzi məsələləri haqqında» 1975-ci il may tarixli qərarları bu istiqamətdə mühüm rol oynadı.

Muxtar Respublikada TPM-nin vəziyyəti barədə Naxçıvan VPK və Naxçıvan MSSR Nazirlər Soveti də bir neçə dəfə məsələ müzakirə etmiş, (1972-ci il oktyabr ayının 18-də «Naxçıvan MSSR-də texniki-peşə məktəblərində ideya-siyasi tərbiyə işinin vəziyyəti haqqında», 1973-cü il 31 yanvarda «Naxçıvan MSSR texniki-peşə məktəblərində təhsil sisteminin daha da təkmilləşdirilməsi haqqında») Naxçıvan MSSR Nazirlər Soveti yanında Texniki-Peşə Təhsili İdarəsi yaradılmışdı. 1970-ci

ildə Muxtar Respublikada 2 TPM-də cəmi 799 nəfər fəhlə peşələrinə yiyələnirdisə, 1980-ci ildə 8 TPM-də 2053 nəfər şagird oxuyurdu. Bütövlükdə 1971-1980-ci illərdə bu məktəblərdə 9849 nəfər ixtisaslı fəhlə kadrları hazırlanmışdı (130, s.20). TPM-də oxuyan şagirdlər hələ ki orta təhsil almağa başlamışdılar. TPM-də öyrədilən ixtisasların sayı da artırdı və 1970-ci ildəki 9 ixtisasdan, 1980-ci ildə 22 ixtisasa çatdırılmışdı. Peşə məktəblərində dərs deyən müəllimlərin və ustaların sayı və təhsil səviyyəsinin artırılması üçün tədbirlər görülürdü. Əgər 1970-ci ildə TPM-də işləyən 44 nəfər ustanın yalnız birinin ali təhsili var idisə, 1980-ci ildə 62 müəllimdən 56 nəfəri ali təhsilə malik idi (4, s.8, iş 1, v.195).

Naxçıvan MSSR-də 70-80-ci illərdə orta ixtisaslı mütəxəssislərin hazırlanması ilə bağlı böyük işlər görülürdü. 1971-ci ildə Naxçıvan Politexnik Texnikumunun, 1975-ci ildə isə Orta İxtisas Musiqi məktəbinin fəaliyyətə başlaması ilə orta ixtisas məktəblərinin sayı 4-ə çatdırıldı. Politexnik Texnikumu 1973-1980-ci illərdə 1125 nəfər mütəxəssis hazırlamışdı ki, onların əksəriyyəti Muxtar Respublikanın sənaye və tikinti müəssisələrində işə başlamışdılar.

Naxçıvan Sovxoz Texnikumu isə Muxtar Respublikanın kənd təsərrüfat müəssisələrini ixtisaslı kadrlarla təmin edən əsas təhsil ocağı idi. 70-ci illərdə burada 2000 nəfərə yaxın mütəxəssis hazırlanmışdı ki, bu da əvvəlki on illikdən təqribən 2 dəfə çox idi. 1970-1971-ci tədris ilində Muxtar Respubliakanın orta ixtisas məktəblərində 1070, 1980-1981-ci tədris ilinəd 1762, 1987-1988-ci tədris ilində isə 2212 nəfər tələbə təhsil alırdı. Həmin məktəblərə daxil olanların sayı 319 nəfərdən 690 nəfərə çatdırılmışdı (96, s.147).

Heydər Əliyevin inkişaf strategiyasının mühüm tərkib hissəsini ölkənin ayrı-ayrı regionlarında ali təhsilin və elmin inkişaf etdirilməsi, yaradıcı ziyalı potensialının təkcə paytaxtda deyil, respublikanın digər şəhərlərində də formalaşaraq artırılması təşkil edirdi. Bu baxımdan 70-80-ci illərdə Bakı, Gəncə, Sumqayıt kimi Naxçıvanda da ali təhsilin və elmin inkişafı dövlətin əsas prioritetlərindən birinə çevrilmişdi.

Azərbaycanın ali məktəbələri ailəsində özünəməxsus yeri və mövqeyi olan Naxçıvan Dövlət Universitetinin formalaşması və inkişafında görkəmli dövlət xadimi Heydər Əliyevin böyük və əvəzsiz xidmətləri vardı. Bu ali təhsil ocağı özünün müxtəlif mərhələlərindəki bütün inkişaf və tərəqqisi üçün məhz Heydər Əliyevə borclu və minnətdardır (42, s.11).

1967-ci ildə APİ-nin Naxçıvan filialı kimi fəaliyyətə başlayan bu ali təhsil ocağı Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 12 iyun 1972-ci il tarixli qərarı ilə müstəqil instituta çevrilmişdi.

Müstəqil ali məktəbin yaradılması Naxçıvan Muxtar

Respublikasınnın elmi-mədəni inkişafına, burada ziyalı potensialının artmasına, maarifçilik hərəkatına müsbət təsir göstərmişdi. Pedaqoji İnstitut sonralar 29 dekabr 1990-cı ildə Naxçıvan Dövlət Universitetinin təşkili üçün böyük baza funksiyasını yerinə yetirmişdir. İnstitutda təkcə Naxçıvan MSSR üçün deyil, Azərbaycanın cənub-qərb rayonları, eləcə də Ermənistan SSR-nin azərbaycanlı əhalisi üçün yüksək ixtisaslı pedaqoji kadrlar hazırlanması nəzərdə tutulurdu. Bunun üçün institutda tələbə kontingentinin sayının artırılmasının, professor-müəllim heyətinin gücləndirilməsi (o zaman filialda 40 nəfər müəllim işləyirdi ki, onların cəmi 7 nəfəri elmlər namizədi idi – H.C.), yeni fakültələrin, kafedraların, ixtisasların, laboratoriya və fənn kabinələrinin təşkili, tədris və inzibati binaların tikilməsi və s. tədbirlərin həyata keçirilməsi təmin edilməli idi. İnstitutun fəaliyyətini təmin etmək məqsədi ilə Naxçıvan şəhərinin şimal-qərb hissəsində yerləşən bir sıra binalar ali məktəbin sərəncamına verilmişdi. Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin «Naxçıvan MSSR-də xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında» 8 yanvar 1974-cü il tarixli qərarında Naxçıvan Dövlət Pedaqoji İnstitutu üçün 1976-1978-ci illərdə 5 min kv. metr ümumi sahəsi olan tədris korpusunun tikintisi haqqında xüsusi bənd daxil edilmişdi (10, s.61, iş 17, v.192).

Heydər Əliyev 1974-cü ilin oktyabrında Muxtar Respublikanın 50 illiyi ilə əlaqədar Naxçıvanda olarkən NDPİ-yə də baş çəkmiş, tələbə və professor-müəllim heyəti ilə görüşmüşdür. Dövlət əhəmiyyətli bu görüş universitetin tarixi salnaməsində mühüm yer tutur. Məhz həmin görüşdən sonra respublikanın rəhbər orqanlarının, Muxtar Respublika rəhbərliyinin diqqəti instituta daha geniş miqyasda yönəldilmişdi. Bunun nəticəsi olaraq ali məktəbin maddi-texniki bazası daha da genişlənmiş, burada yeni ixtisaslar açılmışdı. Naxçıvanda mövcud Pedaqoji İnstitutun bazasında müstəqil dövlət universitetini yaratmaq zərurəti haqqında ilk fikirlər də həmin tarixi görüşdə Heydər Əliyev tərəfindən irəli sürülmüşdür. Regionda institut yaratmaq ideyasını Heydər Əliyev Naxçıvanın Muxtar Respublika statusu daşıması, diyarın özünəməxsus coğrafi mövqeyi, strateji əhəmiyyəti kimi inkarolunmaz amillərlə əsaslandırmışdır. Bu da Naxçıvanda universitet yaratmaq ideyasının müəllifinin Heydər Əliyev olduğunu göstərir (42, s.11).

Naxçıvan Dövlət Pedaqoji İnstitutunun yaradılması Muxtar Respublika məktəblərini, bütün mədəni-maarif müəssisələrini yüksək ixtisaslı pedaqoji kadrlarla təminatının daha da yaxşılaşdırmasına, ziyalı təbəqəsinin genişlənməsinə gətirib çıxardı. 1971-1975-ci illərdə institutda 236 nəfər filoloq müəllim, 197 nəfər tarix, 233 nəfər fizika-riyaziyyat, 142 nəfər coğrafiya müəllimi hazırlamış, sonrakı illərdə tələbə hazırlığı xeyli

genişlənmiş, növbəti beşillikdə institutda müxtəlif ixtisaslar üzrə 2451 nəfər müəllim hazılanmışdı (4, s.8, iş 1, v.199). 1980-1981-ci tədris ilində institutda 437 nəfər tələbə qəbul olundu və orada 1971 nəfər tələbə oxuyurdusa, 1985-1986cı tədris ilində buraya 450 nəfər tələbə qəbul olunmuş, tələbələrin ümumi sayı isə 2079 nəfər təşkil etmişdi (96, s.48). 1980-ci ildə buranı 592 nəfər, 1990-cı ildə isə 440 nəfər məzun bitirmişdi (103, s.681).

1980-ci ildə Naxçıvan Muxtar Respublikasında bütün təhsil müəssisələri üzrə müəllimlərin sayı 5276 nəfər təşkil edirdi. Onların 3949 nəfəri ali, 517 nəfəri natamam, 785 nəfəri orta pedaqoji təhsilə malik idi. Müqayisə üçün 1970-ci ildə bu rəqəmlər müvafiq olaraq 3120, 766, 662 və 1133 nəfər təşkil etmişdi. Deməli, müəllimlərin sayında ali təhsillilərin sayı təqribən 1,7 dəfə artmış, orta təhsillilərin sayı isə təqribən 1,5 dəfə azalmışdı (97, s.114; 98, s.81).

70-80-ci illərdə Naxçıvan MSSR-də maarifin inkişafı əhalinin ümumi təhsil səviyyəsinin artmasında da özünü göstərirdi. 1970-ci ildə Muxtar Respublikada xalq təsərrüfatında işləyənlərin 3159 nəfərinin ali, 4827 nəfərinin orta təhsili var idisə, 1980-ci ildə onların sayı 7875-ə və 7424, 1985-ci ildə isə 11076 və 8470 nəfərə çatmışdı (96, s.31). 1970-ci ildə hər 1000 nəfər məşğul əhalinin 159-u, 1979-cu ildə isə 198 nəfəri ali və orta ixtisas təhsilli idi.

Bu müdrik Azərbaycan övladının hakimiyyəti dövründə Muxtar Respublikanın orta məktəblərinin hamısı tədris-texniki və elmi-metodiki vasitələrlə təmin olunmuşdu. Məktəblərin əksəriyyətinin zəngin laboratoriyaları, fənn kabinələri, kitabxanaları var idi. Ucqar dağ kəndlərində belə kadr çatışmamazlığı aşağı həddə endirilmişdi. Ali təhsillilərin sayı ilbəil artır, gənc, bacarıqlı, öz ixtisasını ürəkdən sevən müəllimlər təyinatla ciddi ehtiyac olan məktəblərə göndərilirdi. Heydər Əliyev ölkəmizdə əsil ziyalı təbəqəsinin formalaşmasını təmin etdi. Heydər Əliyevin müəllim əməyinə, müəlllim şəxsiyyətinə olan böyük hörmət və ehtiramının nəticəsi idi ki, o illərdə müəllimlər rəhbər vəzifələrə irəli çəkilir, cəmiyyətdə nüfuz sahibinə çevrilirdilər.

Beləliklə, 70-80-ci illərdə Naxçıvan MSSR-də maarifin və xalq təhsilinin inkişafında ciddi dəyişikliklər baş verdi. Məktəblərin maddi-texniki bazası möhkəmlənmiş, əhalinin tam savadlılığı təmin edilmiş, ali və orta ixtisas təhsil sistemi genişlənmiş və yüksək ixtisaslı mütəxəssislərin sayı xeyli artmışdı. Nəticədə Muxtar Respublikanın gələcək inkişafı üçün zəruri olan maddi-texniki baza ilə yanaşı, mənəvi potensial, kadr potensialı formalaşmışdı. Bu Heydər Əliyev dühasının, ümummilli liderimizin tərəqqi strategiyasının Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilməsinin parlaq təzahürü idi.

II BÖLMƏ

MÜSTƏQİLLİK DÖVRÜNDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TƏHSİLİN İNKİŞAFI

1991-1993-CÜ İLLƏRDƏ NAXÇIVANDA MAARİFİN VƏ TƏHSİLİN VƏZİYYƏTİ

1970-ci illərdə, 80-ci illərin birinci yarısında Heydər Əliyevin məqsədyönlü siyasəti və təşkilatçılıq qabiliyyəti sayəsində Azərbaycanda bütün sahələr üzrə yüksək inkişaf göstəriciləri əldə edilmiş, ölkənin ümumi tərəqqisi hər bir bölgənin tərəqqisi və yüksəlişi ilə vəhdətdə getmişdir. Bu böyük insan üçün Azərbaycanın hər bir bölgəsi əziz idi. O, heç bir regiona fərq qoymayaraq doğma vətəninin tərəqqisi naminə çalışırdı. Onun Naxçıvana münasibəti, eyni zamanda Yardımlıya, Lənkərana, Qusara, Gəncəyə münasibəti kimi idi (53, s.145). Lakin Heydər Əliyev Naxçıvan bölgəsinin mürəkkəb cöğrafi-siyasi şəraitdə yerləşdiyini, bu torpağa həmişə yad əllərin uzandığını yaxşı bildiyindən Muxtar Respublikanın sosial-iqtisadi, hərbi-siyasi cəhətdən möhkəmlənməsinə, burada Azərbaycanın milli-mənəvi amilinin daha da artmasına çalışır, sovet rejiminin bütün imkanlarından istifadə edərək regionda sənayenin, kənd təsərrüfatının inkişafı ilə yanaşı sosial infrastrukturun, elm və mədəniyyətin də tərəqqi tapmasına, yerli ziyalı təbəqəsinin, ixtisaslı kadr potensialının formalaşmasına rəvac verən addımlar atırdı. Əgər Heydər Əliyevə qədər Naxçıvan Muxtar Respublikası bütün iqtisadi, sosial-mədəni inkişaf göstəricilərinə görə ümumiAzərbaycan orta göstəricilərindən, xüsusən Dağlıq Qarabağ Muxtar Vilayətindən dəfələrlə geri qalırdısa, Moskvanın və Azərbaycan rəhbərliyinin Muxtar Respublikaya ögey münasibəti var idisə və belə münasibət bir sıra hallarda ermənilərdən qaynaqlanırdısa, Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərliyə gəldikdən sonra Naxçıvana bu ədalətsiz münasibəti dərhal aradan qaldırdı. Azərbaycanın bütün bölgələri kimi Naxçıvan Muxtar Respublikasının da ahəngdar, tarazlı inkişafı təmin edildi. Bu məqsədlə kompleks iqtisadi-siyasi, sosial-mədəni tədbirlər həyata keçirildi. Bütövlükdə 1969-1985-ci illərdə Naxçıvan Muxtar Respublikasının inkişafında, ictimai, mədəni həyatında mühüm uğurlar əldə edilmiş, sənaye məhsulunun həcmi 1985-ci ildə 1970-ci illə müqayisədə 4,6 dəfə (Azərbaycanda 2,7 dəfə) artmışdı.

Lakin təəssüflər olsun ki, Heydər Əliyevin böyük zəhməti hesabına Azərbaycanda əldə edilmiş yüksək sosial-iqtisadi inkişaf səviyyəsi 1985-ci ildən sonra kəskin surətdə aşağı düşməyə başladı. M.S.Qorbaçovun

avanturist perestroykası nəticəsində 1990-cı ildə respublikada iqtisadi tənəzzül baş vermiş, ümumi daxili məhsul istehsalı 11,7%, ümumi ictimai məhsul 10,5% təşkil etmişdi (66, s.93-94).

Bütün bu mənfi meyillər Naxçıvan MSSR-in inkişafında da özünü göstərirdi. 1985-1991-illərdə sənaye istehsalı 26,6%, sənayedə əmək məhsuldarlığı 36,2%, kənd təsərrüfatı məcmu məhsulu 25,5%, heyvandarlıqda isə 34% aşağı düşmüşdü. Muxtar Respublikada milli gəlir təqribən 5 dəfə azalmışdı (66, s.104). Bütövlükdə ümumi məhsulun həcmi 1990-cı ildə 1985-ci illə müqayisədə 137,1%, 1989-cu illə müqayisədə isə 95,9 faiz təşkil etmişdi (65, s.47; 103, s.30).

Ermənistanın Azərbaycana hərbi təcavüzü, Naxçıvan Muxtar Respublikasını hərbi, iqtisadi, nəqliyyat blokadasına alması Muxtar Respublikanı ölüm-dirim təhlükəsi ilə üz-üzə qoymuşdu. Özündən əvvəlki illə müqayisədə sənaye məhsulunun həcmi 1992-ci ildə 38,7%, 1993-cü ildə 63,5%, 1995-ci ildə isə 41,7% aşağı düşmüşdü (65, s.47).

1988-1991-ci illərdə Azərbaycanda cərəyan edən proseslər, Dağlıq Qarabağ münaqişəsi ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında təhsil sisteminə öz mənfi təsirini göstərmiş, bu sahədə inkişafın kəmiyyət göstəriciləri (məktəblərin, şagirdlərin sayı, texniki təchizatı və maliyyə təminatı və s.) əvvəlki səviyyədə qalsa da, təhsilin və tədrisin keyfiyyəti xeyli aşağı düşmüş, dövlətin təhsil siyasəti öz kəsərini itirmişdi. Təhsil ocaqlarının siyasi proseslərə cəlb edilməsi, mürəkkəb ictimai, siyasi şərait və başqa amillər böyüməkdə olan nəslin mənəvi tərbiyəsinə, təhsilinə təsirsiz ötüşmürdü.

Heydər Əliyev faktorundan qıcıqlanan Azərbaycan iqtidarı Muxtar Respublikanı ağır vəziyyətdən çıxarmaq üçün əlini «ağdan-qaraya vurmaq belə istəməyərək, daim erməni işğalı təhlükəsi ilə yaşayan bölgəni taleyin ümidinə buraxmış, Naxçıvanı bir apendist kimi kəsib atmağa belə hazır idilər». Lakin tale 1990-cı ildə Heydər Əliyevi Naxçıvana yetirməklə bu torpağı onu gözləyən bəlalardan, fəlakətlərdən hifz etdi. Heydər Əliyevin siyasi dühası, dövlətçilik təcrübəsi fədakar əməyi, qətiyyəti, ən nəhayət öz torpağına və xalqına hədsiz məhəbbəti «Naxçıvanı Azərbaycana qaytardı», onun mövcudluğunu, gələcək inkişafını təmin etdi.

1991-ci il sentyabrın 3-də xalqın təkidli tələbi ilə Naxçıvan MR Ali Məclisinin Sədri seçildikdən sonra Heydər Əliyev Azərbaycanın müstəqilliyinin təmin edilməsi, milli dövlətçilik ənənələrinin dirçəldilməsi, siyasi, iqtisadi islahatların həyata keçirilməsi, Muxtar Respublikada mənəvi abu-havanın saflaşdırılması istiqamətində çox zəruri və məhsuldar addımlar atdı. Qısa müddətdə siyasi sabitliyə nail olan rəhbər, öz zəngin həyat təcrübəsinə əsaslanaraq iqtisadi və sosial gərginliyi aradan qaldırmaq üçün Muxtar Respublikanın özünəməxsus geosiyasi mövqeyini nəzərə alaraq qonşu Türkiyə Cümhuriyyəti və İran İslam Cümhuriyyəti ilə həyati əhəmiyyətli, dövrün zərurətindən irəli gələn faydalı əlaqələr yaratdı. Ən

başlıcası müdrik siyasətçinin qətiyyəti və fədakarlığı sayəsində Azərbaycanın bu qədim diyarı erməni işğalından xilas oldu. Naxçıvan Muxtar Respublikasının bu günkü mövcudluğu və inkişafı Heydər Əliyevin Azərbaycan xalqı və onun dövlətçiliyi qarşısında tarixi xidmətlərindən biridir.

Heydər Əliyev elmin, təhsilin, mədəniyyətin inkişafına mühüm milli strateji məsələ kimi baxaraq, o dövrün mürəkkəb və çətin şəraitində Muxtar Respublikanın təhsil və mədəniyyət sistemini, ziyalı potensialını qoruyub saxlamaqla, təhsilin kəmiyyət və keyfiyyət göstəricilərinin aşağı düşməsinin qarşısını almağa, təhsil müəssisələrini siyasi proseslərdən kənarda saxlamağa çalışırdı.

Gərgin iş rejiminə baxmayaraq Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının maarif və mədəni müəssisələrinə baş çəkməyi unutmur, Muxtar Respublikada bu sahədə keçirilən bütün tədbirlərdə iştirak etməyə çalışırdı. Böyük siyasət adamı gənc nəslin mənəvi tərbiyəsini, vətənpərvərlik ruhunda böyüməsini dövlətin əsas vəzifələrindən biri hesab edirdi. Təhsili millətin gələcəyi hesab edən Heydər Əliyev Muxtar Respublikada maarifin inkişafı, yüksək ixtisaslı kadrların hazırlanması üçün bütün imkanlardan istifadə etməyə çalışırdı. Blokada vəziyyətində yaşadığı şəraitdə, rəsmi Bakıdan hər hansı kömək ala bilməyən Muxtar Respublika rəhbərliyi bölgənin sosial-iqtisadi, humanitar problemlərinin həll edilməsi üçün bölgənin geosiyasi mövqeyindən istifadə etməli olurdu. Naxçıvan Muxtar Respublikasının qonşu Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə əlaqələrində sosial-iqtisadi, mədəni aspektlərlə yanaşı təhsil, elm məsələləri də xüsusi yer tuturdu.

1992-ci il mart ayının 22-24-də Türkiyə Respublikasında səfərdə olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin səfərinin yekunları ilə bağlı imzaladığı iş birliyi protokolunda Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi, sosial və mədəni əlaqələrin inkişafına dair maddələrlə yanaşı daha bir maddə (12-ci maddə) – hər il 100 nəfər naxçıvanlı gəncin Türkiyədə təhsil alması maddəsi də öz əksini tapmışdır (52, s.674-675). Bu maddə şəxsən Ali Məclisin Sədri Heydər Əliyevin təşəbbüsü ilə protokola daxil edilmişdir. Onun bu təşəbbüsü öz bəhrəsini vermiş, Türkiyənin Yüksək Öyrətim Seçim Kurumunun səlahiyyətli nümayəndələri Naxçıvana gələrək test üsulu ilə 357 nəfər gəncdən 75 nəfərini Türkiyənin müxtəlif universitetlərində oxumaq üçün seçmişlər.

1992-ci ilin oktyabrın 5-də Ali Məclisin iclas salonunda Türkiyəyə təhsil almağa gedən tələbələrlə Muxtar Respublika rəhbərliyinin görüşü oldu. Bu 1970-1980-ci illərdə Azərbaycandan SSRİ-nin müxtəlif ali məktəblərinə göndərilən tələbələrlə ulu öndərimiz Heydər Əliyevin o zaman keçirdiyi görüşlərin bir növ davamı idi.

Görüşdə Ali Məclisin Sədri Heydər Əliyev çıxış edərək Türkiyəyə

yola düşən gənclərə yaxşı yol, uğurlu təhsil, naxçıvanlı və azərbaycanlı adını yüksək tutmağı arzulamış və əmin olduğunu bildirmişdi ki, bu gün yaranan belə gözəl ənənə gələcəkdə də davam edəcək, naxçıvanlı gənclər bundan sonra Türkiyədə, Avropanın və dünyanın başqa ölkələrində təhsil almaq imkanları əldə edəcəklər. O, milli azadlığını, dövlət müstəqilliyini əldə etmiş Azərbaycan dövləti və xalqı qarşısında çox mühüm və mürəkkəb vəzifələr durduğunu bildirərək qeyd etmişdir ki, bu vəzifələrdən biri də Azərbaycanın bu günkü və gələcəyi üçün yüksək təhsilli, yüksək mədəniyyətə malik olan, müasir tələblərə cavab verən mütəxəssislər hazırlamaqdır. «Bu gün müstəqil Azərbaycan dövlətinin, iqtisadiyyatımızın, mədəniyyətimizin, elmimizin Azərbaycanı daha sürətlə gələcəyə aparmağa qabil olan mütəxəssislərə ehtiyacı var» (52, s.338-339) deyən ümummilli lider bunun üçün bütün imkanlardan istifadə etməyi, başqa ölkələrdə və bizim üçün ən yaxın olan Türkiyədə də təhsil almağı zəruri hesab edirdi. O, bunu bir dəb kimi deyil, Türkiyənin institutlarında yüksək təhsil sisteminin olması, orada hazırlanan mütəxəssislərin Azərbaycanın, o cümlədən Naxçıvanın gəncliyi üçün çox gərəkli olacaqları üçün etdiklərini bildirirdi. Dahi şəxsiyyət hər addımında Azərbaycanın gələcəyini düşünür, onun maraqları və mənafeyini əsas götürürdü: «Biz indi çox böyük böhran içərisindəyik. Ümumiyyətlə, Azərbaycan və xüsusən Naxçıvan blokada şəraitində, müharibə şəraitində, sosial-iqtisadi böhran içərisindədir. Bu gün adamlara adicə yaşayış şəraiti yaratmaq üçün un, ət, yağ, yanacaq və başqa zəruri mallar lazımdır. Lakin biz yalnız bu günün tələbləri ilə yaşaya bilmərik. Biz bu gün sabahı, gələcəyi düşünməliyik» (52, s.288). Heydər Əliyev ildə 100 nəfər gəncin Türkiyəyə təhsil almağa getməsini, bu dost dövlətin bizə ayırdığı 100 milyon dollar kreditlərdən, göstərdiyi cürbəcür yardımlardan da çox-çox qiymətli olduğunu qeyd etməklə təhsilin, maarifin, elmin, mədəniyyətin xalqın taleyində necə müstəsna rol oynadığını bir daha vurğulayırdı. «Bu işin qiymətini heç bir para ilə ölçmək olmaz. Bu bizim xalqın gələcəyidir. Naxçıvanın gələcəyidir, onun intellektual potensialıdır. Bu bir də ona görə əhəmiyyətlidir ki, biz indi Azərbaycanda yeni dövlət qururuq və eyni zamanda yeni siyasi və iqtisadi sistem yaratmaq yolundayıq. Yeni siyasi və iqtisadi sistem, yeni sosial quruluş isə şübhəsiz ki, özünə uyğun mütəxəssislər tələb edir (52, s.342). Heydər Əliyev gənclərə azərbaycanlı adını, Azərbaycan xalqının adını həmişə yüksək tutmağı, bütün imkanlardan istifadə edib yüksək elmə, yüksək ixtisasa yiyələnməyi, Azərbaycan xalqına xas olan yüksək mədəniyyət və mənəviyyat nümunəsi göstərməyi, daha çox dilə yiyələnməyi tövsiyə edirdi.

Naxçıvanın qonşu və dost Türkiyə ilə maarif sahəsində əlaqələrinin ən mühüm sahələrindən biri də 1992-ci ildə Naxçıvan şəhərində Türkiyənin Çağ Öyrətim İşlətmələri Anonim Şirkətinin açdığı türk liseyinin fəaliyyətidir. İndi bu təhsil ocağı Azərbaycanın ən öndə gedən orta təhsil

ocaqlarından biridir. Bundan bir il sonra (1993-cü il noyabr) Ordubad Qız liseyi, iki il sonra isə (1994-cü il oktyabr) Şərur Türk liseyi fəaliyyətə başlamışdır. Beləliklə, hazırda Naxçıvan MR-də üç türk liseyi fəaliyyətini davam etdirməkdədir. Liseyin məzunlarının əksəriyyətinin ali məktəblərə daxil olması bu məktəbin uğuru olmaqla yanaşı təhsil sahəsində Azərbaycan-Türkiyə səmərəli iş birliyinin bariz nümunəsidir.

İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikasının qarşılıqlı münasibətlərində də təhsil və elm məsələləri aparıcı yer tuturdu. 1992-ci ilin avqustunda Ali Məclisin Sədri Heydər Əliyevin İran İslam Respublikasına rəsmi səfəri bu əlaqələrin daha da inkişaf etdirilməsinə müsbət təsir göstərdi. Səfər zamanı Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında bağlanmış müxtəlif sahələrdə əməkdaşlıq haqqında protokolun 4-cü bəndində tərəflər arasında mədəniyyət, elm, təhsil, incəsənət, nəqliyyat, turizm və idman sahələrində əlaqələrin genişlənməsi, 5-ci bəndində isə İran İslam Respublikasının gənclərinin Naxçıvanın ali və orta ixtisas məktəblərində, Naxçıvan gənclərinin isə İran İslam Respublikasının ali və orta ixtisas məktəblərində təhsil alması haqqında müddəalar öz əksini tapmışdır (52, s.714).

1993-cü il mayın 13-də Naxçıvan şəhərində Azərbaycan Respublikasının Naxçıvan MR-in İran İslam Respublikasının Qərbi Azərbaycan Ostandarlığı arasında bağlanmış müqavilədə də təhsil sahəsində əməkdaşlığın inkişafını nəzərdə tutan müddəalar, o cümlədən Muxtar Respublikada fars dilinin tədrisi ilə bağlı məsələlər öz əksini tapmışdı (52, s.789).

Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövründə Muxtar Respublikanın yeganə ali məktəbi olan Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universiteti ilə də yaxından əlaqə saxlamış, professor-müəllim heyəti, tələbələrlə görüşlər keçirmiş, ali təhsil ocağının problemlərini mövcud imkanlar daxilində həll etməyə çalışmışdı. Naxçıvanın ali rəhbəri kimi Heydər Əliyev həmin çətin və mürəkkəb şəraitdə yaşayan müəllimlərin, ziyalıların siyasi və mənəvi böhrandan çıxarmağa nail olmuşdu. Az qala unudulmuş, bir çox hallarda isə düşünülmüş şəkildə əsas hadisələrdən uzaqlaşdırılmış yerli ziyalılar məhz Heydər Əliyevin apardığı məqsədyönlü iş sayəsində Naxçıvanda qısa müddətdə ön mövqeyə çəkilmişdir. Alimlərin və müəllimlərin səsi tədricən mühitin ən qaynar nöqtələrindən eşidilməyə başlamış, ziyalılıq dirçəldilmişdir (42, s.11-12).

1992-ci il oktyabrın 12-də Naxçıvan Dövlət Universitetində «Bazar iqtisadiyyatına keçid şəraitində sərhədyanı ticarətin və iqtisadi əlaqələrin təşkili» mövzusunda keçirilmiş beynəlxalq simpoziumda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin iştirak və çıxış etməsi Universitet və Muxtar Respublikanın elmi həyatında mühüm hadisə oldu. Heydər Əliyevin bu elmi tədbirdə şəxsən iştirak etməsi, eləcə də qonşu İran İslam Respublikasından və Türkiyədən dəvət olunmuş alimlərin çıxışları

simpoziumun yüksək səviyyədə keçirilməsini təmin etmişdi. Heydər Əliyevin beynəlxalq simpoziumdakı nitqində irəli sürdüyü faydalı mülahizələr elmi forumun qarşıya qoyduğu məqsədlərin həyata keçməsi baxımından mühüm əhəmiyyətə malik olmuşdur. Ali Məclisin sədri bazar iqtisadiyyatının, sərhəd ticarətinin mahiyyəti, təşkili, məqsəd və vəzifələri haqqında əsaslı, proqram xarakterli fikirlər söyləmişdi. Müstəqillik illərində bazar iqtisadiyyatına keçid və sərhədyanı ticarət kimi tamamilə yeni olan məsələlər haqqında onun irəli sürdüyü mülahizələr təkcə Muxtar Respublikada deyil, bütövlükdə Azərbaycanda bu istiqamətdə düşünülmüş tədbirlərin müəyyən edilib həyata keçirilməsinə istiqamət vermişdir. Bundan başqa, Naxçıvanda keçirilən simpoziumda səslənən yeni, sərrast və uzaqgörən fikirlər müstəqilliyin başlanğıc mərhələsində ciddi suallar qarşısında qalmış iqtisad elmini də istiqamətləndirmiş və zənginləşdirmişdir. Həmin qiymətli tezislər hələlik dinləyici kimi simpoziumda təmsil olunan yeni gənc iqtisadçı nəslin yetişib formalaşmasına da müsbət təsir göstərmişdir (42, s.12).

Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyi də bu böyük insanın Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrə – 1992-ci ilə təsadüf etdi. Ali Məclisin Sədri kimi məsuliyyətli və çətin bir vəziyyətdə çalışmasına, Muxtar Respublikanın mürəkkəb və gərgin vəziyyətinə baxmayaraq, Heydər Əliyev yubiley mərasiminin keçirildiyi günü – noyabrın 12-ni bütünlüklə Naxçıvan Dövlət Universitetinə həsr etdi. O, universitetin ərazisini gəzmiş, kollektivlə söhbət etmiş, mövcud problemləri öyrənmiş, onların həlli yolları haqqında dəyərli tövsiyələrini vermişdi. Bakıdan, eləcə də İran və Türkiyədən gəlmiş qonaqların da iştirak etdikləri yubiley mərasimində Heydər Əliyev geniş nitq söyləmişdi. O, Naxçıvan Dövlət Universitetinin Muxtar Respublikanın iqtisadiyyatında, mədəniyyətində, sosial həyatında, onun inkişaf etməsində, Azərbaycanda yüksək ixtisaslı kadrların yetişməsində böyük rol oynadığını qeyd etmiş, öz arzu və tövsiyələrini universitetin tələbə və müəllimlərinə yetirmişdi. Heydər Əliyev universitet kollektivinə Naxçıvan MR-ın siyasi, iqtisadi və mədəni həyatında daha fəal iştirak etməyi, dünya təcrübəsindən bəhrələnməyi və mövcud imkanlardan istifadə edərək öz beynəlxalq əlaqələrinin daha da genişləndirilməsini tövsiyə edirdi. Heydər Əliyev universitetin elmi potensialının, topladığı təcrübənin böyük elmi, mənəvi sərvət olduğunu nəzərə çatdıraraq bu sərvətdən səmərəli istifadə etməyi, universitetdə hazırlanan kadrların daha yüksək meyarlara cavab verməsinin zəruriliyini qeyd etmişdir (119, 1992, 18 noyabr).

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri
Heydər Əliyev Naxçıvan Dövlət Universitetinini 25 illik yubileyində (12.11.192)

Heydər Əliyevin bu nitqi ölkəmizdə ali təhsilin inkişafına həsr edilmiş ciddi bir proqram idi. O, Naxçıvan Dövlət Universitetinin timsalında Azərbaycan ali məktəblərinin qazandığı uğurları qeyd etməklə yanaşı, bu sahədə mövcud olan çatışmazlıqlara, nöqsanlara, mənfi hallara da diqqəti cəlb edərək onları qətiyyətlə aradan qaldırmağa çağırmışdı. O, cəmiyyətdə müəllimin yüksək mövqe tutmasından, öz saflığını, paklığını, mənəvi təmizliyini qoruması zəruriliyindən danışaraq tövsiyə edirdi ki, «Azərbaycan xalqı öz milli azadlığı ilə yanaşı gərək öz yüksək mənəviyyatına, yüksək əxlaqına sadiqliyini də bundan sonra daha da əziz tutsun və daha da sübut etsin. Bu sahədə şübhəsiz ki, bizim ali təhsilli ixtisasçıların, mütəxəssislərin, alimlərin, professorların, müəllimlərin rolu çox böyükdür. Müəllim dövri-qədimdən hələ vaxtı ilə əhalinin əksəriyyəti savadsız olduğu bir dövrdən, lap cəmiyyətdə kiçik bir yer tutduğu vaxtdan həmişə ən yüksək hörmətə malik olan adam, ən yüksək mənəviyyata malik adam kimi xalq arasında, kütlə arasında, insanlar arasında qəbul olunmuş bir şəxsiyyətdir. Müəllim ali – orta məktəb müəllimidir, ali məktəb müəllimidir fərq etməz, bu şöhrətli, şərəfli bir addır. Müəllim – dərs vermək, tərbiyə etmək sahəsində çalışan adam gərək hər dəqiqə bilsin ki, onun dərs verməyə, təhsil verməyə, tərbiyə etməyə mənəvi hüququ var... Gəlin bu 25 illik bir tarixə yekun vurarkən, yeni bir mərhələyə keçərkən bax, bu məqsədi heç vaxt unutmayaq. Nəinki unutmayaq, gərək Naxçıvan Dövlət Universitetinin bütün fəaliyyətində yüksək elmi səviyyə, cürbəcür fənlərə gənclərin cəlb olunması ən əsas vəzifələrdən biri olsun» (52, s.368-369).

Heydər Əliyev Azərbaycan təhsilində baş verən dəyişikliklərə də öz münasibətini bildirmiş, xüsusən Naxçıvan əhalisinin güzaranının ağır vaxtında, blokada şəraitində olduğu bir dövrdə Naxçıvan gənclərinin Bakıya gedərək orada imtahan verməsini düzgün saymamış, bu işin Naxçıvanın özündə həyata keçirilməsini məqsədəuyğun hesab etmişdi (52, s.370-372).

Heydər Əliyevin bu tarixi nitqi Naxçıvan Dövlət Universitetinin uzunmüddətli inkişaf proqramı idi. Onun irəli sürdüyü ideya və tövsiyələr yeni dövrdə Azərbaycan ali təhsilinin tərəqqisi üçün böyük əhəmiyyətə malikdir. Onlar bu gün də, gələcək üçün də çox aktuallıq kəsb edir. Bu mənada həmin dərin məzmunlu nitq milli ali təhsilin tarixində və inkişafında mühüm rolu və ciddi təsiri olan qiymətli tarixi sənəddir (42, s.13).

Beləliklə, Heydər Əliyevin siyasi təcrübəsi və qətiyyəti sayəsində Muxtar Respublikada sabitlik təmin olunmuş, demokratik, hüquqi dövlət quruculuğuna başlanmış, xalqla Muxtar Respublika rəhbərliyi arasında həmrəylik və birlik yaradılmışdı. Ən başlıcası isə Naxçıvan MR

Ermənistanın silahlı təcavüzü və işğalı təhlükəsindən xilas olmuşdu. Böyük siyasətçinin müdrik və çoxcəhətli fəaliyyəti nəticəsində Muxtar Respublikada sosial-iqtisadi, siyasi, milli-mənəvi sahələrdə mütərəqqi nəticələr əldə edilmişdi. Əhalini ağır böhrandan, aclıq və səfalətdən qorumaq üçün səmərəli tədbirlər həyata keçirilmiş, qonşu Türkiyə və İranla iqtisadi, siyasi, mədəni əlaqələr yaradılmışdı. İqtisadi islahatların, daxili potensialın səfərbər edilməsi sayəsində əhalinin sosial vəziyyətini qismən yaxşılaşdırmaq mümkün olmuşdu.

Ağır sosial-iqtisadi böhrana, blokadaya, real təcavüz təhlükəsinə baxmayaraq, Muxtar Respublikada milli-mənəvi dəyərlərin bərpasında, mədəniyyətin, maarifin mövcud bazasının qorunub saxlanmasında və inkişafında ciddi uğurlar əldə edildi. Bir sözlə, Naxçıvan Muxtar Respublikasının bugünkü uğurlarının əsası məhz Heydər Əliyevin Muxtar Respublikaya rəhbərlik etdiyi 1991-1993-cü illərdə qoyuldu.

NAXÇIVAN TƏHSİLİ: YENİ HƏYAT QURUCULUĞU DÖVRÜNDƏ (1993-2003-CÜ İLLƏR)

Heydər Əliyevin başçılığı altında Naxçıvan Muxtar Respublikasında erməni təcavüzünə qarşı ölüm-dirim mübarizəsi aparıldığı, milli dövlət quruculuğu, sosial-iqtisadi böhrandan qurtulmaq istiqamətində qətiyyətli addımlar atıldığı, milli-mənəvi həyatın dirçəldilməsi sahəsində nəzərəçarpacaq uğurlar əldə edildiyi bir dövrdə Bakıda hakimiyyət uğrunda əsil savaş gedirdi. Siyasi hərc-mərclik, anarxiya davam etdikcə, rayonlarımız bir-bir erməni təcavüzünün qurbanına çevrilirdi. Ölkə müstəqilliyini itirmək, bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üzləşmişdi.

İctimai-iqtisadi, mənəvi-mədəni həyatın bütün sahələrində böhran getdikcə dərinləşirdi. Mürəkkəb ictimai-siyasi proseslər, Qarabağ münaqişəsi Azərbaycanın təhsil sisteminə də öz mənfi təsirini göstərmiş, onu dərin böhrana sürükləmişdi. Təhsildə geriləmənin səbəblərindən biri də 1992-ci ildə qəbul edilmiş Təhsil Qanunu olmuşdu. Təhsil quruculuğunda səriştəsizliyin, yalançı pafosun ən bariz nümunəsi olan həmin Qanun təhsilimizə vurulan ağır zərbə idi. Əslində 1991-1993-cü illər milli müstəqilliyin qorunması yolunda, digər sahələrdə olduğu kimi, təhsil sferasında da itirilmiş illər sayılır.

Belə bir mürəkkəb məqamda müdrik xalqımız yenidən öz əvəzsiz liderinə – Heydər Əliyevə üz tutdu. Heydər Əliyev dühası Azərbaycanda qardaş qırğınının qarşısını aldı, sabitliyi və əmin-amanlığı təmin etdi.

Azərbaycan onu gözləyən fəlakətdən, vətəndaş müharibəsindən, torpaqlarımızın işğal edilməsindən, ümumiyyətlə, yer üzündən bir ölkə kimi silinmə təhlükəsindən xilas oldu. Ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi, mənəvi-mədəni həyatında əsaslı dəyişikliklər dövrünün əsası qoyuldu, dövlətimizin beynəlxalq nüfuzu artmağa başladı.

Azərbaycan maarifi və təhsilin böyük himayədarı Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə təhsil sistemində də tənəzüllə son qoyuldu. Heydər Əliyevin Azərbaycana rəhbərliyə qayıdışından sonra təhsilə və elmə göstərilən diqqət və qayğı elə ilk günlərdən bir daha özünü göstərməyə başladı. ümummilli liderimizin təhsil sahəsində strateji xətti təhsil müəssisələrinin normal fəaliyyətini təmin etməklə, təhsilin milli tərəqqimizin həqiqi, güclü amilinə çevrilməsi üçün geniş islahatların hazırlanaraq həyata keçirilməsi təşkil edirdi. Bu məqsədlə 1998-ci ilin martında «Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında» sərəncam imzalayan dövlət başçısı 1999-cu ilin iyulunda «Azərbaycan Respublikasında təhsil sahəsində İslahat Proqramı»nı imzaladı. Həmin proqramda Azərbaycan təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, eyni zamanda milli təhsil ənənələrimizə sədaqət və varisliyə əməl olunması nəzərdə tutulurdu. İslahat Proqramının üç mərhələdə (1999, 2000-2003-cü illər, 2004-cü ildən sonrakı dövr) həyata keçirilməsi nəzərdə tutulurdu. İslahatların aparılmasının hüquqi-normativ bazasını yaratmaq məqsədilə müvafiq sənədlər hazırlanaraq təsdiq edilmiş, Təhsil Qanununun yeni layihəsi Milli Məclisin müzakirəsinə təqdim edilmişdi.

Heydər Əliyev, eyni zamanda təhsildə islahatların elmi şəkildə, hərtərəfli düşünülmüş şəkildə aparılmasının tərəfdarı idi: «İslahatlar, xüsusən təhsil, elm sahəsində islahatlar çox ağıllı, düşünülmüş şəkildə həyata keçirilməlidir. Dəb naminə yox, yalnız və yalnız əldə etdiyimiz səviyyədən daha yuxarı qalxmaq üçün təhsilin səmərəliliyini, elmin səmərəliliyini artırmaq üçün aparılmalıdır (27, s.89).

Heydər Əliyevin «İnsan, təhsilin əsasını orta məktəbdə alır. Ona görə də bütün təhsil sistemində orta məktəb ... xüsusi yer tutmalıdır» - konseptual göstərişini əsas tutaraq ümumi orta təhsilin ahəngdar inkişafı dövlət təhsil siyasətində aparıcı, həlledici yer tuturdu. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında (42-ci maddə) bütün vətəndaşların pulsuz icbari ümumi orta təhsil almaq hüququ təsbit olunmuşdur. Ölkə prezidentinin göstərişinə uyğun olaraq orta ümum-təhsil məktəblərinin bütün şagirdlərinin pulsuz dərsliklərlə təmin edilməsi təhsilə Heydər Əliyev qayğısının və himayəsinin ən bariz nümunəsi sayıl-malıdır. Azərbaycan təhsil tarixində ilk dəfə ümumi orta təhsilin dövlət standartları və bazis tədris planı 1993-cü ildə təsdiq olundu.

Yeni dərsliklərin yaradılması istiqamətində ciddi addımlar atıldı, dərsliklərin demək olar ki, hamısı məzmunca yeniləşdi. Dərsliklərin və kitab nəşrinin yeni latın qrafikalı əlifbaya keçirilməsi təhsil sistemində tamamilə öz həllini tapdı. Bütün bunların nəticəsində orta məktəblərin şəbəkəsi yüksək xətlə inkişaf edərək 2003-cü ildə əvvəlki illərlə müqayisədə xeyli artmışdı.

Müstəqillik illərində ölkənin ali təhsil pilləsi də həm məzmun, həm struktur, həm də kəmiyyət baxımından uğurlu inkişaf yolu keçmişdir. Ali təhsil tarixində ilk dəfə olaraq 1993-1994-cü tədris ilində ikipilləli ali təhsilə - 4 illik bakalavr və 2 illik magistraturaya keçirilmişdir. Dövlət ali məktəblərinin sayı 17-dən 2001-ci ildə 30-a çatmış, 18 qeyri-dövlət təhsil müəssisəsi fəaliyyətə başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 13 iyun 2000-ci il tarixli fərmanı ilə bir neçə ali məktəbə maliyyə müstəqilliyi, bir neçə instituta isə «Universitet» statusu verilmiş, ölkəmizdə analoqu olmayan Azərbaycan Müəllimlər İnstitutu və onun 12 regional filialı yaradılmışdır.

2001-ci ildə respublika təhsil sistemində 1814 məktəbəqədər tərbiyə müəssisəsi, 4561 ümumtəhsil məktəbi, 108 peşə liseyi və peşə məktəbi, 72 orta ixtisas təhsili (4 qeyri-dövlət), 48 ali təhsil müəssisəsi (18-i qeyri-dövlət, 6-sı xüsusi təyinatlı) fəaliyyət göstərirdi. Məktəbəqədər tərbiyə müəssisələrində həmin dövrdə 112280 uşaq tərbiyə, ümumtəhsil məktəblərində 1689682 şagird, texniki peşə müəssisələrində 24454 şagird, orta ixtisas təhsili müəssisələrində 42598 tələbə, ali təhsil müəssisələrində isə 123329 tələbə təhsil alırdı (6, s.219).

Müstəqillik illərində təhsil sahəsində beynəlxalq əlaqələr də genişlənmişdir. 2000-ci illərin əvvəllərində dünyanın inkişaf etmiş 40-a yaxın ölkəsində 160-a yaxın ixtisas üzrə 3000-dən artıq azərbaycanlı təhsil alırdı. Təqribən 50 xarici ölkədən isə Azərbaycanın ali məktəblərində 2000-dən çox tələbə, magistr, aspirant oxuyurdu. Azərbaycan ali məktəbləri AB, YUNESKO, İSESKO və digər beynəlxalq təşkilatların müxtəlif təhsil proqramları və layihələrində fəal iştirak etməyə başlamışdılar. Azərbaycan dünyanın 30-dan çox ölkəsi ilə ali təhsil sahəsində genişmiqyaslı əməkdaşlıq edirdi (6, s.219).

Heydər Əliyevin prezidentliyi dövründə təhsilin inkişafına ayrılan büdcə vəsaitlərinin ardıcıl olaraq artması (1995-ci ildə ümumi dövlət büdcəsinin 17 faizini, 2001-ci ildə 23 faizini təhsil xərcləri təşkil etmişdir – H.C.), həmin dövrdə təhsil işçilərinin əmək haqqını 9 dəfə artırmağa imkan vermişdir.

Azərbaycanın bütün regionlarının tarazlı inkişafı Heydər Əliyevin tərəqqi və inkişaf strategiyasının mühüm tərkib hissəsini təşkil edir. O,

ölkənin tərəqqisini və inkişafını hər bir bölgənin, rayonun tərəqqisi və inkişafı ilə vəhdətdə görürdü. İkinci dəfə hakimiyyətə qayıdışından sonra bütün Azərbaycan kimi, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi, mənəvi-mədəni inkişafı, problemlərin həlli yolunda Heydər Əliyev zəruri addımlar atmış, blokada şəraitində yaşamasına baxmayaraq, bölgənin tərəqqisi üçün bütün imkan və vasitələrdən istifadə etmişdi. Rəhbər Naxçıvanın bir Azərbaycan diyarı kimi mövcudluğunu, onun muxtariyyat hüququnun möhkəmləndirilməsi sayəsində mümkün olduğunu aydın dərk edərək bu istiqamətdə zəruri addımlar atmış, 1995-ci ildə qəbul edilmiş Konstitusiya ilə Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlət statusu əbədi müəyyənləşdirilmişdir. Bütövlükdə Naxçıvan Muxtar Respublikanın təhlükəsizliyinin, sosial-iqtisadi, mədəni inkişafının, onun muxtariyyət statusunun möhkəmləndirilməsi bilavasitə dahi rəhbərin yorulmaz fəaliyyəti ilə bağlıdır.

Heydər Əliyevin 1993-2003-cü illəri əhatə edən fəaliyyəti dövründə ölkədə aparılan siyasi, iqtisadi islahatlar, quruculuq işləri Naxçıvan Muxtar Respublikasının həyatında da öz müsbət təsirini göstərmiş, Muxtar Respublika ictimai, iqtisadi-mədəni həyatının bütün sahələrində bu dövrdə böyük nailiyyətlər qazanmışdır. Heydər Əliyev Muxtar Respublikanın sosial-iqtisadi problemlərinə daim diqqət yetirmiş, bölgədəki vəziyyəti ilə yerindəcə tanış olmaq üçün prezidentliyi dövründə beş dəfə Naxçıvana səfər etmişdi.

Heydər Əliyev Azərbaycan prezidenti seçildikdən sonra təqribən 2 il yarım müddətində Muxtar Respublikada ictimai-siyasi sabitlik davam etsə də, idarəçilikdə müəyyən boşluqlar yaranmış, Muxtar Respublikaya rəhbərlik edən şəxslər, eləcə də hakimiyyətin müxtəlif qolları arasında çoxtirəlik, ziddiyyətlər yaranmışdı. Nəticədə, xalqın Muxtar Respublika rəhbərliyinə inamı və etimadı xeyli aşağı düşmüşdü.

Yalnız 1995-ci ilin dekabrında Heydər Əliyevin ən yaxın silahdaşlarından biri, onun idarəçilik məktəbinin yetirməsi olan 36 yaşlı Vasif Yusif oğlu Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi ilə idarəetmədə təzahür edən mənfi meyillərin qarşısı alındı. Qısa müddət ərzində Vasif Talıbovun Muxtar Respublikanın ali vəzifəli şəxsi kimi atdığı addımlar, həyata keçirdiyi tədbirlər həm Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, həm də Muxtar Respublika əhalisi tərəfindən rəğbətlə qarşılandı və yüksək qiymətləndirildi. Vasif Talıbovun başçılığı altında bölgənin sosial-iqtisadi inkişafında, mədəni, siyasi həyatında ciddi keyfiyyət dəyişiklikləri baş verdi, sağlam ictimai-siyasi mühit yaradıldı, quruculuq və bərpa işləri genişlənməyə başladı.

Naxçıvana 1996-cı ildə ilk səfərində Heydər Əliyev burada yaranmış sağlam ictimai-siyasi mühiti, aparılan quruculuq işlərini yüksək qiymətləndirərək göstərirdi ki, Naxçıvan Muxtar Respublikasının rəhbərliyi – Ali Məclis, Nazirlər Kabineti, yerli hakimiyyət orqanları tərəfindən həyata keçirilən tədbirlər şəxsən məni sevindirir. Məhz bu barədə mütəmadi məlumatlar alıram və bu işlərə nəzarət edirəm. Amma eyni zamanda Naxçıvan şəhərində artıq baş vermiş böyük müsbət dəyişiklikləri və burada yaranmış mühiti, əhvali-ruhiyyəni görərkən daha da çox sevinirəm. Hesab edirəm ki, Naxçıvan Muxtar Respublika rəhbərliyi düzgün yoldadır. Siz birlikdə bu yolla böyük nailiyyətlər əldə edə biləcəksiniz (106, s.48). Heydər Əliyev Vasif Talıbovun quruculuq fəaliyyətini yüksək qiymətləndirərək 1999-cu ildə qeyd edirdi ki, «Mən məmnuniyyətlə demək istərdim ki, Naxçıvanda işlər lazımi səviyyədə gedir, Vasif Talıbovu bu vəzifəyə seçəndə mən onun çox xüsusiyyətlərini bilirdim. Amma o çox gənc idi. Daxilən bir az fikirləşdim ki, gəncliyinə görə bəlkə də ağır, çətin olar. Ancaq o sübut etdi ki, vətəninə, millətinə, xalqına sədaqətli olan adam yaşından asılı olmayaraq böyük işlər də görə bilər (53, s.271).

Əlbəttə, Naxçıvan Muxtar Respublikasında əldə edilmiş uğurlu nəticələr Heydər Əliyevin Azərbaycanda həyata keçirdiyi quruculuq siyasətinin, mütərəqqi islahatların məntiqi davamı və tərkib hissəsi idi.

Lakin etiraf etmək lazımdır ki, bütün bu uğurları əldə etmək heç də asan olmamışdı. Muxtar Respublikanın blokada şəraitində yaşaması, əvvəlki iqtisadi sistemin dağılması, 1993-1995-ci illərdə Muxtar Respublikaya rəhbərlikdə buraxılmış kobud səhvlər və digər obyektiv və subyektiv səbəblərdən 1990-cı illərin birinci yarısında Muxtar Respublika iqtisadiyyatı Azərbaycanın digər regionlarına nisbətən daha ağır vəziyyətdə idi. Özündən əvvəlki illərə nisbətən sənaye məhsulunun həcmi 1992-ci ildə 36,8 faiz, 1993-cü ildə 63,5 faiz, 1995-ci ildə isə 41,7 faiz aşağı düşmüşdü (103, s.30). 1997-ci ildə Muxtar Respublikada istehsal olunmuş sənaye məhsulunun ümumi həcmi 1990-cı il səviyyəsinin cəmi 9 faizinə, 1993-cü ildə isə 4,4 faizinə bərabər idi (65, s.48). 1995-ci ildə Naxçıvan Muxtar Respublikasında Azərbaycanın ümumi sənaye məhsulunun cəmi 0,53 faiz səviyyəsində (1990-cı ildə 2,24 faiz) məhsul istehsal edilmişdi. Bir sıra məhsulların istehsalı kəskin surətdə aşağı düşmüş, istehsalatda çalışan işçilərin sayı 4,3 dəfə azalmış, sənaye müəssisələrinin əksəriyyətinin fəaliyyəti dayanmışdı.

Naxçıvan Muxtar Respublikasının yeni rəhbərliyi Heydər Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyasına dönmədən əməl etməsi sayəsində qısa müddətdə Muxtar Respublika iqtisadiyyatını böhrandan çıxarmaq və sabit inkişafı təmin etmək müm-

kün oldu.

İqtisadiyyatın sabitləşdirilməsi, maliyyə sisteminin təkmilləşdirilməsi, idarəetmədə islahatların aparılması, struktur dəyişikliklərin həyata keçirilməsi, kadrlarla işin gücləndirilməsi nəticəsində artıq 1997-ci ildə Muxtar Respublikanın iqtisadiyyatında dirçəlişin ilk təzahürləri özünü göstərməyə başladı. Həmin ildə bir neçə sənaye müəssisəsində istehsal prosesi bərpa edilmiş, 1995-ci illə müqayisədə məhsul artımı 76% təşkil etmişdi. 1996-1997-ci illərdə Muxtar Respublikanın kənd təsərrüfatında da m ühüm dəyişikliklər baş vermişdi. 1996-cı ildə taxıl tədarükü planı 90-cı illərin əvvəllərindən ilk dəfə olaraq yerinə yetirilmiş və 5893 ton taxıl tədarük edilmişdi. İlk dəfə olaraq 15 min ton şəkər çuğunduru yetişdirilmişdi ki, bu da yerli ehtiyacın 56-60%-ni təşkil edirdi (106, s.54). 1995-ci illə müqayisədə 2000-ci ildə kənd təsərrüfatı məhsullarının istehsalının ümumi həcmi 3,3 dəfə artmışdı (76, s.108). Bütün kənd təsərrüfatı məhsullarının hamısı özəl bölmədə istehsal olunmuşdu. Kənd təsərrüfatında həyata keçirilən islahatlar, özəlləşdirmə və fermerlərə dövlət dəstəyi sayəsində bütün kənd təsərrüfatı məhsulları üzrə 1995-2001-ci illərdə yüksək nəticələr əldə edilmişdi ki, bu Muxtar Respublika əhalisinin ərzaq ehtiyaclarını əsasən yerli istehsal hesabına ödəməyə imkan vermişdi.

1995-ci ildən sonra Muxtar Respublika sənayesi, tikinti, rabitə, energetika bazasının inkişaf etdirilməsi sahəsində də ciddi uğurlar əldə edilmişdi. 1995-ci illə müqayisədə 2000-ci ildə ümumi məhsul istehsalı Muxtar Respublika üzrə 2,4 dəfə, sənaye məhsulu istehsalı 1,7 dəfə, tikintidə əsas kapital qoyuluşu5 dəfə, rabitə xidmətlərinin xərci 3,8 dəfə artmışdı. Həmin illərdə tikinti-abadlıq, quruculuq, infrastruktur işlərinin genişləndirilməsi sahəsində də mühüm addımlar atılmışdı. Həyata keçirilən tikinti işlərinin əksəriyyətini sosial təyinatlı obyektlər təşkil etmişdir. 32 körpü salınmış, 17 körpü əsaslı təmir edilmiş, 200 km-ə yaxın yol tikilmiş və ya təmir edilmişdir (74, s.83-85).

1996-2000-ci illərdə 5 nəşriyyat və mətbəə istifadəyə verilmiş, 37 səhiyyə obyekti tikilmiş və ya təmir edilmiş, 70 park və xiyaban təmir olunmuş və ya yenisi salınmış, 15 sosial xidmət obyekti, 10 məscid tikilmiş və ya əsaslı bərpa edilmişdi (74, s.83-85).

2000-ci ildən sonrakı dövrdə də Heydər Əliyevin inkişaf strategiyasına uyğun olaraq, Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafın dinamikliyi təmin edilməklə mühüm göstəricilərə nail olunmuşdu. 2000-ci illə müqayisədə 2003-cü ildə sənaye istehsalı 1,4 dəfə artmışdı (1, 2004, 15 may). Sənaye istehsalının 54%-i özəl sektorun payına düşürdü. 2003-cü ildə bütün maliyyə mənbələri hesabına investisiyaların həcmi 2000-ci ilə nisbətən 5,1 dəfə, əsas fondların dəyəri 1,9 dəfə,

tikintinin ümumi məhsulunun həcmi 8 dəfə artmışdı (76, s.52-53).

Aparılmış islahatlar nəticəsində kənd təsərrüfatında tənəzzülünün qarşısı alınmış və 2000-ci ildən bu sahədə inkişaf dönməz xarakter almışdır. Belə ki, 2003-cü ildə kənd təsərrüfatı məhsulu 1990-cı ilə nisbətən 2,4, 1995-ci ilə nisbətən 3,1 dəfə, 2000-ci illə nisbətən isə 1,7 dəfə artmışdır (1, 2004, 15 may).

2000-2003-cü illərdə Muxtar Respublikanın nəqliyyat, rabitə, energetika, ticarət sahələrində də ciddi müsbət dəyişikliklər baş vermiş, bütün bunlar isə Muxtar Respublika əhalisinin həyat səviyyəsinin yüksəlməsinə, maddi rifah halının yaxşılaşmasına təsir göstərmişdir.

Naxçıvan Muxtar Respublikasının əlverişli geosiyasi vəziyyətini nəzərə alan Muxtar Respublika rəhbərliyi Heydər Əliyevin göstəriş və tövsiyələrinə uyğun olaraq xarici iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsinə, bu əlaqələrin sosial-iqtisadi inkişafın mühüm amilinə çevrilməsinə nail olmuşdur. Əvvəllər olduğu kimi Naxçıvan Muxtar Respublikasının xarici əlaqələrində Türkiyə Cümhuriyyəti və İran İslam Cümhuriyyəti ilə əlaqələr mühüm yer tutmaqda davam edirdi. Ali Məclisin Sədri Vasif Talıbovun bu qonşu ölkələrə çoxsaylı səfərlərində Muxtar Respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı məsələlər müzakirə edilmiş, bölgənin problemlərinin həllini nəzərdə tutan bir sıra müqavilələr və razılaşmalar əldə edilmişdir. Azərbaycan rəhbərliyinin dəstəyi sahəsində Naxçıvan Muxtar Respublikasının xarici əlaqələrinin coğrafiyası genişlənərək bir sıra xarici dövlətləri əhatə etmişdir. Nəticədə Muxtar Respublikaya xarici investisiyalar daxil olmuş, beynəlxalq layihələrin həyata keçirilməsinə başlanmışdı. Artıq 2003-cü ildə Naxçıvan Muxtar Respublikasının xarici ticarət dövriyyəsi əvvəlki illə müqayisədə 15,6 faiz artaraq 36966,4 min ABŞ dolları təşkil etmişdir. Xarici ticarət dövriyyəsində iştirak edən ölkələrin sayı da artmışdı. Naxçıvan Muxtar Respublikası dünyanın 16 ölkəsi ilə ticarət əlaqəsi yaratmışdır (74, s.133). Naxçıvanda bir neçə beynəlxalq təşkilatların nümayəndələri fəaliyyət göstərməyə başladı.

1997-ci ilin yayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri V.Talıbovun başçılığı ilə Azərbaycan nümayəndə heyətinin ABŞ-a səfəri, səfər müddətində Konqresin, Senatın üzvləri ilə keçirdiyi görüşlər Azərbaycan, onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası haqqında ABŞ rəsmi dairələrində, geniş ictimaiyyətdə daha dolğun və obyektiv təsəvvür formalaşmasına müsbət təsir göstərdi.

Vasif Talıbovun rəhbərliyi altında Muxtar Respublikanın bütün şəhər və kəndlərində abadlıq, təmizlik, quruculuq işlərinə başlanmış, milli və müasir memarlığın nailiyyətlərini özündə əks etdirən meydançalar, istirahət bağları və parkları, şəhidlər xiyabanları, yaraşıqlı klub və

mədəniyyət evləri, məscidlər və binalar, mehmanxanalar tikilmiş, körpülər və yollar inşa edilmişdir. Əhalinin su, qaz, istilik, elektrik energisi ilə təminatını yaxşılaşdırmaq üçün zəruri tədbirlər həyata keçirilmişdir.

Muxtar Respublikanın sosial sahələrinin inkişafında çox mühüm keyfiyyət dəyişiklikləri baş vermişdir. Bunu səhiyyə, idman,demokrafik inkişaf sahələrində vəziyyəti əks etdirən göstəricilər də sübut edirdi. 2003-cü ildə Naxçıvan Muxtar Respublikasında 55 xəstəxana, 329 çarpayılı olan 87 qadın məsləhətxanası, uşaq poliklinikası və amblatoriyası, 2 müstəqil stamatoloji poliklinika və 7 təcili yardım stansiyası fəaliyyət göstərirdi. Həmin tibb müəssisələrində bütün ixtisaslardan olan 723 həkim və 2974 nəfər orta tibb işçisi çalışırdı. Bütün bunlar Muxtar Respublikada səhiyyənin inkişaf səviyyəsinin ümumrespublika səviyyəsinə uyğun olduğunu göstərirdi (76, s.39-104).

Naxçıvan Muxtar Respublikasında idman və bədən tərbiyəsinin inkişafı üçün geniş imkanlar yaradılmasına başlanmışdı. Naxçıvan şəhərində yerləşən İ.Axundov adına Mərkəzi stadion Avropa standartlarına uyğun yenidən qurulmuş, «Dinamo» İdman Cəmiyyətinin salonu əsaslı təmir edilmiş, ətrafında isə gənclərin fiziki hazırlıqlarını inkişaf etdirmək üçün hər cür şərait yaradılmışdır. 2004-cü ildə Muxtar Respublikada tribunaları 1500-dən çox yeri olan 2 stadion, tutumları 1500-dən az yeri olan 13 stadion, 957 sadə idman meydançası, 129 idman zalı, 71 atıcılıq tiri, 1 üzgüçülük hovuzu, 1 olimpiya idman kompleksi, 1 sağlamlıq kompleksi, 27 uyğunlaşdırılmış otaq, Şərur rayonunda əl oyunları mini-idman kompleksi əhalinin istifadəsində idi. Üzgüçülük İdman Mərkəzi beynəlxalq standartlara uyğun tikilmişdir. MR GİTN nəzdində fəaliyyət göstərən Uşaq Gənclər İdman Mərkəzi (UGİM) dayaq idman bazası kimi yeniyetmə idmançıların yetişməsində xüsusi rol oynayırdı. Muxtar Respublikada 14 idman növü üzrə federasiyalar fəaliyyətə başlamışdı. Federasiyalar 2002-ci ildə rəsmi qeydiyyatdan keçdikdən sonra idmanın boks, basketbol, sərbəst güləş, karete-do növləri üzrə bir çox rayonlarda və ən ucqar kəndlərdə yeni-yeni bölmələri açılmış, federasiya tərəfindən məşqçi-müəllimlər təyin edilmişdir.

Naxçıvan Muxtar Respublika Təhsil Nazirliyinin nəzdində 7 Uşaq Gənclər İdman Məktəbi (UGİM) və 7 Uşaq Gənclər Şahmat Məktəbi (UGŞM) fəaliyyət göstərirdi. İdman qurğularının sayı 2003-cü ildə 1995-ci illə müqayisədə 1,7 dəfə artaraq 948 ədədə, bədən tərbiyəsi və idmanla məşğul olanların sayı isə 1,2 dəfə artaraq 28,9 min nəfərə bərabər olmuşdur.

Muxtar Respublikanın idmançıları Azərbaycanda və dünyada keçirilən idman yarışlarında uğurlar qazanmağa başlamış, Naxçıvanın

idman tarixində ilk dəfə olaraq Avropa və dünya çempionatında iştirak etmişdilər.

Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasının demokrafik inkişafında da mütərəqqi meyillər özünü göstərməyə başlamışdı. Belə ki, 1990-2003-cü illərdə Muxtar Respublika əhalisinin sayı 23,1 faiz artaraq 300,5 min nəfərdən 369,8 min nəfərə çatmış, şəhər yerlərində 23,4 faiz artaraq 88,9 min nəfərdən 109,7 min nəfərə, kənd yerlərində isə 22,9 faiz artaraq 211,6 min nəfərdən 260,1 min nəfərə çatmışdı. Ölkə əhalisinin 4,5 faizini təşkil edən Naxçıvan Muxtar Respublika əhalisinin 29,7 faizi şəhərlərdə, 70,3 faizi isə kəndlərdə yaşayırdı. 2003-cü ildə əhalinin hər 1000 nəfərinə doğulanların sayı 14,7, ölənlərin sayı 5,8, təbii artım 8,9 vahid təşkil etmişdi (76, s.104-105). İnsan inkişafının əsas göstəricilərindən biri olan doğulanda gözlənilən ömür uzunluğu Muxtar Respublikada 2003-cü ildə 69,6 faizə bərabər olmuşdur ki, bu da ümumölkə göstəricisindən (72,31%) çox aşağı idi. 1999-cu ilin əhalinin siyahıyaalınmanın nəticələrinə görə Muxtar Respublika əhalisinin mütləq əksəriyyətini azərbaycanlılar təşkil edirdi ki, bu da qanunauyğun olaraq, bu torpağın tarixən azərbaycanlılara mənsub olması ilə əlaqədar idi.

Heydər Əliyevin diqqət və qayğısı sayəsində Naxçıvan Muxtar Respublikasının mədəniyyəti, elm və təhsil sistemi yenidən dirçəlməyə və sürətlə inkişaf etməyə başlamışdı. Muxtar Respublikada milli-mənəvi dəyərlərimizin qorunması və təbliğinə böyük diqqət verilirdi. Ali Məclisin Sədri Vasif Talıbovun bilavasitə rəhbərliyi altında sosial-mədəni obyektlərin tikilməsi və fəaliyyətlərinin canlandırılması üçün zəruri tədbirlər həyata keçirilirdi. 1996-2001-ci illərdə Muxtar Respublikada 8 muzey, 6 tarixi abidə yaradılmış, 23 mədəniyyət obyekti bərpa edilmiş, 20 yeni park və xiyaban salınmışdı. Tarixi abidələrin, müqəddəs yerlərin bərpası da diqqət mərkəzində olmuşdur (74, s.80-81). Mədəniyyətə dövlət qayğısı qısa müddət ərzində öz müsbət bəhrəsini vermişdir. 2003-cü ildə Muxtar Respublikada 292 kitabxana, 245 klub, 20 muzey, 2 peşəkar teatr və 1 filarmoniya fəaliyyət göstərirdi.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikanın inkişafında xidmətləri olan insanların əməyini də layiqincə qiymətləndirirdi. Onun fərmanları ilə 5 nəfər «Şöhrət» ordeni, 9 nəfər «Azərbaycan bayrağı» ordeni, 12 nəfər müxtəlif medallarla təltif olunmuş, 3 nəfərə isə Azərbaycan Respublikasının fəxri adları verilmişdir (1, 2004, 10 oktyabr).

Naxçıvanda Azərbaycan xalqının ümummilli liderinin dövlətçilik təcrübəsini və idarəetmə məktəbinin öyrənilməsi və təbliği, onun ideya-nəzəri irsinin gələcək nəsillərə çatdırılması sahəsində də böyük işlər görülmüşdü. Naxçıvan şəhərində Heydər Əliyev muzeyi və kitabxanası

yaradılmış, Naxçıvan Dövlət Universitetində isə «Heydər Əliyev Universiteti» təsis edilmişdir.

Azərbaycanın yaradıcı birliklərinin Naxçıvan Muxtar Respublikasında bölmələri müstəqil təşkilatlara çevrilmiş, Muxtar Respublikada yaşayan ziyalıların fəaliyyəti üçün bütün imkanlar yaradılmışdır. Bu isə öz növbəsində Naxçıvanda mədəni və ədəbi mühitin canlanmasına və inkişafına şərait yaratmışdır. Naxçıvanda yaradılmış beş nəşriyyatda («Əcəmi», «Qeyrət», «Tusi», «Məktəb», «Şərq qapısı» qəzetinin mətbəəsi) 1996-cı ildən 2001-ci ilədək yerli müəlliflərin 100-dən çox elmi, bədii əsərləri, məcmuələri nəşr edilmişdi (74, s.90-91).

Naxçıvan Muxtar Respublikasında maarifin və elmin sürətli inkişafı da Heydər Əliyevin adı və fəaliyyəti ilə bilavasitə bağlıdır.

1996-cı ildən başlayaraq Naxçıvan Muxtar Respublikasının büdcə xərclərində təhsilə, ümumiyyətlə sosial sahələrə ayrılan xərclərin xüsusi çəkisi artmağa başladı. 2003-cü ildə büdcə xərclərinin 38,1%-i təhsil, 0,6%-i elm, 6,9%-i səhiyyə, 5,1%-i isə mədəniyyət xərcləri təşkil etmişdir. Başqa sözlə, büdcənin 50%-dən çoxu sosial yönümlü xərclərin maliyyələşdirilməsinə yönəldilmişdir. Bütövlükdə büdcə xərclərinin sahəvi təsnifatında sosial yönümlü tədbirlərin maliyyələşdirilməsinə çəkilən xərclərin xüsusi çəkisi 87,7 faizə bərabər idi. Xərclərin maliyyələşdirilməsi zamanı meydana gələn kəsr isə başlıca olaraq mərkəzləşdirilmiş vəsait hesabına maliyyələşir (1996-cı ildə muxtar respublika üzrə büdcə xərclərinin 55,4 faizi, 2003-cü ildə isə 72,2 faizi bu hesaba maliyyələşirdi. Statistik məlumatlara görə 2002-ci ildə büdcə vəsaitinin 47,5 mird. manat, yaxud 40 faizi təhsilə xərclənmiş, 2003-cü il büdcə xərclərinin 38,1 faizi təhsilə xərclənmişdi.

Təhsilə ayrılan xərclərin ilbəil artması sayəsində Naxçıvan Muxtar Respublikasında mədəni-maarif müəssisələrinin, məktəblərin tikintisi və əsaslı surətdə bərpasına imkan yarandı. 1996-2000-ci illərdə Muxtar Respublikada 11 mindən artıq şagird yeni olan 45 orta ümumtəhsil məktəbi, şahmat məktəbi, C.Naxçıvanski adına Hərbi liseyin filialı, Naxçıvan Dövlət Universitetinin 1600 yerlik tədris korpusu, universitetdə pediatriya ixtisası üzrə 600 yerlik tədris korpusu və 40 çarpayılıq xəstəxana, 4 uşaq bağçası, 2 musiqi məktəbi, 3 kompüter mərkəzi tikilmiş, Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan filialı və Naxçıvan tibb məktəbi üçün yeni bina, 18 ümumtəhsil binası yenidən qurulmuşdur (74, s.12).

1991-2001-İLLƏR ƏRZİNDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TİKİLMİŞ VƏ ƏSASLI TƏMİR OLUNMUŞ TƏHSİL MÜƏSSİSƏLƏRİ

№	Obyektlərin adı	İstifadəyə verilmə tarixi	Şagird yeri
1	Şərur rayon Kosacan kənd məktəbi	1991	216
2	Şahbuz qəsəbə məktəbinin genişlənməsi	1991	240
3	Şərur rayon Qaraburc kənd məktəbi	1992	190
4	Şərur rayon Axaməd kənd məktəbi	1992	216
5	Culfa rayon Teyvaz kənd məktəbi	1992	198
6	Babək rayon Xıncab kənd məktəbi	1992	240
7	Babək rayon Kərimbəyli kənd məktəbi	1993	270
8	Babək rayon Çalxanqala kənd məktəbi	1993	180
9	Babək rayon Qoşadizə kənd məktəbi	1994	120
10	Şahbuz rayon Biçənək kənd məktəbinin genişlənməsi	1994	100
11	Naxçıvan şəhər 5 saylı orta məktəbin genişlənməsi	1995	180
12	Naxçıvan şəhər 13 saylı orta məktəbi	1996	320
13	Babək rayon Cəhri kənd 3 saylı orta məktəbi	1996	604
14	Şərur rayon Diyadın kənd orta məktəbi	1996	192
15	Naxçıvan şəhər 14 saylı orta məktəbi	1997	320
16	Naxçıvan şəhər türk litseyinin yeni tədris korpusu	1997	120
17	Naxçıvan şəhər şahmat mərkəzi	1997	80
18	Babək rayon Güznüt kənd orta məktəbi	1997	360
19	Babək rayon Çeşməbasar kənd orta məktəbi	1997	320
20	Culfa rayon Kırna kənd orta məktəbi	1997	320
21	Şahbuz rayon Şada kənd orta məktəbi	1997	120
22	Sədərək rayon Qaraağac kənd orta məktəbi	1997	120
23	Babək rayon Nehrəm kənd 3 saylı orta məktəbi	1998	604
24	Şərur rayon Yeni Kərki kənd orta məktəbi	1998	80
25	Şərur rayon Sərxanlı kənd orta məktəbi	1998	320
26	Şahbuz rayon Tırkeş kənd orta məktəbi	1998	120

27	C.Naxçıvanski adına hərbi məktəbin Naxçıvan filialı üçün yeni tədris korpusu	1999	320
28	Naxçıvan Dövlət Universitetinin tədris korpusu	1999	1600
29	Babək rayon Kültəpə kənd orta məktəbi	1999	320
30	Ordubad rayon Yuxarı Əylis kənd orta məktəbi	1999	320
31	Ordubad rayon Pəzməri kənd məktəbi	1999	90
32	Culfa rayon Saltaq kənd orta məktəbi	1999	360
33	Naxçıvan Dövlət Universitetinin tibb korpusu	2000	600
34	Babək rayon Sirab kənd orta məktəbi	2000	624
35	Babək rayon Qoşadizə kənd orta məktəbi	2000	320
36	Şərur rayon Qortçulu kənd orta məktəbi	2000	216
37	Ordubad rayon A.Aza kənd orta məktəbi	2000	504
38	Culfa rayon Şurut kənd orta məktəbi	2000	120
39	Şahbuz rayon Biçənək kənd orta məktəbi	2000	320
40	Babək rayon Yuxarı Buzqov kənd məktəbi	2001	120
41	Babək rayon Kərməçataq kənd orta məktəbi	2001	120
42	Şərur rayon Dərvişlər kənd orta məktəbi	2001	216
43	Şərur rayon Havuş kənd məktəbi	2001	60
44	Culfa rayon Əpəfsə kənd orta məktəbi	2001	320
45	Babək rayon Aşağı Buzqov kənd orta məktəbi	2001	420
46	Şərur şəhər 2 saylı orta məktəbi	2001	1200
47	Ordubad şəhər 3 saylı orta məktəbi	2001	220
48	Şahbuz rayon Keçili kənd orta məktəbi	2001	504

ƏSASLI TƏMİR EDİLƏN VƏ YENİDƏN QURULAN TƏHSİL MÜƏSSİSƏLƏRİ

1	Babək rayon Vayxır kənd orta məktəbi	1997	170
2	Naxçıvan şəhər 1 saylı orta məktəbi	1998	1000
3	Babək rayon Qahab kənd orta məktəbi	1999	504
4	Şərur şəhər 1 saylı orta məktəbi	1999	1176
5	Şərur rayon Siyaqut kənd orta məktəbi	1999	190
6	Ordubad rayon Üstüpü kənd orta məktəbi	1999	320
7	Naxçıvan şəhər 10 saylı orta məktəbi	2000	1006
8	Naxçıvan şəhər 11 saylı orta məktəbi	2000	1176
9	Babək rayon Qaraçuq kənd orta məktəbi	2000	1120
10	Şərur rayon Aralıq kənd orta məktəbi	2000	624
11	Sədərək rayon 1 saylı orta məktəbi	2000	1176
12	Babək rayon Nəcəfalı Dizə kənd məktəbi	2001	120
13	Babək rayon Qahab kənd əsas məktəbi	2001	120
14	Şərur rayon Dəmirçi kənd orta məktəbi	2001	320
15	Sədərək rayon Heydərabad qəsəbə orta məktəbi	2001	740
16	Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan filialı	2001	800
17	«Heyran xanım» adına Naxçıvan Tibb Texnikumu	2001	600
18	Naxçıvan şəhər 8 saylı orta məktəbi	2001	720

TİKİLƏN UŞAQ BAĞÇALARI

1	Şərur şəhərində uşaq bağçası	1992	280
2	Babək rayon Şıxmahmud kənd uşaq bağçası	1992	100
3	Babək qəsəbəsində uşaq bağçası	1996	50

ƏSASLI TƏMİR EDİLƏN UŞAQ BAĞÇALARI			
1	Naxçıvan şəhər 3 saylı uşaq bağçası	2000	140

YENİ YARADILAN MUSİQİ MƏKTƏBLƏRİ

1	Şərur rayon Aralıq kənd musiqi məktəbi	1999	
2	Babək rayon Kültəpə kənd musiqi məktəbi	2000	

KOMPÜTER TƏDRİS MƏRKƏZLƏRİ

1	Naxçıvan Kompüter Mərkəzi	1999	
2	Naxçıvan Kompüter Mərkəzinin tədris şöbəsi	2001	
3	Naxçıvan Kompüter Mərkəzinin Şərur rayon filialı	2001	

İSTİFADƏYƏ VERİLMİŞ REDAKSİYA-NƏŞRİYYAT VƏ POLİQRAFİYA MÜƏSSİSƏLƏRİ

1	Naxçıvan Dövlət Universitetinin «Qeyrət» nəşriyyatı və mətbəəsi	1997	
2	Redaksiya-nəşriyyat kompleksi	2000	
3	«Əcəmi» Nəşriyyat-Poliqrafiya Birliyinin mətbəəsi	2000	

Muxtar Respublikada təhsil sisteminin əsas halqalarından biri məktəb yaşına çatmamış uşaqların tərbiyəsi ilə məşğul olan məktəbəqədər müəssisələr şəbəkəsi təşkil edir. Məktəbəqədər tərbiyə müəssisələri təhsil sisteminin ayrılmaz hissəsi və başlanğıc pilləsidir. Belə müəssisələrin fəaliyyətinin əsas məqsədi məktəbəqədər yaşlı uşaqların sağlamlığının mühafizə edilməsi, ailə ilə birlikdə onların tərbiyə olunması və körpə yaşlı uşağı olan anaların işləməsini mümkün edən şəraiti yaratmaqdan ibarətdir.

Naxçıvan Muxtar Respublikasında 1993-2003-cü illərdə mövcud olmuş məktəbəqədər uşaq müəssisələri haqqında aşağıdakı cədvəldə daha geniş məlumat verilmişdir.

Naxçıvan MR-da dövlət məktəbəqədər uşaq müəssisələri (ilinin sonuna)

İllər	1990	1995	2000	2001	2002	2003
Daimi məktəbəqədər uşaq müəssisələrinin sayı	88	104	103	99	100	90
O cümlədən şəhər	30	29	30	32	32	31
Kənd	58	75	73	67	68	59
Daimi məktəbəqədər uşaq müəssisələrində uşaqların sayı – cəmi, nəfər	6075	6719	5507	5207	5183	4701
O cümlədən: şəhər	3700	2570	2625	2566	2544	2331
Kənd	2375	3149	2882	2641	2639	2370

Cədvəldəki məlumatlarından göründüyü kimi, Muxtar Respublikada daimi məktəbəqədər müəssisələrin sayı 2003-cü ildə 1990-cı ilə nisbətən cüzi (2 müəssisə) artmış, bu müəssisələrdəki uşaqların sayında isə azalma olmuşdur. Belə ki, daimi məktəbəqədər uşaq müəssisələrindəki uşaqların sayı isə 2003-cü ildə 1990-cı ilə nisbətən 1,3 dəfə, 1995-ci ilə nisbətən isə 1,2 dəfə azalaraq 4701 nəfərə bərabər olmuşdur. Məktəbəqədər uşaq müəssisələrinin 1990-cı ildə 65,9 faizi, 2003-cü ildə

65,6 faizi, orada saxlanan uşaqların müvafiq olaraq 39,1 faizi və 50,4 faiz kənd yerlərinin payına düşmüşdür. Ölkə üzrə isə bu göstəricilər 2003-cü ildə müvafiq olaraq 42,7 faiz və 28,8 faizə bərabər olmuşdur. Göründüyü kimi, Muxtar Respublikada məktəbəqədər uşaq müəssisələrinin və orada saxlanan uşaqların sayına görə kənd yerlərinin xüsusi çəkisi ölkə üzrə orta göstəricidən yüksək idi.

2002-2003-cü dərs ilində Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərindəki günüuzadılmış qruplar haqqında məlumat

№	Rayon (şəhər) Təhsil şöbəsi	Qrupların sayı			Şagirdlərin sayı		
		I-IV	I-XI	Cəmi	I-IV	I-XI	cəmi
1	Naxçıvan şəhər TŞ-si	35	8	43	70	160	230
2	Şərur rayon TŞ-si	56	1	57	1196	20	1216
3	Babək rayon TŞ-si	18	--	18	360	--	360
4	Ordubad rayon TŞ-si	19	--	19	380	--	380
5	Culfa rayon TŞ-si	19	3	22	380	60	440
6	Şahbuz rayon TŞ-si	40	--	40	800	--	800
7	Cəmi	187	12	199	3186	240	3426

Qeyd:

1. Naxçıvan şəhər Xanım qızlar liseyinin I, V-IX siniflərində 8 günüuzadılmış qrup var idi. Qruplara 191 şagird cəlb edilmişdi.

2. Nazirliyin tabeliyində olan Naxçıvan Türk liseyində 500, Xanım qızlar liseyində 191 və Zeynəddin kənd Kənd təsərrüfatı təmayüllü məktəb müəssisə kompleksində 280, cəmi 1662 şagird isti yeməklə təmin edilmişdi.

2001-2002-gi dərs ilinə aid Naxçıvan MR üzrə günüuzadılmış qruplar haqqında məlumat

№	Məktəbl ə-rin adı və tipi	Günüuzadılmış qrupların sayı	Onlarda oxuyanlar	O cümlədən I-IV sinif-lərdə oxuyanlar	Tərbiyəçilərin sayı	Onlarda günüuzadılmış qruplardadərs	O cümlədən I-IV	Məktəblərdə sinif	Məktəblərdə əlavə otaqlarının sayı (Ü üzrə
1	Naxçıva n şəhəri	51	102 0	760	51	51	38	39 3	467
2	Şərur rayonu	65	144 5	138 5	65	64	62	91 0	-
3	Babək rayonu	22	440	286 5	22	22	22	36 0	-
4	Ordubad rayonu	20	400	400	20	20	23	-	-
5	Culfa rayonu	29	500	20	29	20	20	-	-
6	Şahbuz rayonu	45	900	660	58	58	40	-	-
7	Cəmi:	232	470 5	609 0	245	235	205	-	-

Naxçıvan Muxtar Respublikası təhsilində 2003-cü ilə qədərki dövrdə inkişafı aşağıdakı cədvəldən daha aydın görmək olar.

Naxçıvan Muxtar Respublikasında təhsilin əsas göstəriciləri (dərs linin əvvəlinə)

İllər	1990	1995	2000	2001	2002	2003
Gündüz ümumtəhsil məktəblərinin sayı	217	227	233	234	233	232
Onlarda uşaqların sayı – cəmi nəfər	63633	68756	73691	74068	73994	72179
Axşam (qiyabi) ümumtəhsil məktəblərinin sayı	6	1	1	1	1	1
Onlarda uşaqların sayı – cəmi nəfər	2011	4303	5319	2865	1632	406
Peşə məktəblərinin və peşə litseylərinin sayı – cəmi nəfər	10	11	6	6	6	6
Onlarda uşaqların sayı – cəmi nəfər	4099	1230	772	812	686	579
Orta ixtisas təhsil müəssisələrinin sayı – cəmi nəfər	4	5	4	4	4	4
O cümlədən: dövlət	4	4	3	3	3	3
Qeyri-dövlət	-	1	1	1	1	1
Orta ixtisas təhsil müəssisələrində tələbələrin sayı, nəfər	1811	1351	1235	1016	1039	1227
Dövlət	1811	1125	1102	905	982	1161
Qeyri-dövlət	-	226	133	111	57	66
Ali məktəblərin	1	1	2	2	2	3

sayı						
O cümlədən: dövlət	-	-	1	1	1	2
Qeyri-dövlət	-	-	1	1	1	1
Ali məktəblərdə tələbələrin sayı, nəfər	2229	2254	3307	3838	4532	4390
O cümlədən: dövlət	2229	2254	2037	3130	3371	3630
Qeyri-dövlət	-	-	1270	708	1161	760

2003-cü ildə Muxtar Respublikada məktəblərin sayı 1990-cı ilə nisbətən 6,9 faiz, 1995-ci ilə nisbətən isə 2,2 faiz artmışdır. Bu ildə Muxtar Respublikada fəaliyyət göstərən 232 gündüz ümumtəhsil məktəblərindən 10-u ibtidai, 19-u əsas, 202-si orta təhsil və 1-i xüsusi məktəb idi.

Naxçıvan MR-də dövlət ümumtəhsil məktəbləri
(dərs linin əvvəlinə)

İllər	1990	1995	2000	2001	2002	2003
Məktəblərin sayı	217	227	233	234	233	232
O cümlədən: ibtidai	18	16	12	11	10	10
Əsas	34	22	24	24	23	19
Orta	165	189	197	199	200	202
Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi məktəblər	-	-	-	-	-	1
Şagirdlərin say cəmi, nəfər	63633	68756	73691	74068	73994	72179
O	283	436	278	270	260	248

cümlədən: ibtidai						
Əsas	3591	2246	1654	1974	1736	1352
Orta	59747	66074	71759	71824	71998	70573
Müəllimlərin sayı, nəfər	7200	8382	8216	8947	8736	8687

Bu təhsil ocaqlarında oxuyan şagirdlərin sayı 72179 nəfər olmuşdur. Onların 248 nəfəri ibtidai məktəblərdə, 1352 nəfəri əsas, 70573 nəfəri orta məktəblərdə, 6 nəfəri isə xüsusi məktəblərdə təhsil alanlardır.

Muxtar Respublikanın gündüz ümumtəhsil məktəblərində 8687 nəfər müəllim çalışırdı. Bu ümumtəhsil məktəblərində dərs deyən müəllimlərin sayı 1990-cı ildə 7200 nəfər təşkil etmişdir. Başqa sözlə, bu göstərici 2003-cü ildə 1990-cı ilə nisbətən isə 20,7 faiz artmışdır.

Ümumtəhsil məktəblərində əsas göstəricilərdən biri də dərslərin növbəliliyidir.

Naxçıvan MR-da dövlət ümumtəhsil məktəblərində dərslərin növbəliyi (sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi məktəblər istisna olmaqla; dərs ilinin əvvəlinə)

İllər	1995-1996	2000-2001	2001-2002	2002-2003	2003-2004
Məktəblərin sayı – cəmi	227	233	234	233	232
Onlarda dərs keçirilən məktəblərin sayı: bir növbədə	94	104	102	121	117
İki və üç növbələrdə	133	129	132	112	115
Məktəblərin ümumi sayına nisbətən, faizlə: bir növbədə	41	45	44	52	50,43

İki və üç növbələrdə	59	55	56	48	49,57
Şagirdlərin say - cəmi, nəfər	68756	73691	74068	73994	72179
Onlardan məşğul olan şagirdlərin sayı, nəfər: birinci növbədə	48388	54605	55732	56792	54512
İkinci və üçüncü növbələrdə	20368	19086	18336	17202	17667
Şagirdlərin ümumi sayına nisbətən, faizlə: birinci növbədə	70	74,1	75,2	77	75,5
İkinci və üçüncü növbələrdə	30	25,9	24,8	23	24,5

Onu da qeyd etmək lazımdır ki, Muxtar Respublikada məktəblərin ümumi sayına nisbətən 2003-2004-cü tədris ilində 50,43 faiz bir növbədə və 49,57 faiz isə iki və üç növbələrdə, ölkə üzrə isə bu göstərici müvafiq olaraq 29,2 faiz və 70,8 faiz olmuşdur. Göründüyü kimi, Muxtar Respublikada məktəblərdə bir növbəli təhsilin təşkili üçün daha əlverişli şərait vardır. Muxtar Respublikada şagirdlərin ümumi sayına nisbətən məşğul olanlar birinci növbədə 75,5 faiz və ikinci və üçüncü növbələrdə 24,5 faiz təşkil etmişdir. Bu da ümumilikdə ölkə üzrə göstəriciyə nisbətən yaxşıdır. Belə ki, respublikamız üzrə həmin göstərici müvafiq olaraq 66,5 faiz və 33,5 faiz olmuşdur.

Naxçıvan Muxtar Respublikasında orta ixtisas təhsilinin inkişafına da xüsusi diqqət yetirilirdi.

Naxçıvan MR-da dövlət və qeyri-dövlət orta ixtisas təhsil müəssisələri (dərs ilinin əvvəlinə)

İllər	1990	1995	2000	2001	2002	2003
Orta ixtisas təhsil müəssisələrinin sayı – cəmi	4	5	4	4	4	4
O cümlədən: dövlət	4	4	3	3	3	3
Qeyri-dövlət	-	1	1	1	1	1
Tələbələrin sayı – cəmi, nəfər	1811	1351	1235	1016	1039	1227
O cümlədən: dövlət	1811	1125	1102	905	982	1161
Onlardan şöbələrdə təhsil alanlar: gündüz	1304	1010	951	815	912	1036
Qiyabi	507	115	151	90	70	125
Qeyri-dövlət	-	226	133	111	57	66
Onlardan şöbələrdə təhsil alanlar: gündüz	-	107	133	111	57	66
Qiyabi	-	119	-	-	-	-
Əhalinin 10000 nəfərinə hesabı ilə tələbələrin sayı	59	40	34	28	28	33

2003-cü ildə Muxtar Respublikada 3 dövlət və 1 qeyri-dövlət orta ixtisas təhsil müəssisələri fəaliyyət göstərmişdir. Bu təhsil ocağında 2003-cü ildə 66 nəfər təhsil almışdır. Dövlət orta ixtisas təhsil müəssisələrində isə 1161 nəfər təhsil almışdır. Bu isə ümumilikdə 1227 nəfər deməkdir. Bunlardan 89,8 faizi gündüz, 10,2 faizi isə qiyabi şöbələrdə təhsil alanlardır. Əhalinin hər 10000 nəfərinə düşən orta ixtisas tələbələrinin sayı 2003-cü ildə 1990-cı ilə nisbətən 1,8 dəfə, 1995-ci ilə nisbətən 1,2 dəfə azalaraq 33 nəfərə bərabər olmuşdur. Qeyd olunan göstərici ümumrespublika üzrə 2003-cü ildə 64 nəfər olmuşdur ki, bu da Muxtar Respublikanın müvafiq göstəricisindən 1,9 dəfə çoxdur. Muxtar Respub-

likanın iqtisadiyyatında 1990-cı ildən sonra baş vermiş geriləmələr belə məktəblərə tələbatı azaltmışdır.

2003-cü ildə Muxtar Respublikada orta ixtisas məktəblərinə qəbul olanların sayı 438 nəfər olmuşdur.

2003-cü ildə orta ixtisas məktəblərinə qəbul olanların hamısı dövlət orta ixtisas məktəblərinin payına düşdüyündən, həmin ildə qeyri-dövlət orta ixtisas məktəblərinə qəbul olmamışdır. Qəbul olunanların 391-i gündüz, 47-si isə qiyabi şöbənin payına düşür.

Onu da qeyd edək ki, 2003-cü ildə Naxçıvan Muxtar Respublikasında dövlət və qeyri-dövlət orta ixtisas təhsil müəssisələri tərəfindən buraxılan mütəxəssislərin sayı 302 nəfər olmuşdur. Bu 1995-ci ilin göstəricisindən çox olsa da 1990-cı ildəki göstəricilərdən 2,5 dəfə azdır. Qeyd olunan azalma əhalinin hər 10000 nəfərinə düşən orta ixtisas təhsil müəssisələri tərəfindən buraxılan mütəxəssislərin sayında da özünü göstərir. Belə ki, 1990-cı ildə bu göstərici 25 olmuşdursa, 2003-cü ildə o, 8-ə qədər azalmışdır.

Təhsil sisteminin əsas həlqələrindən biri də dövlət və qeyri-dövlət ali məktəbləridir.

Naxçıvan MR-da dövlət və qeyri-dövlət ali təhsil müəssisələri (dərs ilinin əvvəlinə)

İllər	1990	1995	2000	2001	2002	2003
Ali məktəblərin sayı – cəmi	1	1	2	2	2	3
O cümlədən: dövlət	1	1	1	1	1	2
Qeyri-dövlət	-	-	1	1	1	1
Tələbələrin sayı – cəmi, nəfər	2229	2254	3307	3629	4532	4390
O cümlədən: dövlət	2229	2254	3307	3130	3371	3630
Onlardan şöbələrdə təhsil alanlar: gündüz	1365	1662	2381	2335	2527	2732
Qiyabi	864	592	656	795	844	898
Qeyri-dövlət	-	-	592	708	1161	760
Onlardan						